**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FOLKLOR İNSTİTUTU**

**MƏLEYKƏ MƏMMƏDOVA**

# AZƏRBAYCAN VƏ ANADOLU FOLKLORUNDA TƏKRARLAMALAR

**"Elm və təhsil"**
**Bakı – 2019**

**Elmi redaktoru:** **Tahirə Məmməd**
*filologiya üzrə elmlər doktoru, professor*

**Rəyçilər:** **Seyfəddin Rzasoy**
*filologiya üzrə elmlər doktoru, professor*

**İslam Sadıq**
*filologiya üzrə elmlər doktoru*

Məleykə Nizami qızı Məmmədova.
Azərbaycan və Anadolu folklorunda təkrarlamalar.
Bakı, "Elm və təhsil", 2019, 188 səh.

Monoqrafiyada təkrarlamalar Azərbaycan və Anadolu nümunələri əsasında geniş təhlilə cəlb edilmişdir. Tədqiqat işi Azərbaycanda ilk dəfə olaraq AMEA Folklor İnstitunun Mifologiya şöbəsində yerinə yetirilmiş, 15 yanvar 2019-cü il tarixində həmin şöbədə geniş müzakirə edilmişdir.

M $\frac{4603000000}{N-98-2019}$ Qrifli nəşr

© M.Məmmədova, 2019

## GİRİŞ

Cəmiyyətin çox əhəmiyyətli bir parçası olan uşaqların şəxsiyyətinin formalaşmasında ən əsas bünövrə daşlarından biri sayılan mədəniyyət anlayışına xalqın mənəviyyatı, adət-ənənələri, ədəbiyyatı, folkloru, bir sözlə, o xalqı ayaqda tutan, onu var edən bütün milli dəyərləri daxildir. Sağlam yeni nəsillərin yetişməsi və bir millət kimi ayaqda güclü dura bilmək üçün bizi biz edən bütün dəyərlərimizə sahib çıxmalı, uşaqlarımızı laylalar, nağıllar, oxşamalar, əzizləmələr, tapmacalar, oyunlar, təkərləmələr, sanamalar, düzgülər, yanıltmaclar və bu kimi uşaq folkloru nümunələri ilə böyütməli, mənəvi qidasını öz dəyərlərimizlə təmin etməliyik ki, mənəvi boşluqlar içində böyüyüb yabançı mədəniyyətlərin təsiri ilə özündən uşaqlaşmasın və daxilən ziddiyyətlər yaşayıb yarımçıq şəxsiyyət kimi formalaşmasın.

Bu gün zəngin uşaq folkloru janrlarının yerinə texnoloji oyunların keçməsinin qarşısını almaq məqsədilə mümkün qədər uşaq folklorunun təbliği və yaşadılması ilə əlaqədar olaraq hər bir vətəndaşın, xüsusilə anaların üzərinə çox iş düşür. Bilərək uşaqların birbaşa şüuruna, zehninə yeridilən yad ünsürlərdən ancaq uşaqları öz mədəniyyətimizə, kültürümüzə sahib çıxaraq, o ruhda böyüdərək qorumaq olar. Folklor nümunələrinə məktəblərdə, təhsil sistemimizdə daha çox yer verərərək uşaqlara öyrətməli və yaşatmalıyıq. Uşaqların təlim-tərbiyyəsinin ana bətnindən başladığı bilinən müasir çağımızda məhz analar daha şüurluca uşaqlarını yetişdirməyə başlamalı, beşikdən uşaqlarına laylalar, təkərləmələr, nağıllar söyləməli, keçmişini və bügününü tanıdarkən, gələcəyə də hazırlamalıdır.

Bu monoqrafiyanın ərsəyə gəlməsində əsas məqsədimiz zəngin, gözəl və ahəngdar dilimizin daşıyıcısı olan, eyni zamanda uşaqların nitq və zəkasının inkişafında əsas rol oynayan təkərləmələrin bir yerə yığılması, yeni nəsillərə ötürülərək yaşadılması, günlük yaşamımızda uşaqların oyunlar zamanı işlədəcəkləri təkərləmələrə ehtiyac duyduqlarında əllərinin altında dəyərli bir mənbəyə sahib olmalarıdır.

Millətlərin hafizəsindəki söz varlığının zənginliyi onun düşüncə tərzinin zənginliyindən xəbər verir. Bu zənginliyin bariz nümunələrindən biri də təkərləmələrdir. Təkərləmələr əyləncəli olduğu qədər, uşaqların təlim-tərbiyyəsində, həyata hazırlanmasında oyunlar qədər əhəmiyyət kəsb edir. Bir insanın həyat fəlsəfəsində uşaqlıq dövürləri böyük rol oynadığı üçün, sağlam uşaqlıq dönəmi keçirən insanlar cəmiyyətdə maddi və mənəvi ruh sağlığı yerində olan şəxsiyyətlər kimi formalaşır. Bu baxımdan uşaq folkloru nümunələri fərdlərin şəxsiyyət kimi yetişməsində, təlim-tərbiyyəsində əvəzsiz vasitədir.

Bilindiyi kimi bir dilin öyrənilməsində əsasən dörd orqandan – qulaq, dil, göz və əldən istifadə edilir. Oxuma və yazma bilməyən 0-6 yaş qrupu uşaqlarda isə əsasən iki orqan, yəni qulaq və dildən istifadə edilərək dil öyrənimi gerçəkləşdirilir. Balaca uşaqlar istər öz ana dili olsun, istərsə də xarici bir dili eşidərək və təkrarlayaraq daha tez öyrənirlər. Dinləmə qabiliyyətinin inkişafı üçün istifadə edilən mətnlərdə səs və heca bənzərliklərinə çox diqqət edilir. Eyni zamanda bunu, uşaqların sıxılmaması üçün daha əyləncəli hala gətirmək də xüsusi əhəmiyyət kəsb edir. Bütün bu xüsusiyyətləri özündə birləşdirən təkərləmələri uşaqlar eşidərək və səsləri, sözləri, cümlələri düzgün tələffüz edərək deməyə çalışması dilin incəliklərini və zənginliklərini daha tez mənimsəməsinə yardımçı olur.

İnsanlığın ömrü qədər qədim tarixi olan təkərləmələr xalqın dünyagörüşünü, həyatının müxtəlif hissələrini, eyni zamanda mədəniyyətini təşkil edən müxtəlif mərasimləri, adət-ənənələri,

inancları əks etdirən folklor nümunələrindəndir. Təkərləmələr də eyni ilə oyunlar kimi ən qədim dövrlərdən xalqın günlük həyat tərzini, əyləncə dünyasını yansıtması baxımından da diqqət çəkicidir. Pisləri cəzalandırmaq, yaxşıları qorumaq və onlara dəstək olmaq, əməyi sevmək, işgüzar-zəhmətkeş, igid-qəhrəman olmaq və bu kimi ali insani duyğuları aşılayan və folklor janrları içində əhəmiyyətli yer tutan təkərləmələr həm uşaqların, həm də böyüklərin təlim-tərbiyəsində, zehni və psixoloji inkişafında böyük rol oynayır.

XXI əsrdə sürətlə inkişaf edən texnologiya və qloballaşmanın nəticələri uşaq folkloru nümunələrinə, xüsusilə uşaq oyun və təkərləmələrə də təsir etmişdir. Qloballaşma ilə bağlı yaranan yeni maraq dairələri və texnologiyanın gətirmiş olduğu yeni əyləncələr, yeni oyunlar, televiziya proqramları əvvəllər çox gündəmdə olan bir çox təkərləmələrin unudulmasına, uşaqlar və gənclər tərəfindən artıq bilinməməsinə, söylənilməməsinə, oyun şəklində icra edilməməsinə gətirib çıxarmışdır. Bu baxımdan uşaq folkloru nümunələri, özəlliklə də təkərləmələrimiz qorunması vacib olan mədəni mirasımızdır. Bu mirasın qorunması, təbliği və gələcək nəsillərə ötürülməsi vacib olduğu qədər elmi araşdırılmasının aktuallığı da əhəmiyyət kəsb edir.

Bilavasitə iştirakçısı və dinləyicisi olduğumuz təkərləmələr fiziki, zehni, psixi, estetik və sosioloji, etno-psixoloji baxımdan çox əhəmiyyətlidir. Belə ki, təkərləmələr söyləndiyi zaman və ya oyun şəklində icra edildiyində əylənməmizə, asudə vaxtımızı şən keçirməyimizə səbəb olduğu qədər, zehni-psixi sağlamlıq və nitqin, zəkanın inkişafı üçün də olduqca faydalıdır. İstər uşaqların, istərsə də böyüklərin bir araya gəlməsində, maraq dairəsinin genişlənməsində, sosiallaşmasında təkərləmələrin böyük rolu vardır.

Təkərləmələrin cəmiyyətə təsiri parametrlərini və perspektivlərini nəzərə alsaq, onların toplanılması, sistemləşdirilməsi, təsnifatı, təbliği və yaşadılması ilə bağlı bu sahədə görüləcək işlər və müsbət yeniliklərin nəticəsində türk xalqının genetik yaddaşında

var olan məlumatların, faydalı bilgilərin ötürülməsi baxımından mövzu müasir informasiya cəmiyyətimiz üçün də olduqca əhəmiyyətli və aktualdır.

Təkrarləmələrin həm ənənəvi funksiyasını, həm də ona müasir dekonstruktiv yanaşmanı nəzərə alaraq bu sahənin araşdırılması tələbatı meydana çıxır. İstər Azərbaycanın, istərsə də Anadolunun ayrı-ayrı bölgələrində hazırkı dövrdə də təkərləmələr xalq mərasimlərində, uyğun yığıncaqlarda, uşaq oyunlarında yenə də yaşamaqdadır. Təkərləmələr adət-ənənə ilə, mərasimlərlə, uşaq oyunları, nağıllarla sıx bağlı olduğundan adət-ənənələr, mərasimlər, uşaq oyunları, nağıllarımız yaşadıqca bu tipli təkərləmələr də öz varlığını daim göstərəcəkdir. Adət-ənənə, mərasim və uşaq oyunları, nağıllar ilə təkərləmələrin qarşılıqlı münasibətləri, onların dayanaqlığı məsələsini araşdırmaq baxımından da təkərləmələrin öyrənilməsi aktualdır.

Müəyyən bir tarixdə Azərbaycan işğal altında olmaqla öz mənəvi köklərindən ayrılaraq başqa xalqların təsirinə məruz qalmışdır. Həmçinin Anadolunun özü də müxtəlif dövrlərdə baş verən hadisələrdən, tərkibindəki etnik qrupların siyasi-ideoloji və dini dünyagörüşündən təsirlənmişdir. Həmin müddətdə Anadolu və Azərbaycanda bir çox sahələrdə olduğu kimi, oyunları, mərasimləri, xüsusilə də təkərləmələri arasında da qismən ayrılıqlar yaranmışdır. Bundan başqa informasiya mühitinin dar, ilkin yaradıcılıq məhsulunun yaradıcısı ilə onun gələcək variantlarının yaradıcıları arasında əlaqələrin yox deyəcək qədər az olduğu zamanlarda söylənilən folklor nümunələri mövcud şəraitə uyğun olaraq dəyişikliyə məruz qalmışdır. Bu baxımdan araşdırma zamanı qarşılaşdırdığımız təkərləmələrdə rast gəldiyimiz fərqliliklər təbii qəbul edilməlidir.

Türk milləti olduğumuzdan, sözsüz ki, bir çox sahələrdə oxşar cəhətlər olduğu kimi, dünyagörüşümüzün, həyat tərzimizin, adət-ənənələrimizin və inanclarımızın öz əksini tapdığı və milli--mədəni mirasımız olan təkərləmələrimiz arasında da eyniliklər

çoxdur. Fərqliliklərin və onların səbəblərinin üzə çıxarılması da elmi tədqiqat tələb edir.

Folklorun yazılı ədəbiyyata  görə qədimliyini nəzərə alaraq epik növün folklor mənşəyinə aydınlıq gətirilməsi baxımından da mövzu olduqca aktualdır.

Tədqiqatın obyektinə Azərbaycan və Anadolu ərazisində yayılmış təkərləmələr və onlarla bağlı kitablar, antologiyalar, dövri elmi nəşrlər, konfrans materialları və b. aiddir. Tədqiqatın predmetini isə Azərbaycan və Anadoludakı təkərləmələrin qarşılaşdırılması, müqayisəli təhlili təşkil edir.

Tədqiqat işində əsas məqsəd Azərbaycan və Anadolu ərazisində yayılmış təkərləmələrin müqayisəli araşdırılmasıdır. Bu müqayisə əsasında hansı bölgədə olan təkərləmələrin və yaxud onu təşkil edən ünsürlərin başqa bir bölgədə olub-olmaması, varlığının və yoxluğunun, fəallığının və təsadüfiliyinin səbəblərini aydınlaşdırmaq da tədqiqatın başlıca vəzifələrindəndir. Həmçinin indiyə qədərki tipoloji təsnifatlar üzərində dəqiqləşdirmə aparmaq da tədqiqatın əsas məqsəd və vəzifələri sırasına daxildir. Bütün bunların təhlili üçün aşağıdakı məsələlərin həlli əsas vəzifə kimi ön plana çəkilmişdir:

-Təkərləmələrin nağılda,  oyun-tamaşa kompozisiyasında yeri; tipoloji təsnifatı: Tədqiqatın əsas vəzifələrdən biri də təkərləmələrin nağılda və oyun-tamaşa kompozisiyasında yerini araşdırmaq və onlara uyğun tipoloji təsnifat aparmaqdır.

- Aparılan tipoloji təsnifatda müqayisəli tipoloji yolla eynilikləri və fərqləri müəyyənləşdirməkdir.

-Təkərləmə çeşidləri və örnəkləri: Təkərləmə çeşidlərini bir-birindən fərləndirərək hər iki bölgədə olan bənzər və fərqli nümunələri göstərmək də aşadırmanın qarşıya qoyduğu məqsədlərdən biridir.

İstər Azərbaycan, istərsə də Türkiyə folklorşünaslığında ayrı-ayrı mövzular daxilində bu məsələyə toxunulsa da, müqayisəli tipologiya problemi ayrıca monoqrafik tədqiqat predmetinə

çevrilməmişdir. İlk dəfə olaraq bu tədqiqatda həmin problem sistemli şəkildə araşdırılmışdır.

Xalq ədəbiyyatının epik növünə girən, lirik növün bir çox xüsusiyyətlərini özündə ehtiva edən təkərləmələr hal-hazırda bir çox mərasimlərdə, xüsusilə uşaq oyunlarında yaşaması ilə aktualdır və bir çox araşdırmaçıların diqqətini çəkmiş, mövzu ilə bağlı istər Azərbaycan, istərsə də Türkiyə folklorşünaslığında müxtəlif kitablar, məqalələr yazılmış, lakin müqayisəli tipologiya ayrıca monoqrafik tədqiqat predmetinə çevrilməmişdir. Bildiyimiz kimi, istər Azərbaycan, istərsə də Anadolu folklor nümunələrinin araşdırılması, toplanıb sistemləşdirilməsi və nəşri məsələləri əsasən XIX əsrdən başlayır. Azərbaycanda 1881-ci ildə Tiflis Qafqaz Tədris İdarəsinin nəşr etdiyi "Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu" (SMOMPK) məcmuəsində uşaq nağılları, lətifələr, müxtəlif şeir parçaları ilə yanaşı uşaq oyun və təkərləmələrinə aid nümunələrə də yer verilmişdir. Əlbəttə, tərcümədə verilən bu materiallar ixtisar edilərək orijinallığını itirsə də, məzmunun qorunub saxlanması, həm də toplama və nəşr işində ilk addım olması baxımından əhəmiyyətlidir. 1905-ci ildən sonra yayınlanan "Məktəb", "Babayi-Əmir", "Dəbistan", "Rəhbər" kimi jurnallarda uşaq folkloru nümunələri (tapmaca, uşaq oyunları, təkərləmələr, acıtma, yanıltmac, düzgü və s.) nəşr edilməyə başlanır. Sözügedən nümunələrin ilk dəfə toplu halda nəşri 1912-ci ildə F.Köçərlinin "Balalara hədiyyə" adlı kitabı ilə gerçəkləşir. Bu kitabda uşaq folkloruna aid təkərləmələr, oyun və tamaşa mətnləri qismən də olsa yer almışdır. M.Arifin "Seçilmiş əsərləri" (1970), T.Fərzəliyev və İ.Abbasovun toplayıb tərtib etdiyi "El çələngi" (1983), E.Aslanovun "El-oba oyunu, xalq tamaşası" (1984), C.Heyətin "Azərbaycan şifahi xalq ədəbiyyatı" (1990), P.Əfəndiyevin "Azərbaycan şifahi xalq ədəbiyyatı" (1992), T.Q.Səlimov-Şağaninin "Oyun və əyləncələr də bir tarixdir" (1993), Azərbaycan folkloru antologiyaları (Ağbaba, Ağdaş, Borçalı, Dərbənd, Dərələyəz, Gəncəbasar,

Göyçə, İrəvan, Qarabağ, Qaraqoyunlu, Qazax, Loru-Pəmbək, Masallı, Muğan, Naxçıvan, Şəki, Şirvan, Şəki-Qəbələ-Oğuz--Qax-Zaqatala-Balakən, Təbriz, Zəngəzur), A.Nəbiyevin "Azərbaycan uşaq folkloru" (2000), iki cildlik "Azərbaycan xalq ədəbiyyatı" (2006), AMEA-nın nəşri olan Azərbaycan ədəbiyyat tarixi I c. (2004), B.Abdullanın tərtib etdiyi "Azərbaycan şifahi xalq ədəbiyyatı" (2004), "Azərbaycan folkloru" (2005), Ə.Ağayev və Y.Səmədovun "Ümumtəhsil məktəblərində xalq oyun ənənələrindən istifadə" (2005), M.Təhmasibin "Seçilmiş əsərləri" I c. (2010), R.Qafarlının "Uşaq folklorunun janr sistemi və poetikası" (2013), Anadoluda isə S.Özəlin "Çocuk tekerlemeleri" (1985), E.Artunun "Tekirdağ Folklor Araştırmaları" (1978), "Tekirdağ Folklorundan Örnekler" (1983), M.Özhanın "Çocuk Oyunlarımız" (1990), G.Yalçının "Güzel Konusma ve Yazma Kılavuzu" (1991), N.Şenbayın "Alıştırmalı Diksiyon Kitabı" (1991), M.Baranın "Çocuk Oyunları" (1993), P.N.Boratavın "Yüz Soruda Türk Halk Edebiyatı" (1992), "Tekerleme" (2000), A.Cəfəroğlunun "Anadolu Dialektolojisi Üzerine Malzeme II" (1994), "Orta Anadolu Ağızlarından Derlemeler" (1995), "Doğu İllerimiz Ağızlarından Toplamalar" (1995), M.Özhan və M.Muradoğlunun "Türk Cumhuriyetlerinde Çocuk Oyunları" (1997), H.R.Çongurun "Söz Sanatı" (1999), Ö.Göçgünün "Güzel Konuma Sanatı" (2000), N.S.Banarlının "Türk Edebiyatı Tarihi" (2001), M.Andın "Oyun ve Büyü" (2003), H.Günəşin "Çocuk Oyunları" (2003), A.Kabaklının "Türk Edebiyatı" (2004), M.Ö.Oğuz və P.Ersoyun "Türkiyede 2004 Yılında Yaşayan Geleneksel Çocuk Oyunları" (2005) kitabları, G.Göktaşın "Oyun Tekerlemelerinin Araştırılması ve İncelenmesi" (2006), D.B.Çelebinin "Türkiye ve Azerbaycandaki Çocuk Oyunları ve Oyuncaklarının Karşılaştırılmalı İncelenmesi" (2007), B.A.Şendağın "Sayışma ve tekerleme derlemeleri – çözümleri" (2009) magistr diplom işləri, M.Andın "Çocuk Oyunlarının Kültürümüzde Yeri ve Önemi" (1979), M.Özhanın "Türk Cumhuriyet-

lerinde Oynanan Çocuk Oyunları ve Tekerlemelerinin Türkiyedekilerle Karşılaştırılması" (1995), Y.Həbibov və İ.Sözenin "Anadolu və Azerbaycan Türklerinin Çocuk Oyunlarının Karşılaştırılması" (2005), T.Dilci, T.Gür "Tekerlemelerin Eğitim-Öğretim Sürecince Kullanımına Yönelik İlköğretim Öğrencilerinin Görüşleri Sivas İli Örneği" (2012), A.Barış, A.S.Ece "Kültürel Değerlerin Aktarılmasında Çocuk Tekerlemeleri,Tekerlemeleri Biliyor muyuz?" (2015), M.N.Önal "Oyun Tekerlemelerinin Yapısı ve Türkçe`nin Eğitim-Öğretimindeki Yeri" adlı məqalələri və b. tədqiqat mövzumuz üçün əsas nəzəri material kimi istifadə edilsə də, bu çalışmalarda təkərləmələr tədqiqatımız üçün xarakterik olan müqayisəli tipologiya şəklində monoqrafik tədqiqat predmetinə çevrilməmişdir.

Tədqiqat yuxarıda göstərilən problemlərin sistemli şəkildə araşdırılması, aparılan elmi təsnifatlar və müqayisəli təhlillər baxımından həm Azərbaycanda, həm də Türkiyədə ilk olması ilə mövzunun öyrənilməsinin vacibliyini şərtləndirir.

Tədqiqatın nəzəri-metodoloji əsaslarını əsasən tədqiqat metodu kimi tipoloji-müqayisəli və struktur-semantik metodlar təşkil edərək araşdırma işində tətbiq edilmişdir.

Tədqiqatın elmi yeniliklərini şərtləndirən başlıca amil Azərbaycan və Anadolu nümunələri əsasında təkərləmələrin tipologiyası mövzusunun müasir elmi-nəzəri aspektdən sistemli şəkildə ilk dəfə öyrənilməsindən ibarətdir. Bunun nəticəsində tədqiqat işində bir çox yeniliklər əldə edilmişdir:

-Təkərləmələr mövzularına, oynanılma yeri və zamanına görə təsnif edilərək indiyə qədər başqa araşdırmalarda rast gəlmədiyimiz təsnifatla Azərbaycan və Anadolu nümunələri əsasında qruplaşdırılmışdır.

- Çeşidlərinə görə bəzən bir-birinə qarışdırılmış təkərləmələr dəqiqliklə göstərilmişdir.

- İlk dəfə olaraq heç bir antologiya və kitabda yer almayan şəxsi arxivimizə aid uşaq təkərləmə nümunələri bu tədqiqatda verilmişdir.

- Nağıllarda və oyun-tamaşa kompozisiyasında təkərləmələr Azərbaycanda ilk dəfə, Anadoludakı təsnifatlardan isə daha geniş, fərqli və təfsilatlı şəkildə üç əsas, bir neçə alt başlıq halında iki bölgəyə xas bənzər nümunələr əsasında verilmişdir. Eyni zamanda, ilk dəfə olaraq, təkərləmədən oyun-tamaşa kompozisiya elementi kimi bəhs edilmişdir.

- Təkərləmələrin əsas fünksiyaları maddələr halında göstərilməklə yanaşı təkərləmələrin mövzu və funksiya baxımından zənginliyini diqqətə çəkmək üçün təkərləmələr “Uşaq oyun təkərləmələrində rənglər” və “Təkərləmələrdə dağ obrazı” kimi başlıqlar altında da araşdırılmışdır.

- Monoqrafiyada aparılan təsnifat və müqayisələrin daha yaxşı anlaşılması üçün tədqiqatın sonunda həm Azərbaycan, həm də Anadolunun müxtəlif bölgələrinə xas yanıltmaclarla yanaşı, mərasim təkərləmələrilə zəngin olan “Axrət ana” oyunu da Azərbaycan türkcəsinə axtarılaraq əlavə olunmuşdur.

Tədqiqatın nəzəri əhəmiyyəti ilk növbədə onun nəzəri nəticələrindən folklorşünaslıqda Azərbaycan və Anadolu folklorunda təkərləmələr istiqamətində aparılacaq tədqiqatlarda və gələcəkdə hazırlanacaq folklor külliyyatlarında istifadə imkanları yaradır. Eyni zamanda, digər türk xalqlarının da folklor araşdırmaları üçün bu tədqiqatda sistemləşdirilib üzə çıxarılan dominant cəhətlər, yanaşma tərzi nəzəri baza rolu oynaya bilər. İşin praktiki əhəmiyyəti ondan ibarətdir ki, tədqiqatdan ali məktəblərin filologiya fakültələrində uşaq folklorunun, müxtəlif mərasim və oyunların, təkərləmə çeşidi və nümunələrinin tədrisi zamanı dərs vəsaiti kimi istifadə oluna bilər. Bundan başqa, mərasimlərdə, uşaq tədbirlərində həmin oyun və mərasimlər hazırlanarkən quruluşçu rejissorlar üçün elmi yanaşmaya yardım edə bilər.

# I FƏSİL

# TƏKƏRLƏMƏLƏRİN NAĞILDA VƏ OYUN-TAMAŞA KOMPOZİSİYASINDA YERİ; TİPOLOJİ TƏSNİFATI

Lüğətlərdə izahı "ağızda diyirlənən, boş-mənasız söz" kimi verilən təkərləmələr "bir dilin xüsusiyyətlərindən olan, xoş, təəccübləndirici, şablon söyləyiş"dir (101, 3088-3089). Təkərləmə əski türkcədə "halqa, yumru bir şeyin eşik tərəfi" mənasında olan "tegre" sözünün indiki şəkli "təkər"dən törədilərək "təkər-lə-mə", "diyirlənmə" mənasına gəlir. Doğan Kaya "Anonim xalq şeiri" adlı əsərində təkərləməni, "vəzn, qafiyə, səci və ya aliterasiyalardan istifadə edərək hisslərin, fikirlərin, hal və xəyallarin şişirtmə, qəribəlik, təzadlıq, bənzətmə, güldürü, qısa tanım yaxud çağrışımlar yoluyla meydana gətirilən mənzum xüsusiyyətli şablon sözlərdir" (134, 546) şəklində tərif edir. Pərtəv Naili Boratav "100 soruda türk xalq ədəbiyyatı" adlı əsərində tərifini verməyin çətin olduğunu bildirərək, təkərləmənin baş uyaqlar (qafiyələr) və uyaqlarla əldə edilən səs oyunları olduğunu və çağrışımlarla bir-birinə bağlandığını, müəyyən bir şeir formasına uydurulmuş, bir-birini tutmaz bəzi xəyallarla düşüncələrin düzülməsindən ortaya çıxdığını qeyd etmişdir (111, 165). Bildiyimiz kimi, nağıl, hekayə, tapmaca, xalq oyun-tamaşaları, mərasimlər, uşaq oyunları və bu kimi ədəbi janrlar içində və ya müstəqil şəkildə söylənən vəznli, qafiyəli sözlər olan təkərləmələr uşaq oyunlarında əylənmək, gözəl vaxt keçirmək, nitqi inkişaf etdirmək, əbə və qruba oyunçu seçmək, oyuna çağırmaq və cəlb etmək, rəqib oyunçuları hirsləndirmək və s. üçün söylənir.

Nağıl, hekayə, tapmaca, xalq tamaşası, mərasim və oyun təkərləməsi kimi adlarla qruplaşdırılan təkərləmələr daha çox

uşaq oyunlarında, nağılların baş, orta və sonunda söylənərək, Anadoluda bölgələrə görə, oranlama, tenmə, sayışma, sayışmaca, deyişat, deyişət, döşəmə kimi müxtəlif adlarla ifadə edilir. Həmçinin Anadoluda "Qaragöz" və "Ortaoyun"da işlədilən xoş, təəccübləndirici və güldürücü söyləyiş olan muhavərə, uşaq oyununlarında əbə seçimində söylənən sayışmalar, Azərbaycanda sanama, düzgü, yanıltmac, acıtmalar və s. müxtəlif xalq ədəbiyyatı, xüsusilə uşaq folkloru janrları təkərləmə çeşidləridir və çox vaxt oyun təkərləmələri funksiyasını yerinə yetirir.

Nağıl təkərləmələri ilə yanıltmac təkərləmələr əsasən nəsr, mərasim və oyun təkərləmələri isə nəzm formasındadır. Bildiyimiz kimi, ilk təkərləmə nümunələrinə XI əsrdən etibarən türk ədəbiyyatında, xüsusilə "Divani-Lüğət`it-Türk"də rast gəlinir. Həmin təkərləmə nümunələrindən biri belədir: "Şu yoğurdu sarımsaklasak da mı saklasak, sarımsaklamasak da mı saklasak?". Azərbaycanda yanıltmac olaraq bilinən bu təkərləmənin bənzəri "Qatığı sarımsaqlasaq da olar, sarımsaqlamasaq da"dır.

Saz şairləri arasında yarışma, deyişmə mahiyyətində qarşılıqlı şeir söyləmə olan təkərləmə, aşıqlar arasında təkəllüm olaraq da adlandırılır. Bu cür şeirlər ya söyləməsi çətin sözlərdən meydana gətirilir, ya da darayaq şəklindədir. Ayaq daraldıqca qafiyə tapmaq çətinləşir. Aşıqlardan biri fəsil aralarında təkərləməyə başlayır və yeni bir ayaq açır (101, 3089).

Qədimdən cəza növü kimi işlədilən "təkərləmə" də vardır. Bildiyimiz kimi, istər Hammurapi qanunlarında, istərsə də Roma hüququnda və ya İslam ədliyyəsində cinayətlərin qarşısını almaq və məhdudlaşdırmaq üçün müxtəlif ölüm cəzaları tətbiq edilmişdir. Bu cür edam cəzalarından biri də təkərləmədir. Təkərləmə cəzası tətbiq edildiyi zaman cəllad dəmir çubuqla təkərə bağlanmış məhkumu qamçılayaraq diyirlədərmiş (185, 1).

## 1.Nağıl Təkərləmələri

Uşaq folkloru içində nağıllar xüsusi əhəmiyyətə malikdir. Uşaqların zəka və xəyal dünyasının inkişafında əvəzsiz rolu olan nağıllar, uşaqlar tərəfindən ən çox sevilən və dinlənilən folklor janrıdır. Qeyri-adi hadisələr, yarı gerçək, yarı uydurma olan maraqlı nağıllar uşaqların diqqətini çəkdiyi qədər nağıl təkərləmələri də bir o qədər maraq doğurucudur.

Nağılların və xalq hekayələrinin başında, ortasında və sonunda söylənən, yarı anlamlı, yarı anlamsız, qafiyəli, şablon sözlər olan nağıl təkərləmələri dinləyicinin diqqətinin cəmləməsinə və marağının oyanmasına yardımçı olduğu qədər, əyləndirmək, keyfləndirmək kimi funksiyaları da yerinə yetirir. Nağıl təkərləmələri danışılacaq nağıl və hekayənin uydurma, həqiqətdən uzaq, xəyal məhsulu olduğunu bildirir. Dinləyicinin nağıla olan marağını və həyəcanını artırmaq məqsədilə söylənən nağıl təkərləmələri əsasən nağılların başında, ortasında və sonunda olur. Bu cür nağıl təkərləmələri nümunə olaraq Azərbaycan və Anadoludakı bənzər variantlar seçilərək aşağıdakı kimi alt-alta verilmişdir:

Nağılın başında söylənən giriş təkərləmələri: *"Biri varmış biri yokmuş, Allahın kulu pek çokmuş, çok demesi günahmış..."* (Anadolu variantı)

*"Biri varmış, biri yoxmuş, Allahın bəndəsi çox imiş..."* (Azərbaycan variantı) (68, 155).

Bəzən nağılların başında söylənən nəzm şəklində olan təkərləmələrə də rast gəlirik. Müxtəlif versiyaları olan bu təkərləmələrin Azərbaycan və Anadolu variantlarını nümunə kimi aşağıdakıları göstərmək olar:

Azərbaycan variantı:
*Əvvəl zaman içində,*

*Xəlbir saman içində.*
*Dəvə dəlləklik eylər,*
*Köhnə hamam içində (68, 155).*
Yaxud:
*Hamam hamam içində,*
*Xəlbir saman içində.*
*Dəvə dəlləklik eylər,*
*Köhnə hamam içində.*
*Hamamçının tası yox,*
*Baltaçının baltası yox.*
*Orda bir tazı gördüm,*
*Onun da xaltası yox.*
*Nağıl-mağıl bilmərəm,*
*Bilsəm də söyləmərəm.*
*Xandan gəlmiş nökərəm,*
*Dinmə böyrünü sökərəm (60, 18).*

Anadolu variantı:
*Evvel zaman içinde,*
*Kalbur saman içinde.*
*Cinler top oynarken,*
*Eski hamam içinde (68, 155).*
*Yaxud:*
*Evvel zaman içinde,*
*Kalbur saman içinde,*
*Develer tella iken,*
*Pireler berber iken...*
*Ben bağda üzüm bekler,*
*Derede odun yükler iken,*
*Bir varmış,bir yokmuş...*
*Masalın yalanı mı olurmuş?*
*O yalan bu yalan,*
*Fili yuttu bir yılan...*

*Bu da mı yalan?*
*Derken; sabahleyin erken,*
*Keçiler koyunları tıraş ederken,*
*Tahta kurusu saz çalar,*
*Sıçan cirit atar iken,*
*Çıkmış bir kocakarı ortaya...*
*En sonunda açmış ağzını,*
*Yummuş gözünü.*
*Bir laf etmiş,*
*Bir laf etmiş...*
*Bakalım ne laflar etmiş...(201, 4).*

Bu nağıl təkərləməsinin başı eyni olub orta və son qisimləri fərqli olan bir digər nümunəsi isə belədir:

*Evvel zaman içinde,*
*Kalbur saman içinde,*
*Develer tellal,*
*Pireler berber iken,*
*Ben anamın beşiğini*
*Tıngır-mıngır sallar iken,*
*Az gittim, uz gittim,*
*Dere tepe düz gittim.*
*Çayır çimen geçerek,*
*Lale sümbül biçerek,*
*Ayla ayla bir güz gittim.*
*Bir de dönüb ardıma baktım ki, ne göreyim?*
*Gide-gide bir arpa boyu gitmemiş miyim?*
*Natal-matal martaval,*
*İşte size duyulmadık bir masal (201, 3).*

Nağılların ortasında söylənən təkərləmələr: *"Az gitmiş, uz gitmiş, dere tepe düz gitmiş, altı ay bir güz gitmiş, dönüp bir de arkasına bakmış ki bir arpa boyu yol gitmiş*" (Anadolu variantı).

*"Az getmiş, uz getmiş, dərə təpə düz getmiş, dərələrdən sel kimi, təpələrdən yel kimi, badiyi-sərsər kimi..."* (Azərbaycan variantı).

*"Az getdi, çox getdi, dərə-təpə düz getdi..."//"Az getdilər, üz getdilər, dərə-təpə düz getdilər..."* (Azərbaycan variantı) (68, 155).

Nağıl sonu təkərləmələri: *"Göydən üç alma düşdü, biri mənim, biri nağıl söyləyənin, biri də nağıla qulaq asanın"//"Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də nağıl söyləyənin"* (Azərbaycan variantı).

*"Derken gökten üç elma düşmüş. Biri meleğe, biri şehzadeye, biri de görüp duyduklarını anlatana"//"Sonunda mavi gökten yere üç altın elma düşmüş, biri anlatana, biri masalcıya, birisi de derleyiciye"//"Gökten üç elma düştü; biri bana, biri dinleyenlere, diğeri de bütün iyi insanlara olsun"* (Anadolu variantı) (68, 155-156).

Təkərləmə janrının əsas qismini meydana gətirən və laylalardan sonra psixoloji, sosioloji, estetik təsiri böyük olan oyun təkərləmələrinin uşaqların nitqinin inkişafında əvəzedilməz rolu vardır. Təkərləmələr bəsit, qısa, yadda qalıcı, asan söylənən, qafiyəli şeir olması xüsusiyyətlərilə uşaqların nitqini zənginləşdirməsi baxımından əhəmiyyətlidir. Bu təkərləmələrin əsasən uşaqların həm öz uydurmaları olduğu, həm də nəsildən-nəsilə ötürülərkən dəyişikliyə uğradığı üçün müxtəlif variantları da mövcuddur. İstər uşaqların, istərsə də böyüklərin xəyal güclərinin, zövq və əyləncələrinin məhsulu olan təkərləmələr həm Azərbaycan, həm də Anadolu mədəniyyətinin özbəöz əksidir. Ayrıca anonim xalq şeirinin əsas nümunələri olaraq dəyərləndirilən bu oyun təkərləmələri çeşidli mövzularda olması baxımından da xeyli zəngindir.

Mövzu və həcmcə çox zəngin olan oyun təkərləmələri fərqli qruplar halında bir çox foklorşünaslar tərəfindən təsnif

edilmişdir. Məsələn: Doğan Kaya, oyun təkərləmələrini; a) əbə çıxarma təkərləməsi (sayışmacalar), b) oyun sırasında söylənən təkərləmələr kimi qruplaşdırmışdır (134, 575). Mevlüt Özhan isə oyun təkərləmələrini; a) oyuna çağırma təkərləmələri, b) əbə və eş şeçimi təkərləmələri (sayışmaca), c) oyun içi təkərləmələri, d) oyuna təşviq, e) oyuncuları hirsləndirmə təkərləmələri, f) oyun sonu təkərləmələri kimi təsnif etmişdir (119, 70).

Uşaqların oynadıqları oyunlara görə təkərləmələr müxtəlif məqsədlər üçün fərqli zamanlarda, yer və məkanlarda söylənilir. Bütün bunları nəzərə alaraq Azərbaycan və Anadolu nümunələrinin müqayisəsi əsasında oyun təkərləmələrinin təsnifatını aşağıdakı şəkildə vermək olar:

## 2. Günlük Əyləncə-Oyun Təkərləmələri

Günlük əyləncə-oyun təkərləmələri uşaqların gündəlik oynadıqları oyunlarda, icra etdikləri əyləncələrdə söylədikləri təkərləmələrdir. Bunları da əsasan söylənmə məqamlarına görə oyun başı, oyun içi və oyun sonu deyə üç başlıq altında dəyərləndirə bilərik.

***2.1.Oyun Başı Təkərləmələri.*** Oyun başı təkərləmələri daha oyun başlamadan uşaqları oyuna dəvət etmək üçün oyunçuları çağırma, əbə seçimi və yoldaş seçimi zamanı söylənən təkərləmələrdir.

***-Oyunçuları Oyuna Çağırma Təkərləmələri.*** Oyunçuları çağırma təkərləmələri uşaqları oyuna dəvət etmək məqsədilə söylənən təkərləmələrdir. Uşaqlar öz-özlərinə oyun yerlərinə yığışdıqları kimi bir-birlərinə təkərləmələr söyləyərək də oynamağa çağırılırlar. Belə təkərləmə nümunələrinə Azərbaycanda rast gəlmədik. Anadoluda olanlara isə aşağıdakıları göstərmək olar:

*Gökten bir kuş uçar,*
*Kanatları kebap bişer.*
*Bu uşaklık gelir geçer,*
*Gelin uşak oynayalım (115, 80).*

*Ali papucu yarım,*
*Çık dışarıya çık oynayalım.*

*Ayşe hanım papucu yarım,*
*Çık dışarıya oynayalım (68, 157).*

*Cik cik Ayşecik,*
*Dalda erik Fatma Gidik.*
*Evi yakın Filiz Akın,*
*Hadi parka Dadı Kalfa (94, 162).*

Qeyd etmək lazımdır ki, bu tipli təkərləmələrə Azərbaycan şairlərinin şeirlərində rast gəlmək olur. Görünür bu da arxaik fonda genetik olaraq şairlərin bədii yaddaş yükünün təzahürü ilə bağlıdır. Nizami Muradoğlunun "Gəlin dostlar, çilingağac oynayaq" (71, 148) şeiri bu tipli poetik nümunələrdəndir.Həmçinin Azərbaycanın bəzi bölgələrində, xüsusilə Naxçıvanda uşaqlar qışda qar yağdığı zaman bir-birlərini "Qar topu" oynamağa çağırmaq üçün "Qara bax, qara" şeirini söyləyirlər:

*Qara bax, qara,*
*Gör necə yağır.*
*Çıxsan bayıra,*
*Məni də çağır.*
*Qar topu yığaq,*
*Top top oynayaq (68, 157)*

***-Oyunçu Seçimi Təkərləmələri.*** Oyunçuların oyunun başında əbə oyunçu seçimi zamanı söylədikləri Anadoluda sayışmaca, Azərbaycanda sanama tipli təkərləmələrdir. Sanamaya başlamadan əvvəl oyunçular düz sıra və ya dairə şəklində bir araya yığışırlar. Söylənən təkərləmənin son kəlməsi və ya son hecası hansı oyunçuda qurtarırsa, o, əbə olmaqdan qurtulur. Bu proses tək oyunçu qalana qədər təkrarlanır və sona qalan əbə olur, ya da əksinə, ilk çıxan oyunçu əbə olur. Bəzən isə sanama ilə saymaq iki-iki də ola bilər. Bu zaman iki oyunçu qarşı--qarşıya durur, biri sanama söyləyir, son heca ya da kəlmə kimə düşsə, o çıxır, yerinə başqa biri gəlir və beləliklə eyni şəkildə sayma davam edir. Bu cür sanama tipli təkərləmələrin sonu əsasən "sən bu oyundan çıx", "sən çıx", "sən dur, sən çıx" və b. şəkildə bitir. Belə təkərləmələrdən biri Azərbaycanda çox variantları olan və bir çox oyunda söylənən "İynə-İynə" sanamasıdır. Eyni təkərləmənin həm heca ölçüsü (dördlü), həm də quruluş baxımdan bənzəri Anadoluda da vardır:

Azərbaycan variantı:

*İynə-iynə,*
*Ucu düymə,*
*Bəli bəlican (Bal ballıca ballı keçi)*
*Şam ağacı,*
*Şatır keçi.*
*Qoz ağacı,*
*Qotur keçi.*
*Hoppan, huppan,*
*Yırıl, yırtıl,*
*Su iç qurtul (19, 376).*

Anadolu variantı:

*İnne minne,*
*Ucu dinne.*
*Fil killiğe,*

*Kuş dillice.*
*Lala lula,*
*Pirinç tunç (119, 45).*

Əbə oyunçu seçimində söylənən "Portağalı soydum" təkərləməsinin Azərbaycan və Anadolu variantları bir-birinə çox bənzəyir. Hər iki variantda ilk dörd misra eynidir, fərq digər misralardadır:

Azərbaycan variantı:
*Portağalı soydum,*
*Dil ucuma qoydum,*
*Mən bir oyun uydurdum:*
*Duma, duma, dum.*
*Qırmızı don,*
*Sarı limon.*
*Lupa, tuka bitməz,*
*Yara-yara itməz (16, 456).*

Anadolu variantı:
*Portakalı soydum,*
*Baş ucuma koydum,*
*Ben bir yalan uydurdum.*
*Duma, duma, dum,*
*Kırmızı mum.*
*Dolapta pekmez,*
*Yala, yala bitmez.*
*Ayşecik, Fatmacık,*
*Sen bu oyundan çık (119, 47).*

Azərbaycan və Anadoluda əbə oyunçu seçimi zamanı söylənən saylarla əlaqəli sanama təkərləmələrin bir-birlərinə bənzərləri vardır:

Azərbaycan variantı:
*Bir iki,*
*Bülbül kimi,*
*Camdan baxa,*
*Başım dağı,*
*Hop, hop, hoppan.*
*Qızıl bul, kimsədə yox,*
*Məndə isə çox.*
*Mənsə bugün,*
*Sümbülə gəldim.*
*Sümbüllər açmış,*
*Zər zəncəfil,*
*Dınqır, dınqır,*
*Sənsə çınqır (50, 249).*

Anadolu variantı:
*Bir, iki,*
*Bülbül teki.*
*Camdan bakar,*
*Başına takar.*
*Hap hup,*
*Altın top.*
*Kimsede yok,*
*Bizde çok.*
*Ben bir gün,*
*Sümbüle geldim.*
*Sümbül açmış,*
*Zer zefil olmuş,*
*Dıngır dıngırdak (119, 48).*
Azərbaycan variantı:
*Bir, iki bizimki,*
*Üç dörd, qapını ört,*
*Beş altı, daş altı.*

*Yeddi səkkiz, Firəngiz*
*Doqquz on, qırmızı don (50, 250).*

Anadolu variantı:
*Bir, iki, üç,*
*Ebelik pek güç.*
*Dört koca teker,*
*Beş dibe çöker.*
*Altı ne güzel,*
*Sekizde vur.*
*Dokuzda atla,*
*Onda tepe takla (68, 159).*

Əsasən ikili qrup halında icra edilən oyunlarda yoldaş seçiminə əvvəl başlayacaq oyunçular, ya da hər qrubun başçısı (mollası) olan oyunçular qarşılıqlı durur və sayırlar. Sanama hansında bitsə, o başçı komandasına ilk olaraq oyunçu seçmə haqqını qazanır. Bəzən qrup oyunlarında yoldaş oyunçu seçimi üçün söylənən təkərləmə dialoq şəklində olur. Başçılar arasında keçən dialoq hər oyunçu seçimi üçün təkrarlanır. İki başçı oyunçunun üzbəüz duraraq qarşılıqlı şəkildə söylədiyi təkərləmə nümunəsi aşağıdakı kimidir:

Azərbaycan variantı:
- *Götürdüm yeri*
- *Götürdüm göyü*
- *Götürdüm Aynuru*
- *Götürdüm Leylanı (68, 160).*

Anadolu variantı:
- *Aldım yeri*
- *Aldım göğü*
- *Bana bir eş*

*- Al beğendiğini*
*- Aldım Ali`yi (68, 160).*

***2.2.Oyun İçi Təkərləmələri.*** Oyun içi təkərləmələri oyunun əsas özəyini təşkil etməklə bərabər, oyunu idarə etmək, ona rəng qatmaq məqsədilə icra edilən oyunun içində söylənən təkərləmələrdir. Bu cür təkərləmələrin bir qismi oyunun ya tamamını əhatə edir, ya da oyunun müəyyən bir məqamında və bəlli bir məqsəd üçün söylənilir. Sözügedən məqam və məqsədləri nəzərə alaraq oyun içi təkərləmələri də bir neçə altbaşlıqda qruplaşdıra bilərik:

***-Təkrarlanan Təkərləmələr.*** Bu tip təkərləmələr daha çox oyunun tamamını əhatə edərək oyun boyunca davamlı təkrarlanır. Təkrarlanan təkərləmələrin bir qismi sırf balaca uşaqlar üçündür. Bu təkərləmələr körpələrlə oynayaraq, əylənərək onlara danışmağı, bəzi anlayışları öyrətmək məqsədilə təkrarən deyilən təkərləmələrdir. Sözügedən təkərləmələrə uşaqlara barmaqları öyrətmək üçün söylənən "Barmaqlar" təkərləməsini nümunə göstərə bilərik:

Azərbaycan variantı:
*Baş barmaq,*
*Başala barmaq.*
*Uzun hacı,*
*Qıl turacı,*
*Xırdaca bacı.*
*Bu vurdu,*
*Bu tutdu.*
*Bu bişirdi,*
*Bu yedi.*
*Vay, bəbəyə qalmadı.*
*Addıx, basdıx,*

*Kərələdik, kəsdik.*
*Xoruz beçə,*
*Qıllı keçə (50, 250).*

Anadolu variantı:
*Elim elime bidek,*
*Elden çıkan debildek.*
*Baş parmak,*
*Badem parmak.*
*Uzun hacı,*
*Gül bacı.*
*Bıdı bıdı,*
*Iğı mığı mığıdı,*
*Sarı dede kavudu.*
*Sarı ineğin sarısı,*
*Sarı koyun derisi,*
*Halil Amca`nın Karısı,*
*Ekmek peynir vermedi.*
*Iğmadan kırmadım,*
*Çek şunun birini (119, 16).*

Azərbaycan və Anadoluda oynanılan əksər günlük əyləncəli oyunlarda oyun içi təkərləmələri mövcuddur və bu təkərləmələr əsasən oyunun bütün gedişatında əsas rol oynayır və demək olar ki, oyunun başından sonuna qədər eyni ilə təkrarlanır. Bu tip oyun təkərləmələrinin Azərbaycan və Anadoluda variantları olduqca çoxdur. Hər iki bölgədə bənzər şəkildə oynanılan "Kəpənək" və "Bənövşə" oyunlarında söylənən və bir çox versiyaları olan "Kəpənək" təkərləməsi" ilə "Bənövşə təkərləməsi" oyun içi təkərləmələrə nümunədir.

Azərbaycan variantı:
*Əl-əl əpənək,*

*Əldən çıxdı kəpənək.*
*Kəpənəyin yarısı,*
*Yumurtanın sarısı... (69, 21)*

Anadolu variantı:
*El el epenek,*
*Elden çıkan kepenek.*
*Kepeneğin yarısı,*
*Bit bidanın karısı...(68, 53)*

Azərbaycan və Anadolu folklorunda bənzər şəkildə icra edilən "Bənövşə" oyununun təkrarləmələri isə aşağıdakı kimidir:
Azərbaycan variantı:

*-Bənövşə,*
*-Bəndə düşər.*
*-Bizdən sizə kim düşə?*
*-Adı gözəl, özü gözəl Fatma*

Anadolu variantı:
*-Mer mer Menekşe,*
*-Mendilim dört köşe.*
*-Bizden size kim düşe?*
*-Fatma düşe (68, 161-162).*

***-Təşviq Edici Təkrarləmələr.*** Bu təkrarləmələr oyunçuları oyuna təşviq etmək və oyun əsnasında oyunçuların daha yaxşı oynamaları üçün onlara mənəvi dəstək olmaq məqsədilə söylənilir. Oyunçunun yaxşı oynaması və rəqib komandaya qalib gəlməsi üçün onun əhval-ruhiyyəsini qaldırmaq məqsədilə Azərbaycanda və Anadoluda söylənən təşviq edici təkrarləmələrə aşağıdakı nümunəni göstərə bilərik:

Azərbaycanda:
*- Qıy gılınc, qıy qılınc,*
*- Qıyma qılınc.*
*- Ox atdım,*
*- Oğru tutdum.*
*- Bənövşə,*
*- Bəndə düşə.*
*- Sizdən bizə bir qız düşə,*
*-Adı gözəl, özü gözəl,*
*Aysel xanım, bu qol üstə (28, 415).*

Anadoluda:
*Sandıklının kapağı,*
*İçi dolu yaprağı.*
*Kalgıdım bindim deveye,*
*Çilbirini attım havaya,*
*Ak kıza altın taktım.*
*Gök kıza mangır taktım.*
*Ak kollu pak kollu,*
*Ayşe kadın seksin de geliversin (119, 48).*

***-Acıtma, Öcəşmə, Dolama Tipli Təkərləmələr.*** Oyun içi söylənən təkərləmələr içində oyunçulara mənəvi dəstək olmaq üçün deyilən təşviq edici təkərləmələrin yanında bir də cığallıq edən oyunçuları əsəbiləşdirmək, rəqib komandanın əhvalını pozmaq üçün söylənən acıtma, öcəşmə, dolama tipli təkərləmələr də vardır. Azərbaycanda "yandı-qındı", "acıq-vermə", "cırnatma" kimi bilinən acıtmalar bəzən təkərləmə kimi oyunlarda istifadə edilir. Həm Azərbaycanda, həm də Anadoluda acıtma tipli təkərləmələr rəqib komandanın oyunçularını əsəbiləşdirmək, əhval--ruhiyyəsini korlamaq məqsədilə söylənilir. Bu cür təkərləmələr xüsusilə hirsləndiriləcək oyunçuların adlarına uyğunlaşdırılır.

Aşağıda verilən təkərləmələrdə Azərbaycan variantında Tağı, Anadolu variantında isə Əli adlı oyunçuları əsəbiləşdirmək üçün söylənilir:

Azərbaycanda:
*Ay Tağı dim-dim duraz,*
*Gəl bizi güldür biraz.*
*Boynunu əy saz kimi,*
*Bir cikkə çək qaz kimi.*
*Qardaşı gombul Tağı,*
*Kəlləsi dombul Tağı.*
*Uzun duraz, beynamaz,*
*Xeyrə şərə yaramaz (73, 43).*

Anadoluda:
*Dingilda dingilda çıktım tren yoluna,*
*Üç gemi geliyor,*
*Biri A biri B ortancası İsmet Paşa.*
*Kalk gidelik Beşiktaşa.*
*Beşiktaşta kim vuruldu?*
*Lüle saçlı kız vuruldu.*
*Ali Bey hasta, çorbası tasta.*
*Mendili ipek, kendisi taş bebek (94, 212).*

Anadolu və Azərbaycanda acıtmaq, hirsləndirilmək istənilən oyunçulara söylənən təkərləmələr bir-birinə bənzədiyi kimi təkərləmələrin ünvanlandığı oyunçuların adlarında da müəyyən bənzərliklər vardır. Aşağıdakı nümunədə hər iki bölgəyə xas təkərləmə oğlan oyunçu olan Mustafa üçün söylənilir:

Azərbaycan variantı:
*Mus-mus Mustafa,*
*Getdi girdi şkafa.*

*Şkaf soyuq oldu,*
*Mustafa toyuq oldu (68, 163).*

Anadolu variantı:
*Mustafa mıstık,*
*Arabaya kıstık.*
*Bir mum yaktık,*
*Seyrine baktık (95, 165).*

Bir başqa nümunədə isə hər iki bölgədə hirsləndiriləcək qız Fatma adlı oyunçudur:

Azərbaycan variantı:
*Fatma, Fatma, a Fatma,*
*Yerində şıllağ atma.*
*Fatmanı verdik ərə,*
*Qarnı yoğun Ənvərə (68, 163).*

Anadolu variantı:
*Tahtalardan tahta,*
*Biz gidiyoruz bu hafta.*
*İneğimiz doğurdu,*
*Adını koyduk kel Fatma (183, 1).*

***-Yanıltmac Təkərləmələr.*** Azərbaycanda "yanıltmac", "çaşdırmaca", "dildolaşdırmaca", Anadoluda "yanıltmaç", "yanıltmaca", "şaşırmaca", "şaşırtmaç" adlarıyla bilinən yanıltmaclar oyun təkərləmələrinin söyləyiş xüsusiyyəti baxımından söz oyunlarına əsaslanan növüdür. Səs quruluşuna görə çətin söylənən və poetik xüsusiyyəti çox da olmayan, anlamlı-anlamsız cümlələrdən meydana gələn bu təkərləmələrin tez və xətasız söylənməsi önəmlidir. Söylərkən yanılan, səhv edən gülünc vəziyyətə düşdüyü üçün bu hal dinləyicini əyləndirir. Əyləndiriciliyi ilə yanaşı öyrədici funksiyası da olan yanıltmaclar uşaq-

ların düzgün danışmalarına yardımçı olduğu kimi əqli inkişafına da müsbət təsiri vardır. Azərbaycan və Anadoluda bir-birinə bənzər yanıltmac təkərləmələrinə aşağıdakıları nümunə verə bilərik:

*Şəhrə girdi on beş boz eşşək, beşinin yükü bez-nuz eşşək, beşinin yükü duz-buz eşşək, beşinin yükü qoz-buz eşşək* (Azərbaycan variantı).

*Yoldan gelir beş eşekli bez yüklü beş adam. Nerden gelip nereye gidiyorsun beş eşekli bez yüklü beş adam? Şuraya gelip şuraya gidiyorum beş eşekli bez yüklü beş adam* (Anadolu variantı).

*Getdim gördüm bir dərədə iki kar, kor, kürkü yırtıq kirpi var. Dişi kar, kor, kürkü yırtıq kirpi erkək kar, kor, kürkü yırtıq kirpinin kürkünü yamamaqdansa, erkək kar, kor, kürkü yırtıq kirpi dişi kar, kor, kürkü yırtıq kirpinin kürkünü yamayır* (Azərbaycan variantı).

*Karşiki köprünün altında iki kürkü yırtık kör kirpi. Dişi kürkü yırtık kör kirpinin kürkünü erkek kürkü yırtık kör kirpiye mi kaplamalı, yoksa erkek kürkü yırtık kör kiprinin kürkünü dişi kürkü yırtık kör kirpiye mi kaplamalı?.* (Anadolu variantı) (68, 164).

***2.3.Oyun Sonu Təkərləmələri.*** Oyun bitdiyi zaman və ya oyunun bitdiyini bildirmək üçün söylənən təkərləmələrdir.

Azərbaycan variantı:

*Nağıl,*
*Hərkəs evinə dağıl! (11, 404).*

Anadolu variantı:

*Ayağının altı çamur,*
*Evine gitmeyen gavur (119, 99).*

Bir başqa nümunədə isə Azərbaycan və Anadoluda oyundan sonra hərkəs evinə dağılacağı zaman aşağıdakı təkərləmə söylənir:

Azərbaycan variantı:
*Ovcumdakı nədi?*
*-Qıfılcım.*
*-Hər kəs evinə dağılcım (12, 86).*
Anadolu variantı:
*Evli evine, köylü köyüne*
*Evi olmayan, sıçan deliğine (94, 163).*

Yaxud:
*-Ayağının altında ney?*
*-Davul.*
*-Herkes evine,*
*-Gitmeyen gavur (115, 128).*

Azərbaycanın Ağdaş bölgəsində və Anadoluda oyunun bitdiyini bildirmək üçün söylənən bir-birinə bənzər bir başqa təkərləmə nümunəsi isə aşağıdakı kimidir:
Azərbaycan variantı:

*Bir, iki, üç, dört, beş,*
*Altı, yeddi, səkkiz, dokquz, on,*
*Arabaya qon.*
*Arabanın təkəri,*
*İstanbulun şəkəri.*
*Hap, hop, hup,*
*Bunnan başqa oyun yox (12, 461).*

Anadolu variantı:
*İğne battı, canımı yaktı,*
*Tombul kuş, arabaya koş.*
*Arabanın tekeri,*
*İstanbul`un şekeri.*
*Hap hop,*

*Altın top,*
*Bundan başka oyun yok (94, 164).*

Oyunun bitdiyini və uşaqların hamısının evə getməsi zamanını və ya təkərləməni söyləyənin özünün oyunu bitirdiyini bildirən təkərləmə nümunələri ilə də qarşılaşırıq. Bu cür təkərləmələrdən hər birinə bir nümunə olaraq aşağıdakıları verə bilərik:

Azərbaycan variantı:
*Havalan, ha havalan,*
*Havalandıq uçmağa,*
*Haqq qapısın açmağa.*
*Qanadımız üzüldü,*
*El yaylağa düzüldü.*
*El yaylaqdan gəlincə,*
*Buğdaları dərincə,*
*Qocabaşı kəsdilər.*
*Qıntırğadan qılınc yağı,*
*İçində qurd-quş yağı.*
*Qurd-quş yağı dərmandı,*
*Canım sənə qurbandı.*
*Yoldaşlar hamı getdi,*
*Oyunlar burda bitdi (55, 252).*

Anadolu variantı:
*Yuvalandım yumak oldum,*
*Ben yumağı ablama verdim,*
*Ablam bana darı verdi,*
*Ben darıyı kuşa verdim,*
*Kuş bana kanat verdi,*
*Ben kanadı göğe verdim,*
*Gök bana yağmur verdi,*
*Ben yağmuru yere verdim,*

*Yer bana çimen verdi,*
*Ben çimeni koyuna verdim,*
*Koyun bana kuzu verdi,*
*Ben kuzuyu beye verdim,*
*Bey bana para verdi,*
*Aldım verdim, verdim aldım,*
*Ben oyunu bitirdim (177, 1).*

**3.Mərasim Oyun Təkərləmələri**

Böyüklərlə uşaqların öz aralarında, həm də bərabər icra etdikləri mərasim xarakterli oyunlarda söylənən təkərləmələr isə mərasim təkərləmələri olaraq bilinir. Ümumiyyətlə oyun təkərləmələri deyilən zaman sadəcə uşaqların oynadıqları oyunlarda söylənən təkərləmələr olaraq düşünülür. Amma əslində bu belə deyil, uşaqların oynadıqları oyunlarda təkərləmə olduğu kimi böyüklərin icra etdikləri mərasim oyunlarında da təkərləmələr vardır. Böyüklərin oynadıqları mövsümi və saya oyunları təkərləmələrlə daha zəngindir. Sözügedən belə oyunlara ovsun, sehir elementlərilə zəngin ayin və ritual xarakterli "Çömçəli gəlin", "Yağmur gəlini", "Çömçəxatun", "Qodu-Qodu", "Qode Qode", "Saya", "Yel baba" və bu kimi oyunları göstərmək olar.

Müxtəlif məqsəd və zamanlarda icra edilən mərasim oyun təkərləmələrini bir neçə başlıq altında qruplaşdırmaq mümkündür:

***3.1.Yağış Yağdırma Mərasimi Təkərləmələri.*** Azərbaycanda və Anadoluda quraqlıq olduğu zaman uşaqlar və böyüklər bir yerə yığışıb dualar edərək, ehsan verərək müxtəlif oyunlar oynayıb yağış yağdırma mərasimini icra edirlər. Azərbaycanda "Çömçə Xatun", Anadoluda isə "Çömçeli Gelin" oyunları bir--birinə bənzər şəkildə quraqlıq zamanı Allahdan yağış-yağmur istəmək üçün oynanılan mərasim xarakterli oyunlardır. Həmin

oyunlarda söylənən və fərqli versiyaları olan təkərləmələrdən aşağıdakıları nümunə verə bilərik:

Azərbaycanda:
*Çömçəxatun nə istər?*
*Tanrıdan yağış istər.*
*Qoyunlara ot istər,*
*Quzulara süd istər, mə-ə-ə*
*Çömçəxatun nə istər?*
*Tanrıdan bol su istər,*
*Ağaclara bar-bəhər,*
*Çobana quzu istər, mə-ə-ə.*
*Əlincənin buludu,*
*Yetimlərin umudu,*
*Tanrı, bir yağış yetir,*
*Zəmilərim qurudu, mə-ə-ə.*
*Çömçəxatun dağ istər,*
*Qoyuna yaylaq istər,*
*Çəmənlərə bol yağış,*
*Bərəkətli bağ istər,mə-ə-ə.*
*Çömçəxatun nə istər?*
*Göylərə bulud istər,*

*Mal-qaraya çoxlu süd,*
*Dağlarda bol ot istər, mə-ə-ə (24, 89-90).*

Anadoluda:
*Hot bodi bodi,*
*Anan baban neden öldü?*
*Bir kaşıkcık sudan öldü.*
*Tarlalar yarık yarık,*
*Çiftçiler beli bükük.*
*Yerden bereket,*

*Gökten Yağmur.*
*Ver Allahım ver,*
*Sincim gibi, sulu sulu yağmur.*
*Çömçeli gelin çöm ister,*
*Bir kaşıkcık yağ ister.*
*Yağ verenin oğlu olsun,*
*Bulgur verenin kızı olsun.*
*Ver Allahım ver,*
*Sulu sulu yağmur.*
*Başım yağmur ister,*
*Ayağım çamur ister (91, 5).*

***3.2.Günəşi Çağırma Mərasimi Təkərləmələri.*** Azərbaycanda "Qodu-Qodu mərasimi" adı ilə də bilinən "Günəşi çağırma" mərasimi adətən yağışlı günlərdə yağışı kəsmək məqsədilə günəşi çağırmaq üçün keçirilir. Bu zaman çox maraqlı təkərləmələr söylənilir. Sözügedən təkərləmələrə Azərbaycanda yağış yağdığı zaman günəşi çağırmaq üçün oynanılan "Qodu--Qodu"nu nümunə göstərə bilərik. Azərbaycandan fərqli olaraq Anadoluda yağış yağması üçün oynanılan "Qode-Qode" oyunundakı təkərləmələr isə bir-birinə bənzərdir:

Anadolu variantı:
*Udu udu gördün mü?*
*Uduya selam verdin mi?*
*Udu kapıdan geçerken,*
*Sulu bir yağmur verdin mi?*
*Ekincinin tarlasına,*
*Koramazın kuyusuna.*
*Ver Allahım ver,*
*Bir dolu yağmur (119, 113).*

Azərbaycan variantı:
*Qodu-qodnu gördüyünüz varmı?*
*Qoduya salam verdiyiniz varmı?*
*Qodu gedəndən bəri,*
*Gün üzü gördüyünüz varmı?*
*Qodunu atdan düşürün,*
*Qoduya süddü aş bişirin,*
*Qodu sabah gün çıxartmasa,*
*Varın atdan düşürün (24, 89).*

***3.3. Yeli-Küləyi Çağırma Mərasimi Təkrarləmələri.*** Azərbaycanda taxıl yığımından sonra xırman sovrulan zaman yeli, küləyi çağırmaq üçün mərasim keçirirlər. Sehir, ovsun xarakterli bu mərasimdə süpürgə yandırılaraq aşağıdakı təkrarləmə oxunar:

*Yan süpürgə*
*Yel gəti, gəl!*
*Süpürgə yandı,*
*Yandı, oddandı,*
*Yanmağa tələs,*
*Əs, küləyim, əs! (24, 91).*

Süpürgə yandırılaraq sehir edib ovsun xarakterli təkrarləmə oxunduqdan sonra ardınca bir çox bölgələrimizdə "Yelli baba", "Yel baba", "Heydər" kimi müxtəlif adlarla küləyə müraciət edib çağırarlar:

*Heydər, Heydər, əsə gəl!*
*Yeddi xırman basa gəl!*
*Çətir-çətir bulut gəl!*
*Uşaxları ovut, gəl!*
*Qırıldı oğul-uşax,*
*Dəsmal götü yasa gəl!*

*Xırman savırır baba,*
*Arpa, buğda, noxut, gəl!...(24, 91-92).*

***3.4.Saya Mərasimi Təkərləmələri.*** Anadoluda və Azərbaycanda bolluq-bərəkət, artım, qoyunların tərənnümü məqsədilə keçirilən saya mərasimlərində söylənən saya təkərləmələrində də bənzərlikər vardır:

Azərbaycanda:
*Salam əleyk səy bəylər,*
*Bir-birindən yey bəylər!*
*Saya gəldi gördünüz,*
*Salam verdi aldınız.*
*Alnı təpəl qoç quzu,*
*Sayaçıya verdiniz...*
*Yağ verənin oğlu olsun!*
*Doğduğu oğlan olsun!*
*Yarma verənin qızı olsun!*
*Qızı da qotur olsun!*
*Qoturuna qurd düşsün,*
*Qurdundan quş tapılmasın!*
*Qısa-qısa gələnin*
*Qısnacağı dar olsun.*
*Basa-basa gələnin*
*Basnacağı bərk olsun.*
*Sizin də damağınız çağ olsun! (61, 64-72)*

Anadoluda:
*Saya saya salımbaya,*
*Dört ayağı nalımbaya.*
*Saya geldi duydunuz mu?*
*Selam verdi aldınız mı?*
*Bay bayadan bayadan,*

*Yılan akar kayadan,*
*Bööö dedim meledi,*
*Önüne koydum yaladı.*
*Göğül göğül göğüldesin,*
*Gürğümleri doldurasın,*
*Ver ver diyen ablanın,*
*Taş perçemli bir oğlu olsun.*
*Verme verme diyen ablanın,*
*Kel başlı kızı olsun (68, 168-169).*

***3.5.Bayram Mərasimi Təkərləmələri.*** Bayram mərasimi təkərləmələrinə Azərbaycan və Anadoluda qeyd olunan Xıdır, Novruz, Ramazan və Qurban bayramında söylənilən mərasim təkərləmələri daxildir.

***-Xıdır Mərasimi Təkərləmələri.*** Azərbaycanda və Anadoluda haqqında çoxlu rəvayət və əfsanələr olan, həmçinin dastan və nağıllarımızda qəhrəmanlara xeyir-dua verərək köməyinə çatan Xızır peyğəmbərlə bağlı keçirilən Xıdır mərasimində söylənilən təkərləmələr bir-birinə bənzərdir:

Azərbaycanda:
*Xıdır, Xıdır, xıd gətir,*
*Var dərədən od gətir.*
*Mən Xıdırın nəyiyəm?*
*Bircə belə dayıyam,*
*Ayağının nalıyam,*
*Başının torbasyam.*
*Xıdıra Xıdır deyərlər,*
*Xıdıra çıraq qoyarlar,*
*Xıdır Nəbi, Xıdır İlyas,*
*Bitdi çiçək, bitdi yaz.*
*Mən Xdırın quluyam,*
*Boz atının çuluyam.*

*Xıdır getdi hayınan,*
*Bir qulunça daynan.*
*Dayı palçığa batdı,*
*Xıdır yanında yatdı.*
*Xıdır Nəbi, Xıdır İlyas,*
*Bitdi çiçək, oldu yaz (68, 169).*

Anadoluda:
*Hızır, Hızır hız gelir,*
*Var dereden od getir.*
*Hızıra hızır deyerler,*
*Hızıra çırak koyarlar.*
*Ben Hızırın kuluyum,*
*Boz atının çuluyum.*
*Hızır gitti hayınan,*
*Bir kulanca tayınan.*
*Tayı balçığa battı,*
*Hızır yanında yattı.*
*Hızır Nebi, Hızır Nebi,*
*Bitti çiçek, oldu yaz (58, 162).*

***-Novruz Mərasimi Təkərləmələri.*** Novruz mərasimi təkərləmələrinə Azərbaycan və Anadoluda Novruz bayramında icra edilən oyunlar zamanı söylənən təkərləmələr aiddir. Həmçinin Novruz bayramından öncə olan Axır çərşənbədə təşkil olunan "Od üzərindən atlama" mərasiminin özü də maraqlı təkərləmələri ilə diqqət çəkir:

Anadoluda:
*Ağrım ağrık tökülsün,*
*Od`a düşüp kül olsun,*
*Yansın alev saçsın,*
*Menim bahtım açılsın (165, 168)*

Yaxud:
*Atıl, batıl Çarşamba,*
*Derdim batır Çarşamba (68, 102).*

Azərbaycanın Şəki bölgəsində bəzər təkərləmlərə rast gəlinir:

*Ağrım, uğrum tökülsün,*
*Oda düşüb kül olsun.*
*Yansın alov saçılsın,*
*Mənim bəxtim açılsın.*
Yaxud:
*Ağırlığım, uğurluğum odlara,*
*Tonqaldan atlamayan yadlara (28, 46).*

Novruz bayramında keçirilən ən maraqlı mərasimlərdən biri "Xanbəzəmə"dir. Daha çox Naxçıvanın Ordubad bölgəsinə xas olan bu mərasim öz oyunları, tamaşaları və təkərləmələri ilə zəngindir. Xüsusi ilə bu mərasimdə göstərilən "Kosa-Kosa" oyunu zəngin və maraqlı təkərləmələri ilə diqqət çəkir:

Azərbaycanda:
*A Kosa Kosa gəlsənə,*
*Gəlib salam versənə,*
*Çömçəni doldursana,*
*Kosanı yola salsana..*
*Ay uruğu, uyruğu,*
*Saqqalı it quyruğu.*
*Kosam bir oyun eylər,*
*Quzunu qoyun eylər.*
*Yığar bayaram xonçasın,*
*Keçəlin toyun eylər.*
*Novruz, novruz bahara ,*
*Güllər, güllər nübara.*

*Bağçamızda gül olsun,*
*Gül olsun, bülbül olsun.*
*Bal olmasın, yağ olsun,*
*Evdəkilər sağ olsun.*
*Xanım dursun ayağa,*
*Kosaya pay versin ağa... (68, 170).*

Anadoluda:
*A Köse Köse gelsene*
*Gelip selam versene,*
*Torbanı doldursana,*
*Köseni yola salsana.*
*Verenin oğlu olsun,*
*Vermeyenin kızı olsun (148, 31).*

Novruz bayramında göstəriən "Kosa-Kosa" tamaşası təkrarləmələrlə zəngin olduğu qədər bölgələrə görə də müxtəlif variantları mövcuddur.

***-Ramazan Mərasimi Təkrarləmələri.*** Azərbaycan və Anadoluda ramazanda oynanılan müxtəlif oyunlar təkrarləmələrlə zəngindir. Belə oyun təkrarləmələrinə ramazanın 15-də Azərbaycanın Ordubad rayonunda "Orucun onbeşi", Anadolunun Amasya bölgəsində isə "Amin bağırma" adı ilə icra edilən oyunlarda söylənən təkrarləmələri nümunə göstərə bilərik:

Azərbaycanda:
*Orucun on beşidi gəldim sizə,*
*Orucun niyazını verin bizə,*
*Dəstəxanın xırdasını verin bizə.*
*Xanım ayağa dursana,*
*Boşqabı doldursana.*
*Basa-basa gəlirsən,*

*Basmaların var olsun,*
*Doğduğun oğlan olsun.*
*Dinmə gəlir, dinmə gəlir,*
*Boşqabı doldurub gəlir.*
Pay verməyəndə isə:
*Ayaqları sudadı,*
*Gözləri yuxudadı.*
*Verənin oğlu olsun,*
*Verməyənin qızı olsun,*
*Bir gözü də kor olsun (26, 24).*

Anadoluda:
*Amin bana hak Ramazan,*
*Hoşbin bana hak Ramazan.*
*Cennette var bir pınar,*
*Ondan içen huriler,*
*Allah Allah dediler.*
*Yağ verenin kızı olsun,*
*Yumurta verenin oğlu olsun,*
*Amin Amin.*
*Yeni cami direk ister,*
*Söylemeye yürek ister.*
*Benim karnım tok ama,*
*Arkadaşlar börek ister,*
*Amin, amin (163, 22-23).*

***-Qurban Mərasimi Təkərləmələri.*** Qurban mərasimi təkələmələrinə Qurban bayramında icra edilən oyunlarda söylənən təkərləmələr daxildir. Bu təkərləmələrə Anadoluda Qurban mərasimində uşaqların oynadıqları "Olsun-Olsun", "Tepsi tutmaca" ("Sini tutma") və bu kimi oyunlarda söylənən təkərləmələri nümunə göstərə bilərik:

Olsun-Olsun oyunu:
*Olsun olsun,*
*Bir oğlun olsun.*
*O da bize yoldaş olsun,*
*Amin! (163, 81)*
Tepsi tutmaca oyunu:
*Eşim eşim ekşin eşim,*
*Kulağı kuyruğu düşkün eşim.*
*Bencileyin şaşkın eşim,*
*Bunu elinde ne tutup durursun (163, 71).*

***3.6.Toy Mərasimi Təkərləmələri.*** Toy mərasimi təkərləmələri Azərbaycan və Anadoluda keçirilən toy mərasimində (elçilik, nişan, toy hazırlıqları, xına gecəsi, toy günü, duvaqqapma) icra edilən oyunlar zamanı söylənən təkərləmələrdir.

Azərbaycanda toydan sonra keçirilən "Duvvaqqapma" mərasimində söylənən təkərləmələrə aşağıdakıları nümunə göstərə bilərik:

*Bazardan aldım kələmi,*
*O kələmi, bu kələmi,*
*Sağolsun oğul əkəni.*

*Bazardan aldım soğanı,*
*O soğanı, bu soğanı,*
*Sağolsun oğul doğanı (68, 171).*

Anadoluda nişan və bir çox yerli mərasimlərdə oynanılan "Axrət ana" oyunu da başdan ayağa təkərləmələrlə zəngindir. Oyunda Axrət ana, qax satan, xoca (molla), şərab satanın söylədiyi təkərləmələr icra edilən hərəkətlərə uyğun olaraq oyunun əsasını təşkil edir:

Kakçı (Qax satan):
*Kakçı geldi kakçıı,*
*Kakçı geldi kakçıı...*
*Alana satarım,*
*Almayanı döverim.*
*Armut kurusundandır,*
*Çok iyidir bizim kaklar,*
*Hem de ucuza satarım (95, 23).*

Şarapçı (Şərab satan):
*Alaca çorap mavi çorap*
*İşte rakı, işte şarap*
*Arpa ektim evlek evlek*
*Geldi kondu baba leylek*
*Baba leylek uçtu, kaz kaldı*
*Kavuşmamıza az kaldı (95, 27).*

Bu tipli toy mərasimi təkrarləmələri insanların əhval-ruhiyyəsini yaxşılaşdırmaq, qohum olan ailələr arasında isti münasibətlər yaratmaq, gənc ailənin təməlini möhkəmləndirmək məqsədilə deyilirdi.

Təkrarləmələrin yaranması ilə bağlı müxtəlif fikirlər vardır. Uşaq oyunları qədim ritualların uşaqlar tərəfindən təqlid edilərək günümüzə qədər gəlib çıxmasının nəticəsində yarandığını vurğulayan alimlər təkrarləmələri də bu rituallar və inanclarla əlaqələndirirlər. Bütün uşaq oyunlarının kökünün rituallara əsaslandığını söyləməyin doğru olmadığı kimi, təkrarləmələr üçün də eynisini söyləmək doğru deyil. Əsasən uşaqların xəyal məhsulu olan təkrarləmələr məntiqi əlaqəsi olmayan, bəzən də anlamsız sözlərin bir araya gəlməsilə yaranır. Uşaqların yeni gördükləri bir şey, həyatlarında təsirli olan bir hadisə, hər hansı bir əşya və ya bir insan yeni təkrarləmələr üçün mövzu ola bilər. Uşaqların dil, danışma, nitq, musiqi, sevgi, hörmət və bu kimi

anlayışlarının inkişafına kömək edən, nağıl, oyun, mərasim və yanıltmac təkərləmələri kimi dörd qrupda təsnifatlandırılan təkərləmələr mövzu baxımından olduqca zəngindir. İnsanlıq tarixi qədər qədim olan təkərləmələrin qədim zamanlardan bugünə qədər keşməkeşli yol qət edərək, müxtəlif dəyişikliyə uğrayaraq bölgələrə görə çeşidli variantları yaranmışdı. Hər dövrün, hər zamanın nəbzinə uyğun yaranan təkərləmələr sözsüz ki, mövzu baxımından zəngin olduğu qədər yerinə yetirdyi funksiyalar baxımdan da önəmlidir. Bu funksiyalara aşağıdakılar aiddir:

1.Təkərləmələr dilin inkişafına müsbət təsir edir. Belə ki, təkərləmə söyləyən onu doğru və xətasız demək məcburiyyətindədir, bunun üçün göstərdiyi səy günlük danışığında, nitqində əks olunaraq düzgün və xətasız danışmasına kömək edir. Məsələn: yanıltmac təkərləmələri bu xüsusiyyətinə görə konservatoriya ilə universitetlərin teatr bölmələrində keçirilən bədii qiraət dərslərində tez-tez istifadə olunur.

2.Uşaqlar oynarkən xətasız olaraq söylədikləri təkərləmələr onlarda özünə güvən və inam hissi yaradır. Eyni zamanda uşaqlar əqli cəhətdən sağlam böyüyür, cəmiyyət qarşısında həyəcanlanmadan danışa bilir, sərbəst mühakimə yürütmək qabiliyyətinə yiyələnirlər.

3.Oyunlardakı bir çox təkərləmələr müəyyən ritmlə, melodiya ilə söylənir. Bu xüsusiyyəti ilə təkərləmələr uşaqlarda sözə uyğun ritmlər yaratma qabiliyyətinin inkişafına təsir etdiyi kimi, musiqi zövqünün inkişafına da kömək edir.

4.İnsanların yetkinlik dövrlərində qurucu və istehsalçı keyfiyyətlərinin formalaşması, uşaqlıq zamanında bildikləri təkərləmələrin quruluşuna uyğun yeni bir şeylər düzüb qoşma, yaratma gücü qazanmasından irəli gəlir.

5.“Bir, iki, bizimki...” kimi ədədlərlə söylənən təkərləmələr uşaqlarda sayma bacarığını inkişaf etdirir, say anlayışlarını öyrədir. “Baş barmaq başara barmaq...” kimi təkərləmələr uşaqlarda bədəndəki orqanları, yer, şəhər, dövlət adamı, kino və

s. isimlərlə bağlı təkərləmələr isə həmin isim və anlayışların öyrənib tanımalarına köməkçi olur.

6.Təkərləmələr oyunlarda zaman vahidi olaraq işlədildikləri üçün zaman anlayışının inkişafına da təsir edir. Məsələn: Azərbaycanda "Gizlənpaç", Anadoluda "Saklambaç" adıyla bilinən oyunlarda oyunçuların gizlənmələrinə fürsət verəcək şəkildə, əbə əvvəlcədən müəyyənləşmiş bir saya (10-na ə ya 20-yə) qədər saydıqdan sonra Azərbaycanda "gəldim qaç, gizlənpaç", Anadoluda isə "önüm, arxam, sağım, solum sobe" deyə oyunçuları axtarmağa başlayır. Həmin vaxt keçən zaman ərzində uşaqların nə qədər müddətə gizlənə biləcəklərini təxmin və hesab etmələrinə kömək olur. Həm Azərbaycanda, həm də Anadoluda eyni şəkildə oynanılan "Yerdə nə var" oyununda bir oyunçunun təkərləmə bitənə qədər digər oyunçunu belində tutması və bu kimi nümunələr zaman anlayışı ilə əlaqəlidir.

8.Təkərləmələr uzunluq, məsafə məfhumlarının öyrənilməsinə təsir edir. Azərbaycan və Anadoluda bənzər şəklidə ağacla, topla, daşla və b. əşyalarla oynanılan oyunlarda vurulan əşyanın getdiyi yer ilə əvvəlki yerin arasında təkərləmənin hər sözündə bir addım atılaraq ölçülməsi təkərləmənin həmin funksiyasına nümunə verilə bilər.

9.Təkərləmələr milli folklor qaynağı olaraq uşaqların milli ruhda təlim-tərbiyəsi üçün də əvəzedilməz bir mənbədir. Ümumiyyətlə təkərləmələr uşaqların söz ehtiyatının yaranması, düzgün tələffüz qaydalarını mənimsəməsi, hazırcavablığı, zehni inkişafının formalaşmasında əhəmiyyətli rol oynadığı kimi, milli xarakterinin möhkəmlənməsində, Vətəninə, xalqına bağlı sağlam düşüncəli nəsil olaraq yetişməsini şərtləndirən ilkin səbəblərdəndir.

Uşaqların nitqinin, estetik zövqünün, dünyagörüşünün və s. inkişafına böyük təsiri olan və yeni-yeni məfhumların öyrənilməsində əvəzedilməz rolu olan təkərləmələr sadəcə funksional baxımdan deyil, eyni zamanda mövzu zənginliyi ilə də diqqəti

çəkir. Bu zənginliyi göstərmək məqsədilə təkərləmələri "Uşaq oyun təkərləmələrində rənglər" və "Təkərləmələrdə dağ obrazı" kimi başlıqlar altında incələməyi məqsdə uyğun hesab edirik.

## 4. Uşaq Oyun Təkərləmələrində Rənglər

Fiziki, duyğusal, zehni və ruhi dünyamıza təsir edən, həyatımıza xoşbəxtlik bəxş edən, sağlamlığımız üçün istifadə edilən rənglərin hekayəsi, insanlıq tarixi qədər qədimdir və ünsiyyətin təbii bir vasitəsi olaraq rəng insanlar üçün fərqli bir münasibət formasına çevrilir. Çox qədim çağlardan etibarən simvolik olaraq istifadə edilən rənglərin ilk nümunələrinə Lascaux və Altimaradakı daş dövründən qalma kiçik mağaraların divarlarında olan rəngli heyvan fiqurlarında rastlanmışdır (150, 269). Mağara divarlarına rəsmedilən rəngli obrazlar ibtidai dönəmin bəsit ünsiyyət şəklini meydana gətirmişdir. Əvvəllər insanlar tərəfindən mağaralar və divarlar, özlərinin üz və bədənləri, yaşadıqları məkanlar, işlətdikləri əşyaları boyadıqları rənglər zamanla dini rituallarda, doğum, ölüm, yas və müxtəlif səbəblərdən qeyd etdikləri bir çox mərasimlərdə, sehir, ovsun, tapma zamanı görəsəl təsiredicilik, düşmənlərindən gizlənə bilmək, ya da qorxuducu görünə bilmək, bəyənilmə və gözəlləşmə instinktinə cavab vermək məqsədilə, bəzən kimlikləri təyin etmək üçün, zaman-zaman da şəfa niyyəti ilə istifadə edilmişdir.

Həyat boyu yaşamı mənalı və aydın hala gətirən rəng fars sözü olub "cisimlər tərəfindən əksetdirilən işığın gözə etdiyi təsir nəticəsində meydana gələn hiss" mənasına gəlir (101, 2572). Rəng, işığın gözün tor qişasına dəyişik şəkildə çatması ilə ortaya çıxan bir hissdir. Bu hiss (duyğu), işığın maddələr üzərinə dəyməsi və qismən sovrulub, qismən əksolunması nəticəsində çeşidlilik göstərir ki, bunlar rəng tonu və ya rəng adlanır. Bütün dalğa boyları birdən eyni anda gözümüzə çatırsa, bunu ağ, heç

işıq çatmırsa qara kimi hiss edirik. Bunun üçün də ağ ilə qara rəng hesab olunmur (109, 1).

Rənglər müxtəlif şəkildə qruplaşdırılır. Əsasən rənglər ana və ara rənglər deyə iki qurup altında təsnif edilir. Təbiətdə var olduğu qəbul edilən rənglərə "ana rənglər" (qırmızı, sarı, mavi), ana rənglərin ikili olaraq və bərabər nisbətdə qarışığından meydana gələn rənglərə isə, "ara rənglər," (qırmızı+sarı=narıncı; mavi+qırmızı=bənövşəyi; mavi+sarı=yaşıl) ya da "yardımçı rənglər" deyilir (109, 5). Ana və ara rənglər isə, şiddətlərinə və insanlar üzərindəki ruhi təsirinə görə isti və soyuq rənglərə ayrılır. İsti rənglər dalğa boyu yüksək olan sarı, qırmızı və narıncı; soyuq rənglər isə dalğa boyu aşağı olan mavi, yaşıl və bənövşəyidir. İsti rəng həm əvvəl görünəndir, həm də ən yaxında olan kimi qəbul edilir, bizə odu və istiliyi xatırladan, diqqət çəkən, insana enerji verən və canlılıq hissi oyadan rəngdir. Soyuq rənglər isə, bizdən uzaqmış duyğusu yaradır, insana soyuqluğu və sərinliyi xatırladan rənglərdir. Bu təməl məlumat çox vaxt dizaynçının və fotoşəkilçinin vizual dərinlik problemini həll edə bilməsi üçün lazımlıdır (109, 2-5; 150, 270-271).

Mədəniyyətimizdə rənglərə çox əhəmiyyət verilmiş, təbiət rəngləri, xüsusilə də baharda növ-növ, rəngarəng çiçəklərlə, güllərlə bəzənən təbiətin möhtəşəm rəngləri mədəniyyətimizin demək olar ki, bütün sahələrində öz varlığını göstərir. Elmi baxımdan ana və ara deyə iki qruba ayrılan rənglər paltarımızdan, evimizdən, bağçamızdan tutmuş, əl sənətlərimizə qədər, xalçalarımızda, hətta ədəbiyyatımızda, xüsusilə də nağıl, hekayə, dastan, şeir kimi ədəbi janrlarda və xalq ədəbiyyatının əsas hissəsini təşkil edən oyunlarımızda və oyun təkərləmələrində öz əksini tapmışdır.

Anadoluda uşaqlar tərəfindən oynanılan "Saklanbaç" oyununun bənzəri Azərbaycanda "Gizlənpaç" adıyla oynanılır. Bənzər şəkildə oynanılan bu oyunların təkərləmələri fərqli olsa da məna baxımından eynidir. "Saklanbaç" oyununda söylənən

"Önüm arkam, sağım solum sobe, saklanmayan ebe" təkərləməsində rənglə əlaqəli hər hansı bir ünsürə rastlanmasa da, bu oyunun Azərbaycan variantı olan "Gizlənpaç"da söylənən təkərləmələr rəng məfhumları ilə olduqca zəngindir:

*Alma saraldı,*
*Gözüm qaraldı.*
*Gəldim qaç,*
*Gizlənpaç (142, 736).*

"Gizlənpaç" oyununda əvvəlcədən müəyyənləşdirilmiş rəqəmə qədər sayan əbə saymağını dərhal bitirib saxlanan oyunçuları tapmaq üçün onlara psixoloji təsir göstərmək məqsədilə saymaqdan gözlərinin qaraldığını, hətta həmin vaxt almanın saraldığını, yəni yetişdiyini vurğulayır. Eyni zamanda özünün gəldiyini bildirən əbə oyunçuları cəld qaçıb gizlənmələri üçün xəbərdarlıq edir. Biz bu xəbərdarlıqda əbənin "sarı" və "qara" rənglərdən istifadə edərək oyunçulara psixoloji təzyiq tətbiq etdiyini görürük. Bildiyimiz kimi, sarı ən parlaq və diqqətçəkici rəngdir, nəşə, zəka, incəlik və praktikliyi ifadə edir. İctimai həyatı və birlikdə çalışmanı əks etdirən bir mənası vardır. Sarı ayrıca hüzn və həsrətin rəngidir. Payızın bütün hüznlü gözəlliyində onun hər rəngini izləmək mümkündür. Günəş şüalarının rəngi olduğu üçün işıqlıq və istidir. Ümid, ilham və idarəçilik duyğularını gücləndirir. Keçiciliyin və diqqətçəkiciliyin ifadəsidir. Ona görə bütün dünyada taksilər sarıdır. Konkret olaraq ağla gələn ilk şey günəşdir. O qızılın, günəşin, xoşbəxtliyin rəngidir. Olduğu mühitə coşğu və sevinc qatır. Sarı qızılın rəngi olduğu üçün istifadə edildiyi yerlərə və dizaynlara zənginlik, maddi dəyər, səltənət bəxş edir. Çində səltənətin və imperatorluğun rəmzidir. Çünki Çin hökmdarının eynilə günəş kimi kainatın mərkəzində olduğuna inanırlar. Sarı yenilikçi, yaradıcı, alternativlər çıxara bilən, diqqəti cəlb etməkdən xoşlanan, şən,

zarafatçıl, canlı, hərəkətli və nəşəli insanların rəngidir. Sarının bir başqa mənası isə, istilik və enerjidir. Eyni zamanda sarı şüuraltında xəstəliyi də xatırladar. Tez-tez can sıxıntısına, depresiyaya məruz qalan xəstələrin rəngidir. Bu insanlar bir gün şən, bir gün bədbindirlər. Sarı ən parlaq və diqqət çəkən rəngdir; məsələn, işıqforlardakı sarı, diqqətli ol və hazırlan deməkdir, futbolda sarı kart xəbərdarlıqdır. Satış məkanlarında istifadə etmək üçün çox uyğundur. Qara isə gücün, ehtirasın və bir çox ölkələrdə matəmin, romantikliyin və hüznün rəmzidir. Bizdə və qərbdə qara matəmi təmsil edərkən, Yaponiyada qara xoşbəxtlikdir. Qara fondan istifadə edilməsi pessimizmi xatırladar. Qara, işığı və bütün rəngləri udan ən güclü rəngdir. Qaranlıq və gecəni xatırlatdığı üçün əsrarəngiz, güclü, klassik və qəşəng bir rəng hesab edilir. Eyni zamanda aristokratiya və rəsmiyyətin rəngidir. Afrikada və Misirdə bərəkətin rəngidir. Yağış dolu qara buludlar da bərəkət anlamındadır. Qara gecənin və kainatın sonsuz qaranlığının da rəngidir. Mövləvilər ilahi rəqslərində dönməyə başlamadan əvvəl ağ paltarlarının üstünə geydikləri qara libaslarını soyunub atdıqdan sonra dönməyə başlayırlar. Bu simvolik davranışın mənası pisliklərdən, qaranlıqdan sıyrılmaqdır. Dilimizdə qara ilə əlaqəli deyim və ifadələr də mənfi anlamdadır; məsələn, "qara gün", "qara bəla", "qara yel" kimi.

Sarının və qaranın sosioloji, psixoloji və mədəni baxımdan vurğulanan bir çox xüsusiyyətləri "Gizlənpaç" oyununda söylənən təkrarləmədəki ifadə ilə rəng arasındakı əlaqədə öz əksini tapmışdır.

Azərbaycanda uşaq oyunları zamanı oyuna başlamadan əvvəl oyunda komandaları və ya əbəni müəyyənləşdirmək üçün tez-tez söylənən "Bir-iki bizimki" təkərləməsinin son mısrasında "qırmızı don" ifadəsiylə donun rəngini vurğulamaq və öncəki misraya qafiyə yaratmaq məqsədilə qırmızı sözü istifadə edilmişdir:

*1, 2 bizimki,*
*3, 4 qapını ört.*
*5, 6 daş altı,*
*7, 8 firəngiz.*
*9, 10 qırmızı don (142, 737).*

Təkrarləmələrdə tez-tez istifadə edilən və xoşbəxtliyin rəmzi olan qırmızı canlılıq, əzm, dinamizmi ifadə edən və güclü, ehtiraslı, cəsur, lider, aqresiv, mübariz, ehtiraslı, həyəcanlı, eqoist insanların rəngidir. İştah açıcı, təzyiq yüksəldici, qan axımını sürətləndirici, canlandırıcı və adrenalin ifrazatını yüksəldən rəngdir. Psixoloji təsiri isə, uzun müddət izlənildiyində insanda gərginlik və həyəcan yaratması, qısa müddətdə isə diqqət çəkici olması və baxışları üzərinə toplaması ilə seçilir. İctimai mənada özünə etibarı, kişiyə xaslığı, fiziki gücü, kobudluğun rəmzidir. İsti bir rəng olan qırmızı, diqqət çəkici olduğu üçün reklam fotoşəkilçiliyi tətbiqində tez-tez istifadə edilir. Yol işarələrinə baxdığımızda müxtəlif xəbərdarlıq lövhələrində qırmızının təhlükəni və xəbərdarlığı bildirdiyini görürük Hindistan və Çində qırmızı şansın və məhsuldarlığın rəmzidir. Hindistanda gəlin paltarları qırmızıdır. Azərbaycanda da son dövrlərə qədər gəlin paltarı qırmızı ipəkdən tikilir, başına qırmızı şal salınırdı. Hazırda qız toylarında gəlinə qırmızı don geyindirilir.

Bənzər şəkildə oynanılan "Kəpənək"//"Kelebek" oyununun Anadolu variantında söylənən təkrarləmədə çiçəyin sarı, yəni qızıl rəngində olduğunu söyləmək üçün "yaldız" sözü işlədilmiş, Azərbaycan variantında isə yumurtanın sarısı rəng baxımından vurğulanmışdır:

Azərbaycan variantı:
*Əl-əl əpənək,*

*Əldən çıxdı kəpənək.*
*Kəpənəyin yarısı,*
*Yumurtanın sarısı (68, 49).*

Anadolu variantı:
*Kon kon kelebek,*
*Yaldızlı çiçek*
*Al işte sana,*
*Bir yonca çiçek (95, 202).*

"Kəpənək" oyununda kəpənəklə əlaqədar deyilən təkrarləmələr yalnız oyunun inkişafı üçün deyil, eyni zamanda uşaqlara təbiətdə olan çiçəklərin rəngini öyrətməklə birlikdə, qanadlarında növ-növ rənglər daşıyan kəpənəklə zərli-sarı çiçək və yumurtanın sarısı arasında bir əlaqə qurulması uşaqların təbii rəngləri öyrənmələrində və varlıqlar arasında əlaqə qurmalarında olduqca əhəmiyyətlidir.

Anadoluda söylənən uşaq oyun təkərləmələrindən "Dingildo-Dingildo"nun son mırsalarında qızın saçının rəngi "altın" (qızıl) sözüylə bildirilmişdir:

*...Gel gidelim Beşikta`a,*
*Beşiktaş`ta top patlamış,*
*Altın saçlı kız vurulmuş (94, 163).*

Daha çox bənzətmə və təsvirdə saçlar və günəş üçün istifadə edilən "qızıl" rənginin "Allah sevgisi ilə dolu olaraq insanlığın xidmətində olmaq" mənasının da olduğu bilinməkdədir. Hər nə qədər bu mənası yuxarıda söylənən təkərləmələr üçün keçərli olmasa da varlıqların rənglərinin ifadə edilməsi baxımından tez-tez istifadə edilən qızıl rəngin top üçün də işlədildiyi bir başqa təkərləmə isə aşağıdakı kimidir:

*İğne battı,*
*Canımı yaktı.*
*Tombul kuş,*
*Arabaya koş.*
*Hap hop,*
*Altın top,*
*Bundan başka oyun yok (94, 164).*

Anadoluda söylənən "Eveleme Develeme" uşaq oyunu təkərləməsinin son misralarında "rəng" anlayışı ilə təbiətin ana rəngləri olan “mavi” və “sarı” arasında bir bağlılıq vardır. Aşağıda verilən təkərləmədə sözügedən üç ana rəngdən ikisi-mavi və sarı işlədilmişdir:

*Biz yedi cüceleriz,*
*Bizde her renk bulunur.*
*Kimdedir mavi, kimdedir sarı (94, 163).*

Mavi sonsuzluğu və azadlığı bildirir. Mavi rəng səmanın, geniş üfüqlərin, dənizin, azadlığın və sonsuzluğun simvoludur. Sərhədsizliyi, uzaqgörənliyi, hüzuru təmsil edir, insanı sakitləşdirir. Ərəblər mavinin qan dövranını sabitləşdirdiyinə, normallaşdırdığna inanırlar. Nəzər muncuğunun da rəngi mavidir. Qərbdə intiharları azaltmaq üçün körpü ayaqlarını mavi rəngə boyayırlar. Divarları mavi olan məktəblərdə uşaqların daha az dəcəllik etdiyi müəyyən olunmuşdur. Mavi hisslərin rəngidir; sevgi, hüzur, sakitlik və barış duyğularını gücləndirir, sirli bir dərinlik təsirinə malikdir. Su və havayla əlaqəli olduğu üçün hər an həyatımızda lazımlı bir rəng kimi qəbul edilir. Bu səbəblə mavi etibarlı, möhkəm, əminlik təəssüratını bağışlayır. Mavi anlayışlı, uyğun, sakit, etibarlı, xoşgörüşlü insanların rəngidir. Eyni zamanda göy və mavi ciddiliyin rəngidir. Bu səbəblə rəsmi

təşkilatlar, ciddi quruluşlar emblem və loqolarında mavidən daha çox istifadə edirlər.

Anadoluda söylənən uşaq oyun təkərləmələrindən "Mutlu-Mutlu"da təbiətin ana və isti rənglərindən biri olan "qırmızı" işlədilərək geyilən köynəyin rəngi bildirilir:

*Mutlu-Mutlu, mutluyu verdim,*
*Kırmızı gömlek giyiverdim.*
*Sen mutlu, ben mutlu,*
*Kazma dişli, kel mutlu (94, 165).*

Anadoluda söylənən bir başqa təkərləmədə isə, oğlanın yanağının rəngi vurğulanmışdır:

*Rafta tabak,*
*Suda zambak.*
*Bir oğlum var,*
*Al yanak (94, 165).*

"Suzi çamaşır yıkar" təkərləməsinin son misralarında təbiətin ana rəngi və eyni zamanda isti rəng olaraq bilinən "sarı" mövcuddur.

*Salatanın yarısı,*
*Osman beyin kansı.*
*Gitti kuşun yansı,*
*Yumurtanın sarısı (142, 738).*

"Komşu-Komşu" təkərləməsində "qara pişik" ifadəsində "qara" rəngindən istifadə edilmişdir:
*Komşu, komşu hu*
*Oğlun geldi mi?*
*Geldi.*

*Ne getirdi?*
*İncik boncuk*
*Kime kime?*
*Sana bana.*
*Daha kime?*
*Kara kediye.*
*Kara kedi nerde?*
*Ağaca çıktı...(177, 4)*

Ara və soyuq rəng olaraq bilinən yaşıl təbiətin, baharın, hüzurun, yaradıcılığın, güvən, paylaşma, cömərtliyin, təbiiliyin, təzəliyin rəngidir. İslamiyyəti ağla gətirdiyi üçün ideoloji bir mənası da vardır. Cənnətin yamyaşıl olduğuna inanılır. Tünd yaşıl pul və prestij rəngidir. Təbiətin əvəzedilməz rəngi olan yaşıla bir çox sahələrdə üstünlük verildiyi kimi, Anadoluda söylənən "Turnam" təkərləməsində durna təsvir edilərkən başının rəngini vurğulamaq üçün yaşıl rəngindən istifadə edilmişdir:

*Ah benim turnam,*
*Yeşil başlı turnam.*
*Otur desem oturur,*
*Kalk desem kalkar...(142, 739)*

Azərbaycanda və Anadoluda rənglə əlaqədar oynanılan uşaq oyunlarımız da vardır. Bu oyunlardan biri Azərbaycanda "Rəng-Rəng" (142, 739) oyunudur. Bu oyunun bənzəri Anadoluda "Bom" (95, 191) və "Kurdeleci güzeli" (95, 202) adlarıyla oynanılır. Rənglə əlaqədar hər üç oyunda oyunçuların hamısı özlərinə bir-birinin eyni olmayan fərqli rəng adı qoyurlar. Sonra qrupun qarşısında dayanan uşaq bir rəng söyləyir. "Bom" və "Rəng-Rəng" oyunlarında seçilən rəng qarşılıqlı bir-iki cümlə ilə söylənərkən "Kurdeleci güzeli" oyununda isə seçilən rəng deyişmə şəklində təkərləmə ilə söylənilir:

Oyunçu:
*Kurdeleci güzeli,*
*Handadır handa.*
*Tahta kulübe kalbimizde,*
*Biz size geldik onbirde.*
Gurup:
*Geldiyseniz geldiniz,*
*Bizi memnun ettiniz.*
*Kutu kutu içinde,*
*Hangi rengi seçtiniz (95, 203).*

Anadolunun Van bölgəsinə xas "Rəng oyunu"nda ("Renk oyunu") çöp çəkilərək oyuna başlayacaq oyunçu müəyyənləşdirilir və daha sonra hər kəs oturur. Ayaqdakı oyunçu ürəyində bir rəng tutur və növbə ilə hər kəsə ürəyində tutduğu rəngin adını soruşur. Bilən oyunçu ayaqdakı oyunçunun yanına gedir. Daha sonra ikisi birlikdə rəng tuturlar və yenə sırayla hər kəsdən soruşurlar. Bu vəziyyət ayaqda və yerdə iki komanda yaranana qədər davam edir. Məsələn: 4 ayaqda 4 yerdə. Yerdəki oyunçular ayaqdakıları qovmağa başlayır, bütün oyunçular tutulunca oyun bitir. Daha sonra yenə çöp çəkilərək oyunu davam etdirirlər (137, 143-144).

Rəng məfhumunun mövcud olduğu elə oyunlar da var ki, həmin oyunların adı rənglərdən hər hansı birinin adını daşıyır. Belə oyunlara Anadoluda olan "Kırmızı biberim" (137, 112), "Pembe nine" (137, 140), "Sarı çiçeğim" (137, 147), "Sarı kırmızı" (137, 148), "Mavi taş" (160, 157), "Ağ elma, kızıl elma" (160, 227), "Maviş" (160, 238) oyunlarını misal verə bilərik. "Mavi taş" oyununda ilk olaraq bir oyunçu bir daşı otlara sürtərək daşın rənginin mavi və yaşıl arası bir rəngə boyanmasına çalışır. Daşın boyandığı bu rəng oyunun adında öz əksini tapmışdır. "Ağ elma kızıl elma" oyununun adında ağ və qızılı rənglər vardır. "Maviş" oyununda isə, həm oyunun adında rəng

var, həm də "Rəng-Rəng" oyunlarındakı kimi rəng söyləmə, rəng məfhumları ilə bağlılıq vardır. Həmçinin, Azərbaycanda oynanılan "Qara qazan" (28, 405) oyunu ilə Anadoluda oynanılan "Kazan kara" (128, 38-39) oyunlarının hər ikisinin adında "qara" rəngi keçir.

Anadolunun Van bölgəsində oynanılan "Sarı çiçeğim" oyununda iki oyunçu üz-üzə dayanıb əllərini bir-birinə vuraraq aşağıdakı təkərləməni söyləyirlər:

*Sarı çiçeğim ben öleceğim,*
*Cuma akşamı can vereceğim.*
*Örtün üstümü sinek konmasın,*
*Uçan melekler benden korkmasın.*
*11-22-44-88 kıpırdayan keriz (137, 147-148).*

Oyunun qaydası belədir: Oyunçulardan yerindən tərpənən keriz (axmaq) olur, heykəl kimi tərpənmədən duran oyunçu oyunu qazanmış olur. Oyunun adında və təkərləməsində işlədilən "sarı" sözü ilə sadəcə çiçəyin rəngi vurğulanmır, eyni zamanda sarının xəstəliyi, ayrılığı və ölümü əks etdirən simvolik mənası ilə həmin rəngin insanda oyatdığı psixoloji təsir təkərəmənin mənasına da uyğun gəlir.

Anadoluda oynanılan "Sarı kırmızı" oyununda isə oyunun adı təbiətin ana və isti rənglərinin adını daşımaqla bərabər, həmçinin oyunda uşaqların rəng məfhumlarını öyrənib tanımalarında bütün rənglərdən istifadə edildiyi məlumdur. Oyunda 1, 2, 3 və b. deyə müəyyən sayılar söylənilir. Əvvəlcə 1-ci olan oyunçu gəlir və digər oyunçulara ağlında tutduğu rəngi söyləyir. Onun ağlında tutduğu rənglə oyunçulardan hər hansı birinin tutduğu rəng uyğun gəlsə, həmin oyunçu onun yanına gedir. Oyun iki qurup alınana qədər bu şəkildə bir neçə dəfə təkrarlanır. Sonra bir qrup o birini qovalamağa başlayır. Tutulan oyunçular öz dəstələrindən kiminsə onlara əlini vurub qurtarmağını

gözləyir. Qarşı dəstənin bütün oyunçuları tutulana qədər oyun davam edər.

Anadolunun Elazığ bölgəsində oynanılan "Renk ebesi" (160, 308) oyunu eyni şəkildə Naxçıvanda "Rəng-Rəng" (142, 740) adıyla oynanılır. Oyunçular geniş bir sahədə toplanaraq sanama söyləyib əbəni müəyyənləşdirirlər. Əbə olan oyunçu bir rəng söylədikdən sonra oyunçulara əllə toxunaraq əbələməyə çalışır, yəni əbəliyi başqasına keçirmək istəyir. Qaçan oyunçular əbənin söylədiyi rəngi tapıb qonduqları zaman əbə olmaqdan qurtulurlar. Əbənin söylədiyi rəngi tapıb qona bilməyən oyunçu əbə tərəfindən əbələnir (əllə vurulur) və həmin oyunçu yeni əbə olur. Yeni əbə bir rəng söyləyir və oyun eyni şəkildə davam edir.

Rənglə əlaqəli bir başqa oyun isə, Anadolunun Sarıtarla kəndində daha çox qız uşaqları tərəfindən açıq sahələrdə oynanılan "Renk tutmaca" (128, 56) oyunudur. Ən azı on nəfərlə oynananılan bu oyuna başlamadan əvvəl sanama söyləyib əbəni müəyyənləşdirirlər. Sonra əbə ağlında bir rəng tutur. Əbənin qarşısında oturmuş olan oyunçular da bir rəng tuturlar və tutduqları rəngi növbə ilə əbəyə söyləyərək, əbənin tutmuş olduğu rəngi tapmağa çalışırlar. Əbənin ürəyində tutduğu rəngi bilən oyunçu əbənin yanına keçir və digər oyunçuları tutmağa çalışırlar. Tutduğu oyunçular əbənin yanında iştirak edərək digər oyunçuları tutmağa çalışır. Tutulan ən son oyunçu yenə əbə olur, rəng tutma fəsli başlayır və oyun bu şəklidə davam edir.

Günümüzdə milli bayraq, klublar, quruluşlar, kino, fotoşəkilçilik, rəsm, arxitektura, vizual dizayn, dekorasiya, psixologiya, satış, reklam və s. bir çox sahələrdə geniş şəkildə istifadə edilən rənglər fərqli bir ünsiyyət formasına çevrilmişdir. Hətta, gündəlik danışıqlarımızda çox işlədilən deyim və atalar sözlərində də rənglərdən geniş şəkildə istifadə edildiyinin şahidi oluruq: "Öfkeden kıpkırmızı kesilmek", "karalar giymek", "mosmor olmak", "renkten renge girmek", "yeşil ışık yakmak" (Anadoluda); "Rəng alıb rəng vermək", "qızarıb bozarmaq", "göyər-

mək”, “qızarmaq”, “ağarmaq”, “qaralmaq” (Azərbaycanda). Adam adları üçün rənglərdən istifadə edilməsi də hər iki bölgədə görülür; Azərbaycanda Qara (kişi adı), Bəyaz (qadın adı), Anadoluda Pembe (qadın adı) və s.

Hər mədəniyyətin ünsiyyət vasitəsi kimi fərqli mənalarda istifadə olunan, nəsildən-nəsilə ötürülərək yaşadılan və ictimai təcrübələrin nəticəsində özünəxas mənalar qazanmış rənglər adətlərlə qaynayıb qarışaraq müxtəlif anlamlar kəsb etmişdir. Anadolu adət-ənənələrinə görə, uşaqları nəzərə qarşı qorumaq üçün üzlərinə mavi bez örtmək, ya da mavi nəzər muncuğu taxmaq (84, 2), uşaqların sarılıq xəstəliyinə tutulmaması üçün üzlərinə sarı bez örtmək, uşağın rənginin gözəl olması üçün üzünə rəngli bez örtmək (97, 7-8; 150, 275) bizdə qızılca keçirmiş uşaqların üzərinə qırmızı örtük örtmək və s.

İnsan psixologiyasına birbaşa təsir edən və ictimai həyatın nizamlayıcısı olaraq rənglərlə yaradılan bir çox simvolun nə mənaya gəldiyi hər kəs tərəfindən bilinir; su kranları üzərindəki qırmızı rəngin isti su, mavi rəngin isə soyuq su olduğunu, telefonlarda olan qırmızı düymənin cihazı bağlamağa, yaşıl düymənin isə cavab verməyə yaradığını, trafikdə işıqforun rənglərinin nə mənaya gəldiyi və s. hər hansı bir yazılı mətn olmadan insanlar tərəfindən bilinir və tətbiq edilir. Eyni zamanda, içində olduğu psixoloji vəziyyəti rənglərlə də ifadə edə bilən insanın xoşuna gələn, gözəl olan, bəyənilən varlıqlar ancaq rənglərlə estetiklik qazanır. Ətrafımıza baxdığımızda rənglərin ən azad, ən gözəl istifadəsini təbiətdə görürük. Rənglər elə fərqli yerlərdə, elə müxtəlif formalarda istifadə edilmişdir ki, ilk baxışda bizim üçün aydın olmasa belə, var olan tarazlığın gərəyidir. Bu baxımdan təbiətdə və həyatımızın az qala hər sahəsində olan rənglərin uşaqlar tərəfindən istifadə edilərək oyun və təkərləmələrdə öz əksini tapması çox təbiidir.

## 5.Təkərləmələrdə Dağ Obrazı

Həyatımızda önəmli rol oynayan və istər bir obraz, istərsə də bir kult və ya bir iyə kimi şifahi və yazılı ədəbiyyatımızda öz əksini tapan qiymətli və müqəddəs varlıqlardan biri dağdır. Dünyada bir çox dağlar vardır və onların yaranma səbəbləri ilə bağlı isə fərqli fikrlər mövcuddur. Bir qisim dağlar yerin sıxılmasıyla yaranarkən, bir qismi də lavaların yer üzünə çıxıb donmasıyla meydana gəlir. Türklərin "Yaradılış dastanı"na görə, dünyanın yaradılmasından sonra, ilk insan ağzındakı torpağı tüpürəndə təpələr, dağlar meydana gəlmişdir (104, 12). Bir başqa əfsanəyə görə, Qara xan yaratdığı torpağın üzərinə bir quş göndərdi. O quş da bu torbaqları dimdiklədi, çıxıntılar bir-bir dağ oldu (141, 329).

Dünyanın quru kütləsinin 24%-i bütünlüklə dağlıqdır, insanların isə 10%-i dağlıq bölgələrdə yaşayır. Dünyadakı çayların çoxu dağlıq qaynaqlarla bəslənir və bəşəriyyətin yarısından çoxu su üçün dağlardan asılıdır. Dağlar yalnız yer kürəsində deyil, digər planetlərdə də vardır. Bunlara nümunə olaraq, Venerada Qila dağı və Marsdakı Olimpas Mons dağı nümunə göstərilə bilər (196, 2).

Cənabı-Haq yer üzünü dağlarla təchiz etmişdir. Fərqli din və mədəniyyətlərdə bəzi dağların müqəddəs, dəyərli hesab edilməsi o ətrafda bir peyğəmbər və ya bir övliyanın təşrifilə əlaqəli olmuşdur. Bu baxımdan Nur dağının (Cəbəli-Nur) dəyəri Məhəmməd peyğəmbərə (s.a.v.) ev sahipliyi etməsindəndir. İnsanlıq tarixi boyunca digər bölgələrdə də bu cür yerlər vardır. Qahirədə Müqəddəm dağı, Suriyada Lükəm dağı, Beyrutda Lübnan dağı, Filistində Beytülməqdis dağı, Sina çölündə Tur dağı, abid və zahidlərin inziva həyatı yaşadıqları məşhur yerlərdir (86, 1). Orxan abidələrində isə, türklərin ilk böyüdüyü yer olaraq göstərilən Ötükən dağı üçün də "Mübarək Ötükən dağı" deyilməkdədir (141, 329).

Böyüklük ifadə edən dağlar müqəddəs yerlər hesab olunmuş, qoruyuculuq vəzifəsini yerinə yetirmiş, tanrılara, tanrıçalara, dağ pərilərinə məkan olmuş, ilk ana ve baba sayılmışlar. Bildiyimiz kimi, əski əzizlərdən də bir qisminin məzarları və ibadət etdikləri yerlər dağlardadır. Eyni zamanda göydə olan tanrılara çatabilmək üçün onlara tərəf uçmaq istəyənlər dərin bir inam və həyəcanla dağların yüksək təpələrindəki uçurumlardan özlərini atardılar (141, 329). Zirvələri göydə buludlara qarışan ulu dağların tanrılara iqamətgah olduğu inancı isə, Yunana Sümerdən gəlmiş ola bilər. "Homer" dastanlarında tanrıların Olimp dağında mərasim keçirdikləri, insanların problemlərini müzakirə etdikləri, iclaslarda aralarında söhbət, ya da dava-dalaş etdikləri göstərilir (125, 228).

Təsəvvüfdə əsasən nəfsin simvolu kimi bilinən dağ, qədim türklərin mifoloji inanc sistemində də önəmli yer tutmuş və iyə olaraq dəyər qazanmışdır. Həmçinin, dağlar yalnız öz iyələrinin deyil, eyni zamanda digər ruhların da sığındığı yerlər olaraq bilinməkdədir. Bu səbəblə, dağ kultu türk mifolojisində ritualların icra edildiyi idık (müqəddəs) məkanlar olaraq da bilinirlər. Türk xalqlarının demək olar ki, hamısında görülən dağ kultu mifolojidə dağ-oba kultu ilə sintez halındadır. Dağ və onunla bərabərləşdirilən dağ iyəsi yalnız təbiətin tərkib hissəsi olmaqla qalmır, eyni zamanda yaradılış mifinin də xüsusiyyətlərini əks edir (110, 2). Məsələn, Miras suyu sahilində bir dağ var və adı Kölindir. "Dağ Qarğası oymağı"nda yaşayanlar bu dağa "bizim törədiyimiz dağ" deyirlər. Bu oymaqdan (qəbilədən) olanlar, bu dağda şaman ayinləri icra edir, qurban kəsirlər. Eyni zamanda qadınlar bu dağa "qayınata" deyirlər. Bəzi dağlar da nəslin qoruyucusu olaraq qəbul edilir. Yenə altaylılara görə, Tu iyəsi ən böyük dağ tanrısıdır (167, 202). Belə ki, boyların, soyların və qəbilələrin müqəddəs dağlarının olması, soyun öz əcdadını dağ ruhuyla birləşdirməsi, bu iki mifoloji kateqoriyanın ortaq bir kulta bağlılığını göstərir. Digər tərəfdən dünya modelində dağın

yerin oxu olması inancı dünya dağlarının və ya dəmir dağların varlığına inancını ortaya çıxarmışdır, bu da ümumi mənada dağ kultunun bir başqa formasıdır (110,  2).

Dağ obrazı  xalq ədəbiyyatında hər zaman mühüm ünsürlərdən biri olmuşdur. Türk xalqlarının mədəniyyət və inanclarında özünə xas yeri olan dağ obrazı nağıllara, əfsanələrə, rəvayətlərə, dastanlara, ata sözlərinə və deyimlərə, hətta uşaq oyunlarında söylənən təkərləmələrə də mövzu olmuşdur. Bu təkərləmələrdən biri "Kəpənək" uşaq oyununda söylənən "Əl-əl əpənək" təkərləməsidir. Həm Anadoluda, həm də Azərbaycanda bu təkərləmənin bir çox variantları mövcuddur. Lakin Anadolu variantlarında olan "Əl-əl əpənək" təkərləməsində heç bir dağ obrazına rast gəlinmir. Azərbaycanın Naxçıvan bölgəsinə aid variantda isə "Ala dağ" obrazı vardır. Həmin təkərləmənin Göyçə versiyasında isə, biz "Qara dağ" obrazına rast gəlirik. Həmçinin, "Ala dağ" və "Qara dağ" adları "Kitabi-Dədə Qorqud" dastanında da keçməkdədir. Belə ki, "Kitabi-Dədə Qorqud"dakı Oğuz cəmiyyətinin əhatə olunduğu təbiətdə dağlar, daşlar, dərələr, təpələr seçilən, sayılan məqamdadır. Abidədə həm ümumi, həm də xüsusi adlı dağlar çoxdur. Boylarda ümumi dağlar belə yad edilir: "sulu dağlar", "qarlı-buzlu dağlar", "oturan dağlar", "yaylalı dağlar", "uca dağlar", "qara-qara dağlar", "geyikli dağlar", "otlu dağlar" və s.: Xususi adlı dağlar isə bunlardır: Qazlıq dağı, Gökcə dağ, Ala Dağ, Qara Dağ" (141, 330).

Dağ obrazı türklərdə vətən, yaşanılan yer kimi də əhəmiyyət kəsb etmişdir. Orxan-Yenisey abidələrində olduğu kimi uyğur mifolojisində də, Altay-Sayan türklərinin dastanlarında da dağ müqəddəs vətən simvoluna çevrilmişdir. Belə ki, Altay dağı vətən olaraq dərk edilmişdir (110, 4). Eyni ilə "Kəpənək" təkərləməsində də "Ala dağ" və "Qara dağ" yaşanılan bir yer, oğlanın at oynatdığı, qızın da muncuq düzdüyü bir yer, bir oba, vətən kimi verilmişdir:

*Əl-əl əpənək,*
*Əldən düşdü kəpənək.*
*Kəpənəyin yarısı,*
*Yumurtanın sarısı.*
*Baba, hara gedirsən?*
*Ala dağa gedirəm.*
*Ala dağda nəyin var?*
*At oynadan oğlum var,*
*Muncuq düzən qızım var (24, 414).*

Mədəniyyətimizdə və ədəbiyyatımızda əhəmiyyətli olan "dağ", "qaya" obrazının var olduğu bir başqa təkərləmə isə, bir çox variantları olan "Üşüdüm ha üşüdüm" təkərləməsidir:

*Üşüdüm, ha üşüdüm,*
*Dağdan alma daşıdım.*
*Almalarım aldılar,*
*Məni yola saldılar.*
*Mən bu yoldan azaram,*
*Dərin quyu qazaram.*
*Quyu divi beş keçi,*
*Hanı bunun erkəçi?*
*Ağ qayanın qaşında,*
*Erkəc qaya başında...(17, 635)*

Yuxarıda söylənən "Üşüdüm, ha üşüdüm" təkərləmsinin Ağdaş (12, 461), Naxçıvan (27, 287), Cənubi Azərbaycan (55, 254), Göyçə (17, 254) və s. variantlarında da "dağ obrazı" mövcuddur.

Dağ obrazı sadəcə uşaq oyun təkərləmələrində değil, eyni zamanda uşaqlar üçün söylənən layla təkərləmələrində də mövcuddur. Aşağıda verilən layla nümunəsində "Uca dağın başı qarlı olar" deyimi özünə xas ifadəsini tapmışdır:

*Dağ başında qarımsan,*
*Namus, geyrət, arımsan.*
*Heç bir şeydə gözüm yox.*
*Dövlətimsən, varımsan.*
*Balam lay-lay, a lay-lay,*
*Gülüm, lay-lay, a lay-lay (17, 611).*

Azərbaycanın Loru-Pəmbək bölgəsinə aid bir başqa laylada da dağ obrazına rast gəlirik:

*Dağlar çəni arzular,*
*Sünbül dəni arzular,*
*Yat, arzum, muradım yat,*
*Atan səni arzular,*
*Yat, qolum, qanadım yat (22, 299).*

Uşaqlar üçün söylənən laylalardan başqa, bəbələrin, balaca uşaqların nənələri, anaları onları oynatdıqları, əzizlədikləri zaman müxtəlif nazlamalar, əzizləmələr söyləyirlər. Bu cür nazlama və əzizləmələrdə dağ obrazına tez-tez müraciət olunur:

*Dağda meşəlik,*
*Gül bənövşəlik,*
*Mən həmişəlik*
*Bu balama qurban.*
*Dağdakı atlar,*
*Quyruğun qatlar,*
*Göyçək arvadlar*
*Bu balama qurban (17, 615).*

Uşaqlar öz aralarında oynadıqları, əyləndikləri zaman müxtəlif sanamalar söyləyirlər. Bu cür təkərləmələrdə dağ obrazı tez-tez işlədilir:

*Dağa get,*
*Bağa get,*
*Qızlara baxmağa get,*
*Qonşuya çaxmağa get,*
*Gətir təndiri qalayaq (11, 383).*

Uşaqların özlərinin söylədiyi və ya onlar üçün söylənən düzgülərdə dağ obrazı ilə qarşılaşırıq. Belə düzgüyə "Qara-ağın ağası" düzgüsünü nümunə göstərə bilərik:

*Dağlar dumandı, baba,*
*Halım yamandı, baba.*
*Ürəyimə işıq ver,*
*Əlimə bir qaşıq ver...(11, 386)*

Dağ obrazının olduğu bir başqa təkərləmə isə "Boz ay" düzgüsüdür:

*Bozara-bozara gələn,*
*Ay səni yağışa bələn...*
*Qardaşmısan qarlı qışa?!*
*Qar tökürsən dağa-daşa...(11, 387)*

"Boz oğlan" düzgüsündə insanlar üçün önəmli sayılan dağ-daş obrazı vardır. Burada da dağ-daş bir yaşayış yeri mənasında işlədilmişdir. "Orxan-Yenisey abidələrindən məlum olduğu kimi, meşə və dağ kultu vətən məfhumunun iki bərabər tərəfi olaraq görünür. Bir başqa dəyərləndirməyə görə isə, dağ həyat ilə ölümün birləşdiyi yerdir" (110, 4). Bu mənada dağ və ya daş kultu türk mifoloji sistemində dəyişməz əhəmiyyət kəsb edir:

*Ay kəklikli boz oğlan,*
*Gəldi daha yaz oğlan.*
*Boz atını min, görüm,*
*Bulaq üstə din, görüm.*
*Qurdoğlu de, sənmisən?!*
*Göydən yerə enmisən?!*
*Yurdu gəzirsən yenə,*
*Dağ-daşı dönə-dönə...(11, 387)*

Azərbaycanın Muğan bölgəsində oynanılan "Qaç-dı-Qovdu" uşaq oyununda söylənən təkərləmədə "Ala dağ" obrazı mövcuddur. Bu təkərləmədə əmisinə qoyunun harda olduğunu soruşan və qarşılığında Ala dağda olduğunu, orada bulaq suyu içib xurma yediyini öyrənən uşağın da Ala dağa getmək istəyindən danışılır. Bildiyimiz kimi, kənd yerlərində heyvanlar (qoyunlar, quzular) yaxşı bəslənmələri üçün yazın sonlarında yaylağa aparılır, yayda isti günlər bitincə geri gətirilir. Dağın-yaylağın sərin havasında, gözəl ot və çiçəklərlə yaxşı bəslənən qoyunlar ətə-qana gələrək, yəni kökəlmiş vəziyyətdə geri dönərlər. Qoyunları dağa aparma adəti uşaqlar tərəfindən "Qovalamaca" oyunu oynanılan zaman söylənən "Əmi-Əmi" təkərləməsində də öz əksini tapmışdır. Biz bu təkərləmədə də "Ala dağ" obrazı ilə qarşılaşırıq:

*-Əmi, əmi!*
*- Nədi, bala?*
*- Qoyun harda?*
*- Ala dağda.*
*- Nə içir o?*
*- Bulaq suyu.*
*- Mən də gəlim?*
*- Durma, bala.*
*- Əmi, əmi!*

*- Nədi, bala?*
*- Qoyun harda?*
*- Ala dağda,*
*- Nə yeyir o?*
*- Xurma, bala.*
*- Mən də gəlim?*
*- Durma, bala (23, 375).*

Azərbaycan kəndlərində quraqlıq olduğu zamanlar yağış yağdırmaq məqsədi ilə belə bir ayin icra edilir: "Bir grup insan əlinə su dolu qab alır, ovucunu su ilə doldurup göyə səpir, su yerə yağış şəklində düşür" və ardınca da təkərləməsində dağ obrazı olan aşağıdakı mərasim nəğməsini oxuyurlar:

*Su səpdim, suyu səpdim,*
*Arana suyu səpdim.*
*Dağdan gələn seldi ho,*
*Dərələri göldü ho...(8, 112)*

İlk baharın gəlişi ilə əlaqədar oxunan nəğmə və mahnılarda da təbiətin təsviri verilərkən orada əksər vaxt dağ obrazının olduğunu görürük:

*Açdı çiçək, gəldi yaz,*
*Eylədi dağlar avaz.*
*Qar üzəri səm oldu.*
*Hər tərəf səm-səm oldu,*

*Dağda çiçək, səm-səmim.*
*Bağda çiçək səm-səmim..(62, 232)*

Uşaq oyun-təkərləmələrində olan dağ obrazı daha çox bildiyimiz dağ-daş, ya da yaşanılan yer, oba kimi məfhumları eh-

tiva etsə də, dillərə dastan olmuş bir çox bayatılarımızda isə, dağ obrazı öz mənasından başqa bir kult, bir iyə, canlı bir varlıq dəyəri qazanmışdır. Belə ki, "Türk mifologiyasında dağlar canlı varlıqlar kimi böyüyər (məsələn, xakasların inancına görə), bir yerdən başqa yerə gedə bilər (məsələn, şorlara görə), kiçik dağlar daha böyük dağlara tabedirlər, bir-birləri ilə savaşar və hətta evlənərlər" (110, 4).

Türk xalqlarının çoxu dağlarla insanmış kimi danışır, dağlarla dərdləşir, ona suallar verirlər. Təbii olaraq bütün bunlar xalqın söylədiyi şeirlərdə öz əksini tapır. Belə şeirlərə aşağıdakı bayatını nümunə verə bilərik:

*Eləmi oyan, dağlar,*
*Al qana boyan, dağlar,*
*Burda qada-bəla çox,*
*Necədi o yan, dağlar? (141, 333).*

Aşağıda verilən digər iki bayatıda isə, dağın təsviri verildikdən sonra, bir canlı varlıq kimi sanki qarşısındakını başa düşür, ona cavab verəcək kimi dağdan yarını soruşur, ondan bir xəbər almaq istəyir. İkinci bayatıda isə, dağla bir insanmış kimi rəftar edilir, insanın dayana bildiyi acıya, dağa, yəni dərd-bəlaya dağın dayana bilməyəcəyi vurğulanır:

*Yaşıl yaylıqlı dağlar,*
*Bağçalı, bağlı dağlar.*
*Yardan xəvər verin,*
*A xoş soraxlı dağlar (17, 591)*
*Əzizinəm, bu dağa,*
*Bülbül qonub bu dağa.*
*Dağ da dözə bilməzdi,*
*Mən dözdüyüm bu dağa (17, 606).*

Həyatımızda olduğu qədər ədəbiyyatımızda da əhəmiyyətli yerə sahib olan dağın adı türklər tərfindən and içərkən müqəddəs bilinən bütün varlıqlar içində zikr edilir. Dağ kultunun Göy tanrı inancıyla bilavasitə bağlılığı, bütün türk qövmlərində dağın və dağ ruhunun kişi kimi təsəvvür edilməsi, hətta altaylıların dağa baba deməsi, dağların sahibi olan, insanları pis ruhlardan qoruyub yol göstərən, amma hörmətsizlik edənlərə də cəza və xəstəlik verən, ümumi adı Yizimpiy olan dağ ruhlarının varlığına inanılması və onlar için qurbanlar kəsilməsi, dualar edilməsi bu gün belə bəzi türk xalqları arasında yaşayır.

Dağları ilk ata bilən türk boylarının bəzi adətləri və mərasimləri də vardır. Rəvayətə görə, Saqçaq dağının ətəklərində olan Üçəyə oymağına qadınlar qayınatamız deyərlər və bu dağı uzaqdan gördükləri zaman başlarını örtərlər (141, 334). Azərbaycanda dağa baba deyilməsi, gəlinlərin dağı gördüklərində üzlərini örtmələri, dağın kişi, həm də qayınata və ərinin soydağı kimi təsəvvür edilməsi, Allah üçün kəsilən qurbanların müqəddəs sayılan dağlara təqdim edilməsi və bu dağlara qadınların ayaq basmasının yasaqlanması və bu kimi inanc və adətlər də mövcuddur (110, 4). Bu gün belə Azərbaycan və Anadolunun bəzi bölgələrində insanlar qurbanlarını dağ başında kəsirlər. Ululuq simvolu tək dağın Tanrıya ən yaxın məkan olaraq bilinməsində onun dünyanın tarazlığını qoruyan mehvər kimi qəbul edilməsinin də əhəmiyyətli rolu vardır. Vurğulanan bütün bu xüsusiyyətləri ilə türklərin həyatında çox əhəmiyyətli yeri olan dağın ədəbiyyatımızda və folklor nümunələrində, xüsusən oyun və təkərləmələrdə öz ifadəsini tapması olduqca təbii və gözlənilən haldır.

I fəslin əsas mövzusu olan "Təkərləmələrin nağılda və oyun-tamaşa kompozisiyasında yeri; tipoloji təsnifatı"nda təkərləmə sözü geniş şəkildə şərh edilmiş, təsnifatı aparılmışdır. Tədqiqatda təkərləmələrdən nümunələr verilmiş və əsasən "Nağıl təkərləmələri" (Nağılların başında, ortasında və sonunda söy-

lənən təkərləmələr) ilə "Günlük əyləncə-oyun təkərləmələri" (Oyun başı təkərləmələri-Oyunçuları oyuna çağırma təkərləmələri, Oyunçu seçimi təkərləmələri; Oyun içi təkərləmələri-Təkrarlanan təkərləmələr, Təşviq edici təkərləmələr, Acıtma, öcəşmə, dolama tipli təkərləmələr, Yanıltmac təkərləmələr; Oyun sonu təkərləmələri), "Mərasim oyun təkərləmələri" (Yağış yağdırma mərasimi təkərləmələri, Günəşi çağırma mərasimi təkərləmələri, Yeli-küləyi çağırma mərasimi təkərləmələri, Saya mərasimi təkərləmələri, Bayram – Xıdır, Ramazan, Qurban, Novruz mərasimi təkərləmələri, Toy mərasimi təkərləmələri) nümunələr göstərilməklə hər iki bölgəya aid variantları müqayisə edilmişdir. Eyni zamanda təkərləmələrin başlıca funksiyaları vurğulanmaqla bərabər, təkərləmələrin mövzu baxımından zənginliyini göstərmək məqsədilə təkərləmələr "Uşaq oyun təkərləmələrində rənglər", Təkərləmələrdə dağ obrazı" kimi başlıqlar altında da incələnmişdir. İncələmələr və müqayisələr nəticəsində həm Azərbaycan, həm də Anadolu folklorunda fərqli təkərləmələrlə yanaşı bənzər təkərləmələrin üstünlük təşkil etməsi və onların bir çox oxşar variantlarının mövcudluğu diqqət çəkicidir. Bu da öz növbəsində eyni millətin düşüncə və dünyagörüşünün, adət-ənənələrinin, həyat tərzinin, folklorunun yaxınlığından xəbər verir.

# II FƏSİL

## TƏKƏRLƏMƏ ÇEŞİDLƏRİ VƏ ÖRNƏKLƏRİ

Təkərləmə "ağızda diyirlənən, mənasız və bənzər səsli sözlər"dən ibarət olan şeirlər, nəğmələrdir. Təkərləmə nağıl, hekayə, tapmaca, xalq teatrı, mərasim və uşaq oyunları içində yer alan, eyni zamanda tək başlarına da sərbəst şəkildə istifadə olunan qafiyəli sözlərdən ibarət şeirlərdir. Folklorun epik növünə girsə də söyləmə şəkil və yerinə görə lirik növün də xüsusiyytlərini daşıyır. Təkərləmələr Anadolu folklorunda adətən dörd çeşid olaraq qruplaşdırılır. Pətəv Naili Boratav "100 Sualda Xalq Ədəbiyyatı" adlı əsərində təkərləmələri aşağıdakı kimi təsnif etmişdir:

1.Uşaq oyun təkərləmələri

2.Nağıl təkərləmələri

3.Törən (mərasim) təkərləmələri

4.Müstəqil söz oyunlarına əsaslanan təkərləmələr – Yanıltmaclar (111, 166).

Azərbaycan folkorunda isə Anadolu folklorundan fərqli olaraq hər bir janr ayrılıqda öz adları ilə işlədilir, yəni "təkərləmə" adı altında ümumiləşdirilmir. Bəzi bölgələrdə təkərləmə ifadəsi işlədilsə də təkərləmə çeşidlərinin bir çoxu "uşaq folkloru" adı altında bir yerə yığılaraq, hər bir janr nümunələrilə ayrıca göstərilir. Məsələn; uşaq folkloru içində biz nağıl, tapmaca, layla, oxşama, əzizləmə kimi janrlardan başqa təkərləmə dediyimiz sanama, düzgü, acıtma, yanıltmac və s. kimi janrları da müstəqil şəkildə göstərilir. Hər iki bölgənin ayrı--ayrılıqda istər uşaq folkloru, istərsə də böyüklər üçün olan mərasim folklor nümunələrini incələdiyimiz zaman qarşılaşdığımız nəticə o olur ki, hər iki bölgənin foklor nümunələri və janrları demək olar ki, eynidir, fərqlilik sadəcə adlandırılmalarda görülür. Bəzən isə eyni şəkildə adlandırılmışlar. Ya da bizdə

ayrı-ayrı janrlar kimi verilən nümunələr Anadolu fokorunda təkərləmə adı altında ancaq funksiyasına, işlənmə yerinə və mövzularına görə isə təkərləmə sözünün əvvəlinə artırılan yeni bir sözlə fərqli adlar almışdır; nağıl təkərləmləri, uşaq təkərləmələri və s. kimi. Hətta yuxarıda göstərdiyimiz dörd qurup təkərləmələr bəzən fərqli mövzular altında da dəyərləndilir. Belə ki, təkərləmələrin yerinə yetirdiyi funksiyanı nəzərə alaraq onlara uşaq təkərləmələri, diksiyon (nitq) təkərləmələri, eğitici (təlim-tərbiyyə ilə bağlı) təkərləmələr, çaşdırıcı təkərləmələr, nağıl təkərləmələri, oyun təkərləmələri, sayılı (rəqəmli) təkərləmələr, sayışmaca təkrərləmələr, mərasim təkərləmələri və s. kimi də adlandırılır. Lakin bütün bunların hamısı əsasən dörd qrupda (uşaq oyun təkərləmələri, nağıl təkərələmələri, mərasim təkərləmələri, yanıltmaclar) toplanır. Bəzən bu qruplaşdırma da şərti olur. Belə ki, dördüncü qrup olaraq bilinən "müstəqli söz oyunlarına əsaslanan təkərləmələr", yəni "yanıltmaclar" çox vaxt müstəqil şəkildə söylənməyinə və uşaqlar tərəfindən oyun şəklində icra edilməyinə baxmayaraq bəzən hər hansı bir oyunun içində "oyun içi təkərləmələri" kimi də çıxış edir.

Azərbaycan foklorunda "Uşaq folkloru janrları" içində verilən sanama, düzgü, acıtma, öcəşmə, sicilləmə nümunələri də uşaq oyun təkərləmələri kimi öz funksiyasını yerinə yetirir. Sanamalar bəzən oyun içi təkərləmələri kimi istifadə olunsa da, əsasən oyun başında söylənən, əbə və oyunçu seçimi təkərləmələri kimi çıxış edir. Anadolu folklorunda sanamaların qarşılığı sayışmacalar olaraq bilinir. Sanama və düzgüləri fərqləndirmək üçün hər iki janrı incələyərək onlara aid həm Azərbaycan, həm də Anadolu folklorunda olan təkərləmə nümunələrini göstərmək məqsədə daha uyğundur.

# 1.SANAMALAR

Sanama sözü farsca isim olub "Sanamaq"dan gəlir. "Sanamaq" isə "saymaq" feilindən gəlir, onun da mənası rəqəmləri sıra ilə demək, sadalamaqdır (7, 32,51). Lüğətlərdəki mənasından da anlaşıldığı kimi, sanamalar əsasən say sistemini öyrənmək, yaxud öyrətmək məqsədilə yaranmış uşaq folklorunun maraqlı janrlarından biridir. Sanamalar vaxtilə ibtidai təfəkkürün yaratdığı, ilkin insanların təbiətdəki ayrı-ayrı predmetlərin sayını, sırasını, rəngini, əlamətini və s. müəyyənləşdirmə dövrünü daha çox xatırladan poetik parçalar olduğunu qeyd edən A.Nəbiyev zaman keçdikcə onların ilkin xüsusiyyətlərinin unudularaq uşaq oyunları zamanı oyunu təşkil etmək məqsədilə istifadə edildiyini vurğulayır (72, 554).

Sanamaların yaranmasında əsasən üç ehtimal nəzərə çarpır. Birincisi, rəqəmləri və sayıları öyrənmək, ikincisi isə, sayı bilməyin uğursuzluq sayıldığı ehtimalına görə sanamalar yaranmışdır, üçüncüsü də, hürufilərin say sistemi ilə bağlıdır ki, onlar hər bir rəqəmin rəmzi mənasını yaratmış və beləliklə sanamalar meydana gəlmişdir (72, 556-557).

Göründüyü kimi, sanamaların yaranmasıyla bağlı müxtəlif fərziyyələr olsa da, hər halda insanlıq tarixi qədər qədim olan sanamalar uşaqlara ətrafda olan əşyaların xüsusiyyətlərini, saylarını, əlamətlərini öyrətmək məqsədi güdür. Üstəlik bu epik parçalarda bir liriklik əlamətləri də özünü göstərir, bu da öz növbəsində balaca uşaqlara nəsə öyrədərkən maraqlı, əyləncəli və uşaqları əzizləmə xüsusiyyətlərindən irəli gəlir.

Anadolu folklorunda "sanama" janrının qarşılığı "sayışmaca"dır. Sayışmaca sözü "sayışmaq" sözündən gəlir, farsca olan bu sözün mənası; qarşılıqlı hesablaşmaq, uşaq oyunlarında əbəyi və ya oyunçuları müəyyənləşdirmək üçün qarşılıqlı saymaqdır (101, 2695).

Sanama və ya sayışmacalarda diqqəti çəkən əsas məsələ odur ki, birincisi balaca uşaqlara nəsə öyrətmək, ikincisi isə, uşaq oyunlarında oyunçu seçimi zamanı istifadə edilməsidir. Sanama və sayışmacaların bu iki əsas funksiyasını nəzərə alaraq fikirlərimizi daha dolğun çatdırmaq üçün hər iki bölgəyə aid sanamaların bənzər və fərqli nümunələrini, xüsusilə barmqları və sayları öyrətmək və əbə seçimi üçün söylənən təkrarləmə örnəklərinini incələyərək göstərmək olar.

### *Barmaqları öyrətmək üçün söylənən təkrarləmələr*

Azərbaycan və Anadolu foklorunda uşaqları əzizlərkən anaları, nənələri onlara barmaqlarını tanıtmaq, uşaqlarla oynamaq məqsədilə barmaqlarla əlaqəli sanama, sayışma tipli təkrarləmələr söyləyirlər. Bilindiyi kimi, balaca uşaqlar hələ danışmağı bacarmadığı və bir çox şeyi tam qavramadıqları yaş dönəmlərində ana və nənələrinin qucağında əzizlənməyə və onların barmaqları ilə oynanılmağa, incə toxunuşlarla oxşanılmağa çox ehtiyac duyurlar. Müdrik nənələrimiz, analarımız uşaqların bu xüsusiyyətlərini göz önünə alaraq onların barmaqları ilə oynamaq üçün və eyni zamanda yaddaşlarını gücləndirmək, danışığı öyrətmək məqsədilə bu cür təkərləmələr uydurmuşlar. Bir-birindən maraqlı barmaq təkərləmələri zənginiyi ilə maraq doğurur.

Azərbaycan variantları

*Hulu hulu hoza,*
*Dörd yanı sebzə.*
*Bu atdı,*
*Bu tutdu,*
*Bu bişirdi,*
*Bu yedi,*
*Cüncülüyə qalmadı (80).*

***

*Baş barmaq,*
*Başala barmaq.*
*Uzun Hacı,*
*Qıl turağı,*
*Xırdaca bacı.*
*Bu vurdu,*
*Bu tutdu,*
*Bu bişirdi,*
*Bu yedi,*
*Vay, bəbəyə qalmadı (72, 554-555).*

Anadolu variantları

Anadolu uşaq folklorunda isə barmaqlarla əlaqəli elə təkərləmələr var ki, orada sadəcə uşağa barmaqları deyil eyni zamanda duyğu orqanlarımız da öyrədilir:

*Beş duyum var,*
*Beş de parmağım.*
*Duyuları sayalım,*
*Göz, kulak, burun,*
*Dil, deri.*
*Kardeşimin eli.*
*Sayalım bir eldeki*
*Parmakları,*
*Bir, iki, üç, dört, beş,*
*İşte hepsi eşitlendi (202, 1).*

Bir başqa barmaqla bağlı təkərləmədə isə hər iki əlimizdə olan on barmaqları sayaraq uşaqlara eyni zamanda ona qədər saymağı öyrətmək məsələsi də əsas yer tutur:

*Sağ elimizde beş parmak,*
*Sol elimizde beş parmak.*
*Say bak, say bak, say bak.*
*Hepsi eder on parmak.*
*Sen de istersen say bak (202, 1)*

**Sayları öyrətmək üçün söylənən təkərləmələr**

Uşaqlara sayları, rəqəmləri öyrətmək üçün də istifadə edilən sanamalar və sayışmalar həm Azərbaycan, həm də Anadolu folklorunda müxtəlif variantları, qafiyyə, ahəng, ritm zənginliyi ilə seçilməklə yanaşı, bu təkərləmələrdə uşaqlara sayları daha asan və əyləncəli şəkildə, tək və cüt rəqəmləri müxtəlif söz çalarları, söz oyunları istifadə etməklə öyrətmək funksiyası diqqəti çəkir.

Azərbaycan variantları:

*Bir-iki bizimki,*
*Üç-dört qapını ört.*
*Beş-altı daş altı,*
*Yeddi-səkkiz Firəngiz,*
*Doqquz-on qırmızı don (80).*

***

*Bir-iki qırmadı,*
*Üç-dörd vurmadı,*
*Beş-altı xurmadı,*
*Yeddi-səkkiz qurmadı,*
*Doqquz-on durnadı (72, 556).*

1-dən 10-na kimi olan rəqəmlərlə bağlı elə sanamalar da var ki, sırf ona qafiyə olsun deyə yanına sözlər gətirilir. Amma bu sözlər seçilərkən ətrafımızda gördüyümüz, bildiyimiz asan

sözlər seçilir ki, uşaqlar üçün maraqlı və yadda qalıcı olsun. Aşağıda verilən sanama nümunəsi Qarabağ bölgəsinə xas olsa da, bu tip bənzər sanama variantlarına digər bölgələrimizdə də rast gəlmək mümkündür.

*Bir birə*
*İki iynə.*
*Üç üzük,*
*Dörd deşik,*
*Beş beşik.*
*Altı alma,*
*Yeddi yemiş,*
*Səkkiz sərçə,*
*Doqquz donuz,*
*On oraq (19, 376).*

Rəqəmlərlə bağlı sanamalarda uşaqlara tək və cüt rəqəmlər öyrədilməklə yanaşı, onluqlar, hətta 90-100-ə qədər olan sayıların simvolik mənaları da açılır:

*Doxsan bir – torpaqdır,*
*Doxsan iki – yarpaqdır,*
*Doxsan üç – addır,*
*Doxsan dörd – oddur,*
*Doxsan beş – baladır,*
*Doxsan altı – bəladı.*
*Doxsan yeddi – dünyadı,*
*Doxsan səkkiz – röyadı,*
*Doxsan doqquz – səsdir,*
*Yüz – bəsdir ( 72, 56).*

Anadolu variantları:

Anadolu folklorunda da Azərbaycan folklorunda olduğu kimi rəqəmlərlə bağlı təkərləmələr həm funksiya, həm də forma baxımndan bənzərlik göstərir.

*Bir iki, ormandaki tilki,*
*Üç, atlaması güç.*
*Dört, eteğini ört,*
*Beş, beş kardeş,*
*Altı, altınımı çaldı,*
*Yedi yemeğimi yedi,*
*Sekiz, gezmeye gitti.*
*Dokuz, doktor oldu çıktı.*
*On, yatağıma kon (200, 1).*

Anadolunun Tekirdağ və bir çox bölgələrinə xas olan, və uşaqların sevərək söylədiyi 1-dən 5-ə qədər saylarla bağlı aşağıdakı təkrələmə də yığcamlığı, yaddaqalıcılığı ilə diqqətçəkicidir:

*Mini mini birler,*
*Patlak gözlü ikiler.*
*Çalışkandır üçler,*
*Tembeldir dörtler,*
*Kapı dışarı beşler (94, 165).*

Anadoludan olan bir başqa nümunədə isə 1-dən 10-a qədər olan rəqəmlərin uşaqlara öyrədildiyini görürük:

*Bir iki üç,ebelik yaması güç.*
*Dört, beş, sen bana eş.*
*Sonra gelir altı, oyun yarıda kaldı.*
*Yedi, ebeyi yedi.*
*Sekiz, arkada bekledi.*
*Dokuz, on, komşunun damına kon (200, 2).*

Anadoluda xüsusiləşmiş isim kimi çıxış edən və 6-dan 10-a qədər olan saylarla bağlı bir başqa təkrarlama nümunəsi isə belədir:

*Altılar altınlarımı çaldılar,*
*Yediler yemeğimi yediler.*
*Sekizler seke seke gittiler,*
*Dokuzlar doktor olup çıktılar,*
*Onlar bizi okuttular (94, 165).*

Anadoluda rəqəmlərlə bağlı elə təkrarlama nümunələri də var ki, onlar tapmaca xüsusiyyəti daşıyır. Söyləmək istənən rəqəmin öncə xüsusiyyətləri sadalanır, ən sonda isə həmin rəqəmin adın çəkilir:

*Sayıları sayarken,*
*Karşıma çıkar birden.*
*Ne aslan, ne kaplan,*
*Burma bıyıklı tavşan.*
*Tutması güç mü güç;*
*Adı üçtür, üç (200, 2).*

Bəzən sayılarla əlaqəli elə təkrarlamalara rast gəlirik ki, onlar uşaqlara həm vurma cədvəlini daha asan yadda qalmağa kömək edir, həm də uşaqları sağlam qidalanmağa təşviq edir. Belə təkrarlamalardan biri "2`lər bəslənmə"dir:

2`ler Beslenme
*1x2=2 Hani çorbamın teki?*
*2x2=4 Ekmeğin üstünü ört.*
*3x2=6 Bu ne güzel kahvaltı?*
*4x2=8 Kahvaltıyı çok severiz.*
*5x2=10 Nerde benim limon?*

*6x2=12 Tabakta yemek bırakılmaz ki?*
*7x2=14 Tencerenin kapağını ört.*
*8x2=16 En sevdiğim yemektir mantı.*
*9x2=18 Akşama yemeğe bekleriz.*
*10x2=20 Misafirler geldi mi? (200, 1)*

Görüldüyü kimi, təkrarləmədə sadəcə vurma cədvəli və sağlam qidalanma deyil, eyni zamanda süfrə mədəniyyətindən də söz açılır, boşqabda yeməyi artıq eləməməyin gərəyi, kahvaltının, yəni səhər yeməyinin önəmi və s. də vurğulanır.

### *Əbə seçimi təkərləmələri*

Sanamalar uşaqlara say sistemini, yaxud əşyaların əlamətlərini, xüsusiyyətlərini öyrətməklə yanaşı eyni zamanda uşaq oyunlarında oyuna başlamazdan əvvəl əbə və qrup oyunçularını seçmək məqsədilə də söylənilir. Həm Azərbaycanda, həm də Anadoluda "mamaça" mənasında işlənən "əbə" sözü uşaq oyunlarında oyunu idarə edən, qruba qarşı tək başına oynayan əsas iştirakçıya verilən adlardan biridir. E.Aslanov "əbə" sözünə qərb rayonlarımızda daha çox rast gəlindiyini vurğulayaraq, həmin sözün uşaq oyunlarını idarə edən iştirakçıya verilən addan başqa uşaq oyunlarında içinə qoz, fındıq və s. atılan çalaya da deyildiyini qeyd edir (3, 255). Həmçinin bəzi bölgələrimizdə oyunu idarə edən iştirakçıya əbə yerinə molla da deyilir.

Azərbaycan nümunələri:

*Evdə tikiş tikirdim,*
*Birdən qapı döyüldü.*
*Elə bildim atamdı,*
*Açdım gördüm siçandı.*
*Siçana bir təpik vurdım,*
*Getdi dəydi divara.*

*Divardan bir qız çıxdı,*
*Adın qoydum Tamara.*
*Tamara-Tamara tat qızı,*
*Erməni saldat qızı.*
*Tamara getdi beş günə,*
*Gəlmədi on beş günə.*
*Tamaranı çayda gördüm,*
*Əlində bayda gördüm (32, 428).*

Azərbaycanın Zəngəzur bölgəsinə aid olan bu təkərləmənin bənzər variantı Ordubad bölgəsində, xüsusilə Y.Əylisdə çox məşhurdur. Əylisdə yaşayan ermənilərin Əylis caamatının başına açdıqların oyunlardan sonra yaddaşlarda silinməyən erməni xəyanətlərinin nəticəsi, o xalqa olan hirsi, qəzəbi sanamalarda uşaqların erməni qızı olan Tamaraya yönətdiyini görürk:

*Oturmuşdum divanda,*
*Semiçka çıtdayırdım.*
*Birdən qapı döyüldü,*
*Elə bildim atamdı.*
*Açdım gördüm canavar.*
*Canavara bir təpik,*
*Getdi girdi divara.*
*Divardan bir qız çıxdı,*
*Adın qoydum Tamara.*
*Tamara, Tamara tat qızı,*
*Erməni saldat qızı.*
*Tamaranı aldatdılar,*
*Beş qəpiyə aldılar,*
*On qəpiyə satdılar (80).*

Əbə seçimi zamanı bəzən uşaqlar oyuna tez başlamaq üçün tələsdiklərindən qısa təkrarləmələrə daha çox üstünlük verirlər. Belə təkrarləmələrdən biri uşaq vaxtı çox söylədiyimiz aşağıdakı sanamadır:

*Ekidi-bekidi bilmərəm,*
*Laləni dindirmərəm.*
*Lalə yaman forsludur,*
*Nizaminin dostudur (80).*

Bəzən elə maraqlı sanamalara da rast gəlirik ki, bu sanamalar əbə seçimi üçün düzülən uşaqların ata adına uyğunlaşdırılır. Məsələn, oyunçuların ata adı Həsən, Əli, Vəli və s. isə, ona uyğun deyilir:

*Həsən dayı tar çalır,*
*Arvadı qarmon çalır.*
*Uşaqları oynayır,*
*Qonşuları əl çalır (80).*

Əbə seçimi zamanı söylənən məşhur sanamalardan biri "İynə-İynə"dir. Azərbaycanın demək olar ki, bir çox bölgəsində bu sanamanın müxtəlif variantlarına rast gəlmək mümkündür. Həmçinin variantlar çox oxşardır, bəziləri qısa, bəziləri daha uzundur və sözlərinin əksəriyyəti eynidir.

*İynə-iynə,*
*Ucu düymə,*
*Bər bərincan,*
*Şam ağacı,*
*Şatır keçi.*
*Qoz ağacı,*
*Qotur keçi.*

*Dayım oğlu,*
*Kor Musa.*
*Haldır dedi,*
*Huldur dedi.*
*Gələn ayı,*
*Çəh çiçəyi,*
*Maxmirəyi.*
*Gül-çiçəyi.*
*Vur nağara,*
*Çıx qırağa (32, 428).*

"İynə-İynə" sanaması eyni zamanda uşaqların oyun şəklində icra etdiyi bir təkərləmədir. Əbə olan oyunçu digər uşaqların üzərində bu sanamanı sayaraq, sonuncu söz kimdə qurtarsa, oyundan çıxmış olur, bütün oyunçular çıxana qədər əbə oyun boyunca bu təkərləməni təkrar-təkrar söyləyir.

Əbə seçimi zamanı söylənən sanamalardan biri də "Motal-Motal"dır. Bölgələrimizə görə fərqli variantları olan bu təkərləmə aşağıdakı kimidir:

*Motal-motal,*
*Dərman atar,*
*Qır atar, qaymax tutar.*
*Çimmə-çilih,*
*Yeddi illih,*
*Səhər səkkiz,*
*Durna doqquz,*
*Qaranquş,*
*Qapını aç,*
*Geri qaç (32, 428).*

"Motal-Motal" sanamasının bir başqa variantı isə belədir:

*Motal, motal, tərsə mota.*
*Qıl atar, qaymaq tutar.*
*Ağ quşum, ağarçınım.*
*Göy quşum, göyərçinim.*
*Qarğa qara, durna çala.*
*Çilmə çilik, bircə əmlik.*
*Çəmbər çarıq, Əmrəqulu.*
*Vur nağara, çıx qırağa (72, 557).*

Əbə seçimi zamanı söylənən sanamalardan Qarabağ bölgəsinə aid maraqlı nümunlər isə aşağıdakılardır:

*Əkdim noxud,*
*Bitdi söyüd.*
*Yarpağıdı,*
*Şabalıdı(19, 376).*

*****
*Bəli-bəlican,*
*Şam ağacı,*
*Şatır keçi.*
*Qoz ağzcı,*
*Qotur keçi.*
*Hoppan, huppan,*
*Yırıl, yırtıl,*
*Su iç qurtul(19, 376).*

*****
*Duman, keç, keç,*
*Duman, qaç, qaç.*
*Mən anamın ilkiyəm,*

*Ağzı qara tülküyəm.*
*Səni tutub asaram,*
*Ağzına daş basaram(19, 376).*

***

*Mamed, Mamed,*
*Əlində abed.*
*Yürüdü Mamed,*
*Töküldü abed.*
*Ağlama Mamed,*
*Verərəm abed.*
*Ağladı Mamed,*
*Vermədim abed(19, 376).*

***

*Tramvayım qırmızı,*
*İçində doxtur qızı.*
*Salam verdim almadı,*
*Sımsığını salladı(19, 376).*

***

*Dadaş, Dadaş,*
*Şalvarı yaş.*
*On iki lavaş,*
*Bir qazan aş.*
*Onu yeməsən,*
*Təpənə daş (19, s.376).*

Əbə seçimi təkərləmələri Anadolu folklorunda çox zəngindir. Əhməd Cəfəroğlu "Anadolu Dialektolojisi Üzrerine Malzeme" kitabında Anadolunun müxtəlif vilayətlərindən topladığı oyunları və təkərləmələri bir yerə yığmışdır. Bu zənginliyi

göstərmək məqsədilə aşağıda vilayətlərə görə "Əbə seçimi təkərləmələri"ni vermək məqsədə uyğundur.

Konya vilayəti "Əbə seçimi" təkərləmələri:

*İğne batdı,*
*Ciyerimi yakdı.*
*Tombil guş,*
*Arabaya goş.*
*Çıngıldaklı mıngıdaklı goş (115, 3).*

*****
*Ene mene dostum,*
*Ben sana küsdüm.*
*Armudu kesdim,*
*Tavana asdım.*
*Tap dedi düştü,*
*Gargalar uçdu.*
*Annem yoğurt getirdi,*
*Kedi burnun batırdı.*
*O kediyi napmalı?*
*Minareden asmalı.*
*Minarede bir guş var,*
*Ganadında gümüş var.*
*Eniştemin cebinde,*
*Türlü türlü yemiş var (115, 3).*

*****
*Engik mengik,*
*Engarebik dibik.*
*Effer keffer,*
*Mangal mucuk,*
*Tas, tus, pis (115, 3-4).*

***

*Ene mene,*
*Endişeme.*
*Lale kökü,*
*Demir otu.*
*Tas tuz,*
*Engili mengili gız (115, 4).*

***

*Yapma yupma,*
*Dengil dütme.*
*Açığan buçulğan,*
*Felfele,*
*Oturan guş.*
*Allı gelin,*
*Pullu gelin,*
*Çek ayağını,*
*Tilli gelin (115, 4).*

***

*Gınıfı gındalifo,*
*Adelek badelek.*
*Yaz,*
*Yazda bir,*
*Güz,*
*Güzde bir,*
*Tömtömelaki tök (115, 4).*

***

*Evci gelir ev alır,*
*Göncü gelir gön alır.*
*Bir mut,*
*İki mut,*

*Uç mut,*
*Dört mut,*
*Beş mut,*
*Altı mut,*
*Yedi mut,*
*Sekiz mut,*
*Dokuz mut,*
*On mut,*
*Combut (115, 4-5).*

İsparta vilayəti "Əbə seçimi" təkrarləmələri:
*Çıktım erik dalına,*
*Baktım tren yoluna.*
*Üç gemi geliyo,*
*Biri ağa,*
*Biri paşa,*
*Ortancıl Kemal paşa(115, 37).*

*****
*Piri piri panbuk,*
*Eprişime sandık.*
*Gettim deve yoluna,*
*Deve yolu bit pazarı.*
*Deve yolunda ayı,*
*Ayı beni gorkutdu,*
*Kulağını sarkıtdı.*
*Andala mandala,*
*Çek şunu,*
*Sandala(115, 37).*

*****
*Ay maya kumpanya,*
*Bir şişe şampanya,*

*Beyoğluna getdik.*
*Beyoğlu hasta,*
*Çorbası tasta.*
*Püskülü mavi,*
*İnadına gavi(115, 37).*

*****

*Ena mena dodi,*
*Dodi sefren bodi.*
*Sefran boz sefran boz,*
*İsmi rengi alakaz,*
*Fransız tos (115, 38).*

*****

*Aveleme develeme,*
*Deve kuşu kovalama.*
*Çengi, çember,*
*Miski, amber.*
*Tazı tuzi,*
*Ne zaman geldin?*
*Yazın geldim.*
*Yazılalım çizilelim,*
*Bir tahtaya dizilelim.*
*Encik, boncuk,*
*Rebbi a çocuk (115, 38).*

*****

*Elim enek,*
*Yerden çıkan bayanak.*
*Yelli yelli kocası,*
*Ha bülbülüm çağışdak.*
*Dereye vardım,*
*Dere beni korkuttu,*

*Kulağımdan sarkıttı.*
*Salla bunu,*
*Çek şunu (115, 38).*

Kaysəri vilayəti "Əbə seçimi" təkərləmələri:
*Fındık fistık,*
*Gadife yastık.*
*Vallah yenge,*
*Ben basmadım,*
*Horuz basdı (115, 77).*

***

*Birem ikem,*
*Kamçı dikem.*
*Saram sakız,*
*Doram dokuz,*
*Tamam otuz (115, 77).*

***

*İni bini,*
*Ucu dini.*
*Gavun garpuz,*
*Sarı yıldız,*
*As,tıs, pıs (115, 77).*

***

*İnne iplik,*
*Yıldız diplik.*
*Muammerim makineyim.*
*Sarmanım sandıkayım,*
*Bülbülüm çıksın güllüm(115, 77).*

*****

*İyne minne,*
*Ucu dinne.*
*Kuş dillice,*
*Laga luga,*
*Pirinç turunç (115, 78).*

*****

*İnne binne,*
*Ucu dinne.*
*Filfillice guşdillice,*
*Şaka luka,*
*Piriş turuş (115, 78).*

*****

*Mızıh mızıh mahara,*
*Ekmek goydum ahıra.*
*Ahır kapısı kitli,*
*Bu gızın başı bitli(115, 78).*

*****

*Ya şunda,*
*Keça kulah başında.*
*Deveye bindim,*
*Dengimi attım çattım,*
*Çanah şunda hohar (115, 78).*

*****

*İyne battı,*
*Canımı yakdı.*
*Tombul kuş,*
*Arabaya koş.*
*Arabanın tekeri,*

*İstanbulun şekeri.*
*Hap hup,*
*Altın top(115, 79).*

*****

*O dosi*
*Dosi çikolata,*
*Buz gibi limnota.*
*Limnota bitti,*
*Goca garı evden getti(115, 79).*

*****

*Bahçelerde tahta,*
*Biz gediyoh bu hafta,*
*İnemiz dordu,*
*Adı olsun Fatma.*
*Aman taralelim,*
*Canım taralelim,*
*Ebe ebe ümbüs,*
*Saçları başları sünbül(115, 79).*

*****

*İyne iplik,*
*Yıldız kirpik.*
*Sarma satır,*
*Kerme batır,*
*İstanbuldan şeker getir (115, 79).*

*****

*Bon bon portakali,*
*Lile pepe o.*
*Semali vali,*
*Kapleme do.*

*Kaleli kaleli,*
*Ladem do (115, 80).*

***

*Bedi co,*
*Conbidi badi pufra,*
*Beni ago ün dö trua (115, 80).*

Çorum vilayəti "Əbə seçimi" təkərləmələri:
*Ovalama dovalama,*
*Çengi çenber,*
*Miski enber.*
*Tazı tuzu,*
*Berber gızı.*
*Yazın geldin,*
*Yazılalım, yuzulalım,*
*Bi ipliğe dizilelim.*
*Teker, teker çizilelim.*
*Encik, mencik,*
*Gö boncuk (115, 105).*

***

*Ovalama, dovalama,*
*Kedi guşu govalama.*
*Helkede bülbül,*
*Çıkanda sünbül,*
*Çekdil, çıkdıl (115, 105).*

***

*Gızın adı Raife,*
*Ebem yoğurt getirmiş,*
*Kedi burnunu batırmış,*
*Bu kedii napmalı?*

*Minareden atmalı.*
*Minarede bir guş var,*
*Ganadında gumüş var.*
*Enişhtemin cebinde,*
*Türlü-türlü yemiş var.*
*Çekdil, çıkdıl (115, 105).*

*****

*İnne batdı,*
*Canımı yakdı.*
*Tonbul goş,*
*Arabaya goş.*
*Arabanın tekeri,*
*İstanbulun şekeri.*
*Çekdi, çıkdıl (115, 106).*

*****

*Bir, iki, üç, dört,*
*Beş, altı, yedi, sekiz,*
*Dokuz, on,*
*Dağlara gon.*
*Gırmızı don,*
*Limon (115, 106).*

*****

*İnne iplik,*
*Yıldız kiprik.*
*Sarma satı,*
*Kome batır.*
*İstanbuldan*
*Gelin getir (115, 106).*

***

*Türkün gemisi gırmızı direkli,*
*İçindeki askerleri arslan yürekli.*
*İngilizin gemisi yeşil direkli,*
*İçindeki askerleri saman yürekli (115, 106).*

***

*İnne minne,*
*Ucu duğme,*
*Berber gece,*
*Camdan şama bak.*
*Pisik pisik,*
*Bana bak.*
*Ben bu suyu içemem,*
*Goyunu guzuyu seçemem (115, 106).*

***

*İndiz mindiz,*
*Cari cenber.*
*Misgili ganber,*
*Gılıcı bezir,*
*Bişti bilor (115, 107).*

***

*Irbıh lüle,*
*Vara gele (115, 107).*

***

*Ala dana,*
*Gara dana,*
*Şükür bizi yaradana.*
*Evci geldi,*
*Evini aldı.*

*Gopek geldi,*
*Gonünü aldı.*
*Bir mut,*
*İki mut,*
*Üç mut,*
*Dört mut,,*
*On but,*
*Conbut (115, 107).*

Niğde vilayəti "Əbə seçimi" təkərləmələri:
*Ala ma a,*
*Portagala,*
*Çile mile pof (115, 127).*

***

*O lali sa,*
*Leblebi ise,*
*Tavuh kese.*
*Mum yahya,*
*Ebe ise,*
*Ebe ise,*
*Zerdalo (115, 127).*

***

*Hık mık,*
*Nerden girdin,*
*Ordan çık (115, 127).*

***

*Ene mene dosi,*
*Safranbosi safranboş.*
*Safranbos,*
*Fransızı tos (115, 127).*

***

*Ene mene düdü,*
*Mene hayrola?*
*Çukulata,*
*Enlik menlik.*
*Baba toriye,*
*Terlik.*
*Top toriye,*
*Top topa.*
*Lik-ya,*
*Metelik ya (115, 127).*

Anadoluda uşaqların oyuna başlamadan öncə əbə seçimində ən çox istifadə etdikləri təkərləmələrdən biri də "Ya şunda, ya şunda"dır:

*Ya şunda,*
*Ya şunda.*
*Kele kuçek,*
*Şamnan gelen.*
*Datlı şeker,*
*Şunda gokar,*
*Şunda çıhar (115, 131).*

Adətən bu cür təkərləmələr əldə gizlədilən daşı tapmaq üçün deyilir. Düz tapan əbə olmaqdan qurtulur, əksi təqdirdə əbə olur.

Əhməd Cəfəroğlunun toplayıb tərtib etdiyi "Ya şunda" təkərləməsi Anadolunun Niğdə vilayətinə xasdır. Bu təkərləmənin bənzəri Azərbaycanın bir çox bölgələrində xüsusilə də Ordubad rayonunda oyuna başlamadan öncə əbə seçimi zamanı çox istifadə edilir. Hətta bəzən uşaqlar bu təkərləməni istifadə edərək əllərində nəsə balaca bir əşya gizlədərək oyun şəklində icra edirlər. Bu zaman oyuncu sayı azı iki nəfər olmalıdır:

*Ya bundadır, ya bunda,*
*Mən deyirəm bundadır,*
*Allah qoysa, bundadır (80).*

Ordubada xas bu təkərləmənin başqa bir variantı isə Göyçə bölgəsinə xasdır:

*Ya bundadır, ya bunda,*
*Havla, çörək dükanda,*
*Nənəm dedi: aç bunda (17, 749).*

Bu təkərləmənin Anadoluda daha çox yayılmış qısa varinatı isə aşağıdakı kimindir:

*Ya şunda,*
*Ya bunda,*
*Keçe kulah başunda (119, 28).*

## 2.DÜZGÜLƏR

Uşaq folklorunun içində diqqəti çəkən ən maraqlı janrlardan biri də düzgülərdir. Düzgü isim olub düzmə iş, düzmə üsulu, düzülmə qaydası, düzülüş, sıra, sıralama mənasına gəlir. Ritm və ahəng başlıca cəhətlərindən olan düzgülərdə qafiyəni, alliterasiya yaradan oxşar səslər, ritmi təşkil edən sözlər, cümlələr ard-arda düzülür. Düzgülərdə bənzətmə, məcaz, istiarə, şişirtmələrdən geniş istifadə edilir. Yaradılan ziddiyyətlərlə bəzən misralar arasında məntiq əlaqəsi pozulsa da, uşaqlar üçün maraqlı olur və eyni zamanda xəyal dünyasının inkişafı üçün mühüm rol oynayır. Həmçinin, uşaqlarda hafizəni gücləndirməklə bərabər nitqin inkişafına yardımçı olan düzgülər eyni zamanda uşaq oyun təkərləmələri kimi də istifadə edilir. Belə təkərləmlərdən biri də "Əl-əl əpənək" düzgüsüdür.

***-"Əl-əl əpənək" təkərləməsi:*** Bu düzgünün həm Azərbaycan, həm də Anadolu folklorunda çoxlu variantları olduğu kimi, eyni adla icra edilən oyunları da mövcuddur. Uşaqların həyatında əhəmiyyətli rolu olan, xüsusilə Naxçıvan və Ordubad bölgəsində icra edilən bu oyunun başqa bölgələrdə oynanılması faktına antologiyalarda rastlanmasa da, oyunun əsas hissəsini təşkil edən "Əl-əl əpənək" təkərləməsi Gəncəbasar, Şəki, Ağbaba, Naxçıvan və digər bölgələrimizdə adətən hər hansı bir oyun oynanılan zaman və ya gizlənpaç kimi oyunlarda əbə seçimi zamanı söylənən təkərləmə, sanama, düzgü kimi müxtəlif variantlarda qarşımıza çıxır.

***Oyunu oynama qaydası.*** "Əl-əl əpənək", "Əl-əl", "Kəpənək" adları ilə bilinən "Əl-əl əpənək oyunu" həm Anadoluda, həm də Azərbaycanda oynanılan uşaq oyunlarından biridir. Bu oyunun Anadolu və Azərbaycan variantları arasında həm oynama şəkli, həm də oyunda söylənən təkərləmələr baxımından bənzərlik və fərqliliklər vardır. Azərbaycan variantında "Əl-əl əpənək oyunu" belə oynanılır: İki nəfər üz-üzə dayanaraq əllərini bir-birlərinin əlinə həm çarpaz, həm də düz şəkildə və öz əllərinə tez-tez çırpıb ritim tutur, eyni anda oyunun hər iki iştirakçısı aşağıdakı təkərləməni oxuyur, yaxud da oyunçular misraları növbə ilə ardıcıl olaraq deyişirmiş kimi söyləyirlər:

*Əl-əl əpənək,*
*Əldən çıxdı kəpənək.*
*Kəpənəyin yarısı,*
*Yumurtanın sarısı...(80)*

Anadolu variantında isə Azərbaycan variantından fərqli olaraq oyunun adı "Qon-qon kəpənək"dir (orijinalı "Kon kon kelebek"). Oyunda həm uşaqların sayı, həm də oynama for-

ması fərqli şəkildədir. Burada bir neçə uşaq ələ-ələ tutub dairə şəklində dönərkən ortadakı oyunçu bu təkərləməni söyləyir:

*Kon kon kelebek,*
*Yaldızlı çiçek.*
*Al işte sana,*
*Bir yonca çiçek* (95, 202).

Digər oyunçular da əl çırpıb eyni təkərləməni söyləyərək ona qoşulurlar. Oyun dairədəki oyunçunun digərlərindən birilə yer dəyişməsi ilə davam edir.

***Azərbaycan variantlarında olan bəzi fərqliliklər.***

"Kəpənək" oyununun bölgələr üzrə fərqliliyi daha çox oyunda söylənən təkərləmədə görülür. Məsələn: Naxçıvan bölgəsinə xas oyunun təkərləməsi aşağıda verilən kimidir:

*Əl-əl əpənəh,*
*Əldən düşdü kəpənəh.*
*Kəpənəyin yarısı,*
*Yumurtanın sarısı.*
*Baba, hara gedirsən?*
*Ala dağa gedirəm.*
*Ala dağa gedirsən?*
*Ala dağda nəyin var?*
*At oynadan oğlum var.*
*Muncuq düzən qızım var.*
*Qızım bir oğlan doğdu,*
*Adın qoyduq Süleyman (24, 414).*

Naxçıvanın Ordubad bölgəsinə aid olan bir başqa variantda isə oyunda söylənən təkərləmə aşağıdakı kimidir:

*Əl-əl əpənək,*
*Əldən çıxdı kəpənək,*

*Kəpənəyin yarısı,*
*Yumurtanın sarısı.*
*Əmi hara gedirsən?*
*Ala dağa gedirəm.*
*Ala dağda nəyin var?*
*Bir oğlum var, bir qızım.*
*Oğlunun adı nədir?*
*Ənvər.*
*Qızının adı nədir?*
*Fatma.*
*Fatma, Fatma, a Fatma,*
*Yerində şıllaq atma.*
*Fatmanı verdik ərə,*
*Qarnı yoğun Ənvərə (27, 298-299).*

Azərbaycan folkloru antologiyasının XXIII cildi olan “Naxçıvan örnəkləri”nin “Sanamalar və Düzgülər” hissəsində verilən “Əl-əl əpənək” düzgüsü isə digər təkrarləmə variantlarından çox fərqlənir.

*Əl-əl əpənək,*
*Əldən çıxdı kəpənək,*
*Kəpənəyin yarısı,*
*Yumurtanın sarısı.*
*Yumurtalar hindədi,*
*Əldə durmaz kündədi.*
*Kündə təndir içində,*
*Kəndiri ver çərçiyə,*
*Çərçi satsın qəpiyə,*
*Çəpik çalan darğadı,*
*Burda duran qarğadı (27, 287).*

Gəncəbasar bölgəsinə aid olan "Əl-əl əpənək"in variantı ilə Naxçıvan və Ordubaddakı variantlar arasında həm bənzərlik, həm də fərqliliklər mövcuddur. Gəncəbasar variantındakı təkərləmənin ilk beş misrası demək olar ki, Naxçıvan və Ordubad variantları ilə eynidir. Təkərləmədəki "Əmi, hara gedirsən?" sualına verilən cavab isə "Aladağ" deyil, burada "Qarabağ"dır. Eyni zamanda təkərləmənin son misralarında da bəzi fərqliliklər vardır:

*Əl-əl əpənək,*
*Əldən çıxdı kəpənək*
*Kəpənəyin yarısı,*
*Yumurtanın sarısı.*
*- Əmi, hara gedirsən?*
*- Qarabağa gedirəm.*
*- Qarabağda nəyin var?*
*Bir oğlum var, bir qızım.*
*- Qızının adı nədi?*
*- Fatma.*
*Yerində şıllaq atma.*
*Yeddi xoruz, bir fərə,*
*Fatmanı verdim ərə (16, 479-480).*

Şəki bölgəsinə aid olan düzgülərdə rast gəldiyimiz variant isə digər bölgələrimizdəkindən xeyli dərəcədə fərqlənərək daha çox Anadoluda olan "Elim elim epenek" təkərləməsinin variantlarına bənzəyir:

*Əlim, əlim kəpənək,*
*Güldən çıxan kəpənək.*
*Kəpənəyin içinə,*
*Süleymanın saçına.*
*Getdim Hələb yoluna,*

*Saldım, soldum soluna.*
*Hələb yolu cəm bazar*
*İçində meymun gəzər.*
*Meymun məni qorxutdu,*
*Qulaqların sağırtdı.*
*Sağım, solum sarımsaq,*
*Salla bunu, çək hunu (28,390).*

Ağbaba bölgəsində uşaqlar gizlənpaç oynadıqları zaman əbənin seçimi üçün "Əl-əl əpənək" təkərləməsindən istifadə edirlər. Buradakı variant ilə digər bölgələrimizdəki variantlar arasında bənzərliklər çoxdur. Ən çox gözə çarpan fərqlilik isə, istər Azərbaycanın, istərsə də Anadolunun bütün bölgələrinə xas variantlarda qarşılaşdığımız "kəpənəyin yarısı" ifadəsi Ağbaba variantında "kəpənəyin sarısı" şəklindədir:

*Əl, əl əpənəh,*
*Əldən çıxdı kəpənəy,*
*Kəpənəyin sarısı*
*Yumurtanın yarısı.*
*-Əmi, hara gedirsən?*
*-Ala dağa gedirəm.*
*-Ala dağda nəyin var?*
*-Bir oğlum var, bir qızım*
*Qızımım adı Fatma!*
*- A Fatma, Fatma, Fatma,*
*Yatanda rahat yatma!*
*Yeddi xoruz, bir fərə,*
*Fatmayı verdi ərə!*

***Yaxud:***

*Tamara, Tamara tat qızı,*
*Apar dedim sat qızı.*

*Doldurdular faytona,*
*Sürdü Bağdnofkuya.*
*Tamara getdi beş günə,*
*Gəlmədi on beş günə (11, 403).*

Azad Nəbiyevin sanama kimi verdiyi "Əl-əl əpənək" təkərləməsi isə digər variantlardan çox fərqlənir. Bu variantın ilk on misrası daha çox Anadolu variantlarına bənzəyir:

*Əl-əl əpənək*
*Əldən çıxdı kəpənək.*
*Kəpənəyin yarısı,*
*Yumurtanın sarısı,*
*Dərbəndin şah qalası,*
*Əmim oğlu balası,*
*Yoldan keçən qarılar,*
*Vurdu qolum qırıldı.*
*Qolum qazanda qaynar,*
*Ovlaq yanında oynar.*
*Çaparını çapdırdım,*
*Kündəsini yapdırdım.*
*Getdik fələk yoluna.*
*Fələk yolu dərbədər,*
*İçində meymun gəzər.*
*Meymunları hürkürtdü,*
*Balasını qorxutdu.*
*Yol kənarı barılar,*
*Görsən bağrın yarılar.*
*Ətini ata atdım,*
*Otunu itə atdım.*
*Ot yerini otdatdım,*
*Əl-qolunu qatdatdım,*
*Düşmən bağrın çatdatdım.*

*Əl-əl əpənək,*
*Əldən çıxdı kəpənək (72, 559).*

***Anadolu variantlarında olan bəzi fərqliliklər.*** Anadoluda rast gəldiyimiz "Əl-əl əpənək" təkərləməsi Azərbaycanda olduğu kimi həm "Kəpənək" oyununda, həm başqa oyunlar oynanıldığı zamanı əbə seçimində söylənən, həm də türkü (xalq mahnısı) olaraq söylənən təkərləmə kimi məşhurdur.

Anadoluda xalq mahnısı kimi bilinən "El el epenek" təkərləməsi aşağıdakı kimidir:

*El el epenek,*
*Elden çıkan kepenek.*
*Kepeneğin yarısı,*
*Bit bidanın karısı.*
*Ebem yoğurt getirdi,*
*Pisik burnun batırdı*
*Pisik burnun kesile,*
*Minareden asıla,*
*Minarede bir kuş var,*
*Kanadında gümüş var,*
*Allı gelin telli gelin,*
*Çek elinden birisinden birisini (177, 1).*

D.B.Çələbinin 2007-ci ildə yazdığı magistr diplom işində verdiyi "Kəpənək" oyununda yer alan "Elim elim epelek" təkərləməsi isə aşağıdakı kimidir:

*Elim elim epelek,*
*Elden çıktı kepenek.*
*Kepeneğin ucu yok.*
*Süleymenın saçı yok.*
*Bindim deve boyuna,*
*Sürdüm Halep yoluna.*

*Halep yolu sambazar,*
*İçinde ayı gezer.*
*Ayı beni korkuttu,*
*Yüreğimi burkuttu (119, 46).*

Bəzi variantlarda isə "epenek" yerinə "epelek" işləndiyini görürük:

*El el epelek,*
*Elden çıkan topalak,*
*Topalağın yarısı,*
*Bit pirenin karısı.*
*Bindim deve boynuna,*
*İndim Halep yoluna,*
*Halep yolu taşpazar,*
*İçinde maymun gezer,*
*Maymun beni korkuttu,*
*Kulağını sarkıttı.*
*Adel, budel,*
*Sil bunu, süpür bunu,*
*Çek bunu, çıkar bunu (177, 1)*

Hətta yuxarıda verdiyimiz variantın da öz içində müxtəlif variantlarına rast gəlmək mümkündür:

***I variant:***
*Elim elim epelek,*
*Elden çıkan topalak.*
*Topalağın yavrusu,*
*Bit pirenin karısı.*
*Bindim deve boynuna,*
*Çıktım Halep yoluna.*
*Halep yolu bitpazarı,*
*İçinde ayı gezer,*

*Kulağını sarkıttı.*
*Adel, buel,*
*Sil bunu, süpür bunu,*
*Çek bunu, çıkar bunu (68, 54).*

***II varant:***
*Elim elim epelek,*
*Elden çıkan topalak.*
*Yedi koyun derisi,*
*İi il ılgıdı.*
*Ilgıdıdan kalgıdı.*
*Şu oturan kuş mudur?*
*Kanadı gümüş müdür?*
*Çek şunu, çıkar şunu,*
*Kazanalım oyunu (68, 54).*

***III variant:***
*El el epelek,*
*Elden çıkan kepenek.*
*Kepeneğin yarısı,*
*Sarı kızın sarısı.*
*Bindim gittim kulağına,*
*Kulağında bir arı,*
*Arı beni korkuttu,*
*Kulağımı sarkıttı.*
*Alla gitsin, pulla gitsin,*
*Çek şunun birisini (68, 54).*

***IV variant:***
*El el epelek,*
*Sırtındadır kepenek.*
*Kepeneğin yavrusu,*
*Bit bitenin karısı.*

*İniştendir, yokuştan,*

*On parmağı gümüşten,*
*Horoz senin e-niş-ten (68, 54).*

Anadolunun cənub bölgələrində isə daha çox aşağıdakı varianta rast gəlinir:

***V variant:***
*El el epelek,*
*Elim kolum topalak.*
*Topalağın yarısı,*
*Bitbitinin kurusu.*
*İndim Halep yoluna,*
*Halep yolu bin Pazar.*
*İçinde maymun gezer,*
*Maymun beni korkuttu,*
*Kulağımı sarkıttı.*
*Ak boncuk kara boncuk,*
*Sen bu oyundan çık (68, 55).*

***VI variant:***
*Elim elim epelek,*
*Elim kolum topalak.*
*Topalağın yarısı,*
*Bitbidinin kurusu (68, 55).*

***VII variant:***
*Elim elim epenek,*
*Elden çıkan kepenek.*
*Kepeneğin yarısı,*
*Bitbitenin karısı.*
*Elma verdim almadı,*

*Sakız verdim çiğnedi.*
*Çek bunu, çıkar şunu (68, 55).*
***VIII variant (Ege bölgəsinə aiddir):***
*El el ebildek,*
*Ebildeğin yarısı,*
*Kara koyun derisi.*
*Annem pilav pişirmiş,*
*İçine sıçan kaçırmış.*
*Vallahi yemem,*
*Billahi yemem.*
*O sıçanı napmalı?*
*Minareden atmalı.*
*Minarede kuş var,*
*Kanadında gümüş var.*
*Eniştemin cebinde,*
*Türlü türlü yemiş var (68, 55).*

***IX variant:***
*Elim elim epenek,*
*Elden çıkan kepenek.*
*Kepeneğin yarısı,*
*Bitbitinin karısı.*
*A deli, bu deli,*
*Sen dur, sen çık (68, 55).*

***X variant:***
*El el epenek,*
*Elden düşen kepenek.*
*Kepeneğin yarısı,*
*Keloğlanın karısı (68, 55).*

Bu təkərləmələrin bir başqa variantı Kaysəri vilayətində oynaılan "Elim elim öpelek" oyununda görülür. Qış gecələri

sobanın ətrafına yığılan oğlan və qız uşaqları tərəfindən icra edilir. Bir neçə uşaq döşəməyə oturub iki əllini yerə qoyur. Sadəcə əbə olan bir əlini yerə qoyur , digər əli ilə oyunçuları işarə ilə göstərərək aşağıdakı təkərləməyi söyləyir:

*Elim elim öpelek,*
*Elden çıhan topalah.*
*Topalağın yavrısı,*
*Bit bidenin garısı.*
*Bindim deve boynuna,*
*Gittim Halep yoluna.*
*Halep yolu Şam Pazar,*
*İçinde ayı gezer.*
*Ayı beni gorhuttu,*
*Kulaklarım sarkıttı.*
*Adem budem,*
*Sil bunu,*
*Süpür bunu.*
*Çek bunu,*
*Çıkar bunu.*

Bu təkərləmənin ən son kəliməsi kimdə qurtarsa, oyundan çıxarılır. Bu şəkildə davam edən oyunda təkrar edilən təkərləmə ilə bütün oyunçular oyundan çıxmış olur. Sona qalan bir nəfər oyunçu əbə olan oyunçu ilə qarşılıqlı oyuna davam edir. Bu dəfə əbə boş əli ilə axırıncı oyunçunun bir alnına, bir də əlinə vuraraq bu təkərləməni söyləyir:

*Damdan düştüm*
*Vay başım,*
*Gızlar benim taydaşım.*
*Gızlar ere gederse,*

*Vay benim*
*Qarip başım.*

Bu şəkildə oyun bitər və oyunçular istərlərsə yenidən təkrar o oyuna başlayarlar (115, 81-82).

***-"Üşüdüm ha üşüdüm" təkərləməsi:*** Azərbaycan və

Anadolu folklorunda müxtəlif variantları olan maraqlı uşaq düzgülərindən biri də "Üşüdüm ha üşüdüm"dür. Bu düzgünün hətta Anadolunun bəzi bölgələrində uşaq oyunu kimi icra edildiyi məlumdur. "Üşüdüm ha üşüdüm" düzgüsü araşdırılarkən hər iki bölgəyə aid maraqlı variantların mövcüdluğu diqqəti çəkir.

Azərbaycan variantları
Şəki bölgəsinə xas variantı:
*Üşüdüm, ha üşüdüm,*
*Dağdan alma daşıdım.*
*Almalarımı aldılar,*
*Məni zulma saldılar,*
*Mən zulumdan bezaram,*
*Dərin quyu qazaram.*
*Dərin quyu beş keçi,*
*Hanı bunun erkəgi?*
*Erkək qaya başında,*
*Qayanın ağ daşında,*
*Hay elədim gəlmədi,*
*Çiriş verdim yemədi,*
*Çiriş qazanda qaynar,*
*Qəmbər bağçada onar,*
*Qəmbər getdi oduna,*
*Qarğı batdı buduna,*
*Qarğı dimə, qamışdı,*
*Baş barmağı gümüşdü,*
*Gümüşü verdim tata,*

*İstədi ucuz sata,*
*Tat mənə darı verdi,*
*Rəngini sarı verdi,*
*Darını səptim daşa,*
*Qurutdum atdım quşa,*
*Quş mənə qanad verdi,*
*Elə bildim at verdi,*
*Qanadlandım uçmağa,*
*Haqq qapısın açmağa,*
*Haqq qapısı kilidli,*
*Üstü birəli, bitli,*
*Kilid baba elində,*
*Baba İran yolunda,*
*İran yolu dərbədər,*
*Üstündə meymun gəzər,*
*Meymunun balaları,*
*Tutubdu qalaları,*
*Qalada hey ağladı,*
*Ürəyimi dağladı,*
*Ürəyim oldu bumbuz,*
*Banladı iki xoruz,*
*İki xoruz savaşdı,*
*Biri qana bulaşdı,*
*Qan getdi, çaya düşdü,*
*Çaydan göyərçin uşdu,*
*Göyərçin Alapaça,*
*İstədi qanad aça,*
*Onu vurdu bəy oğlu,*
*Zalım oğlu, zay oğlu,*
*Ürəyi, qəlbi taxta,*
*Qan qusdu laxta-laxta,*
*Çörəyimiz təndirdə,*
*Dirəyimiz kəndirdə,*

*Kəndirimiz boxçada,*
*Təndirimiz bağçada,*
*Baxçalarımız axçada,*
*Boxçalarımız taxçada,*
*Axçalarımız cibdədi,*
*Taxşalarımız dibdədi.*
*Cibdə yekə bir deşik,*
*Dibdə iki şir, pişik.*
*Deşiyi bağladılar,*
*Pişiyi dağladılar.*
*Bağlanan şey ilandı,*
*Dağlanan şey yalandı.*
*İlanlar ipə döndü,*
*Yalanlar sapa döndü.*
*İpi belə bağladım,*
*Sapım itdi, ağladım.*
*Beldə kəmər qızıldı,*
*Adım aya yazıldı,*
*Qızıl-mızıl deməkdən,*
*Yalan-palan yeməkdən,*
*Ağzıma qıfıl vurdum,*
*Diyin kimləri yordun? (28, 388-389).*

Naxçıvan bölgəsinə xas variantı:
*Üşüdüm ha üşüdüm,*
*O kişi mənim dostumdu,*
*Getdi Gilana gəlmədi,*
*Yaylığım aldı vermədi,*
*Yaylığımın ucu qara,*
*Yolladım heykəl yara,*
*Heykəl yarı öldürəllər,*
*Ağbalaya geydirəllər,*
*Ağbalanın saçağı,*

*Gümüşdəndi bıçağı,*
*Vırdım sandıx açıldı,*
*İnci mərcan seçildi,*
*İnci mərcan filfili,*
*Gəl oxu bizim dili,*
*Bizim dil urmu dili,*
*Urmudan gələn atdar,*
*Heyva dənəsin çırtdar,*
*Heyvanı ötürəydim,*
*Nəzərə yetirəydim,*
*Nəzərin qız-gəlini,*
*Şahmara yetirəydim,*
*Şahım Şirvan içində,*
*Qılıncı qan içində,*
*Ağ atın ağaşdarı,*
*Bar gətirməz başdarı,*
*Yel topun olsun qardaş,*
*Gül topun olsun qardaş (26, 447-448).*

Şəki-Zaqatala bölgəsinə xas variantı:
*Üşüdüm, ay, üşüdüm,*
*Dağdan alama düşürdüm.*
*Almaları yedilər,*
*Mənə zulum eylədilər.*
*Dərd əlindən bezaram,*
*Dərin quyu qazaram.*
*Dərin quyu, beş keçi,*
*Hanı onun örkeci?*
*Örkec qaya başında,*
*Hay elədim, gəlmədi,*
*Çüyüd verdim, yemədi.*
*Çüyüd qazanda qaynar,*
*Qəmbər bucaqda oynar.*

*Qəmbər getdi oduna,*
*Qargı batdı buduna.*
*Qarğı deyli, qamışdı,*
*Beş barmağı gümüşdü.*
*Gümüşü verdim tata,*
*Tat mənə darı verdi.*
*Darını verdim quşa,*
*Quş mənə qanad verdi.*
*Qanadlandım uçmağa,*
*Haq qapısın açmağa,*
*Kəlamı oxumağa (30, 144).*

Güney Azərbaycana xas variantı:
*Üşüdüm, ay üşüdüm,*
*Dağdan alma daşıdım.*
*Almacığım aldılar,*
*Mənə curum vurdular.*
*Mən curumdan bezaram.*
*Dərin quyu qazaram,*
*Dərin quyu beş keci,*
*Beşi də ərkək keci,*
*Ərkək qazanda qaynar,*
*Qənbər yanında oynar.*
*Qənbər getdi oduna,*
*Qarqı batdı bıdına.*
*Qarqı deyil, qəmişdi,*
*Beşbarmağı gümüşdü.*
*Gümüşü verdim tata,*
*Tat mənə darı verdi.*
*Darını səpdim quşa,*
*Quş mənə qənət verdi.*
*Qənət çaldım uçmağa,*
*Haq qapısın açmağa,*

*Haq qapısı kiliti,*
*Kilidi dəvə boynunda.*
*Babam Gilan yolunda,*
*Gilan yolu sərbəsər,*
*İçində ahu gəzər (57, 23-24).*

Bu düzgünün Ağdaş və Naxçıvan variantları da demək olar ki, eynidir. Sadəcə sonluqlarında bəzi fərqlər vardır;

Ağdaş variantı:
*Üşüdüm, a, üşüdüm,*
*Dağdan alma daşıdım.*
*................................,*
*Hak qapısın açmağa,*
*Qapıçı qapı toxuyur,*
*İçində bülbül oxuyur.*
*Mənnən kiçih qardaşım,*
*Allahın kəlamın oxuyur (12, 461-462).*

Naxçıvan variantı:
*Üşüdüm ha, üşüdüm,*
*Dağdan alma daşıdım.*
*.................................,*
*Haqq qapısın açmağa,*
*Qapıçı qapı toxur,*
*İçində bülbül toxur (27, 287-288).*
Anadolu variantları:

Anadolunun Niğdə vilayətində Qış mövsümündə uşaqlar üşüdükləri zaman "Üşüdüm-Üşüdüm" oyununu oynayaraq, bu oyunun eyni adlı təkərləməsini söylərlər. Anadolunun Niğdə bölgəsinə xas bu təkərləmə aşağıdakı kimidir:

*Üşüdüm, üşüdüm,*
*Dağdan armud düşürdüm.*
*Armudumu yemişler,*
*Çöpünü bana goymuşlar.*
*Çöpünü çobana verdim,*
*Çoban baa ğuzu verdi.*
*Ğuzuyu çerciye verdim,*
*Çerçi baa boncuh verdi,*
*Boncuğu ğıza verdim...(115, 131)*

"Üşüdüm, Üşüdüm" təkrarlamasinin yer aldığı eyni adlı oyunun bir başqa variantı isə Anadolunun Kayseri vilayətində uşaqlar tərəfindən icra edilir. Oyunçular iki qruba ayrılırlar. Hər iki qrubun oyunçuları qol-qola girərək növbə ilə bir-birlərinə aşağıdakı təkrarlamanı söylərlər:

***I qrup:***
*-Üşüdüm üşüdüm,*
*Ameli-de beim üşüdüm.*
***II qrup:***
*-Kürkünü giy,*
*-Kürkünü giy.*
***Iqrup:***
*-Kürküm yok,*
*-Kürküm yok.*
***II qrup:***
*-Çarşıdan al,*
*-Çarşıdan al.*
***Iqrup:***
*-Parem yok,*
*-Parem yok.*
***II qrup:***
*-Çal-da al,*

*-Ameli-de beim,*
*-Çal-da al.*
***I qrup:***
*-Nerden nereden?*
*-Ameli-de beim nereden?*
***II qrup:***
*-Saraydan, saraydan.*
*-Ameli-de beim saraydan.*
***I qrup:***
*-Asallar, keserler,*
*-En güzelini seçerler.*

Ən son təkərləməni söyləyən qrup rəqib qrupdan ən gözəl olan oyunçunu seçər. Bu səfər də təkərləməni rəqib qrubun oyunçuları söylər və təkərləmə bitəndə o biri qrubun ən yaxşı oyunçusunu seçər, oyun bu şəkildə davam edər (115, 91-92).

Anadolunun Kars vilayətinə xas “Üşüdüm-Üşüdüm” təkərləməsi isə digərlərindən seçilir:

*Üşüdüm, üşüdüm,*
*Dağdan alma döşürdüm.*
*Almacığım aldılar,*
*Beni yola saldılar.*
*Yolda gidirken bir darah buldum,*
*Darağı neniye verdim,*
*Nene behen, bir kete verdi.*
*Keteyi çobana verdim,*
*Çoban behen bir goyun verdi.*
*Goyunu bege verdim,*
*Beg behen bir at verdi.*
*Atı bindim getdim gara suya,*
*Gara sudan gannar axir,*
*İki dilber behen baxir,*

*Böyügüne selam verdim,*

*Küçügüni aldım gaşdım,*
*Küçügüne aşığ oldum.*
*(116, 67, 174)*

"Üşüdüm-Üşüdüm" təkərləməsinin Anadolunun demək olar ki, bir çox bolgəsində daha çox yayılmış olan variantı isə aşağıdakı kimidir:

*Üşüdüm üşüdüm,*
*Daldan elma düşürdüm.*
*Elmamı yediler,*
*Bana cüce dediler.*
*Cücelikten çıktım,*
*Ablama çıktım.*
*Ablam pilav pişirmiş,*
*İçine fare kaçırmış.*
*Bu fareyi ne yapmalı?*
*Minareden atmalı.*
*Minarede kuş var,*
*Kanadında gümüş var.*
*Amcamın cebinde,*
*Türlü türlü yemiş var (195,5).*

***

*Üşüdüm üşüdüm,*
*Daldan elma düşürdüm.*
*Elmamı yediler,*
*Bana cüce dediler.*
*Cücelikten bezdim,*
*Bir kuyu kazdım.*
*İçinden yılan çıktı,*

*Yılanı kuşa verdim.*
*Kuş kanat verdi,*
*Kanadı yere çarptım.*
*Yer çim verdi,*
*Çimi koyuna verdim.*
*Koyun kuzu verdi,*
*Kuzuyu beylere verdim.*
*Beyler at verdi,*
*Atı bindim Karasu`ya gittim.*
*Karasu`da kanlar akar,*
*İki dilber bakar.*
*Birine selam verdim,*
*Küçüğü günler bakar (198, 1).*

Bir başqa variant isə aşağıdakı kimidir.:

*Üşü-düm, üşü-düm-daldan-elma-düşürdüm,*
*El-mamı-yedi-ler-bana-cüce-dedi-ler.*
*Cüce-likten-çık-tım-Beyoğ-luna-git-tim,*
*Bey-oğlu-has-ta-çor-bası-tas-ta.*
*Püs-külü-ma-vi-ina-dına-ka-vi,*
*Gel-çık-bal-çık-ben-çık-tım (198, 2).*

## 3.YANILTMACLAR

Yanıltmaclar uşaqların ən çox söylədikləri, oyun kimi istifadə etdikləri folklor janrıdır. Anadolu folklorunda "şaşdırmaca", "yanıltmaca", "yanıltmaç", "tekerleme" adı verilən yanıltmacları uşaqlar ya icra etdikləri oyunlar zamanı söyləyirlər, ya da sadəcə yanıltmac deməyi oyun şəklində həyata keçirirlər. Yanıltmac söyləməkdə əsas məqsəd bir-birinə bənzər səslərdən əmələ gələn sözləri düzgün və çaşmadan cəld deməkdir. Bu da öz növbəsində həm uşaqların nitqini inkişaf etdirməklə yanaşı,

oyun şəklində icra edildiyi üçün düzgün söylənmədiyi zaman uşaqların gülüb əylənməsinə və yaxşı vaxt keçirməsinə kömək edir.

**Vırvırcı Vedia ile vıdı vıdıcı Veli velinimeti vatman Vahit`e vilâyette veda edip Vefâ`ya doğru vaveylâsız, velevasız velespitle volta vururlarken voleybolcu Vatran virtüöz Vicdanî ve Viranşehirli vatansever viyolonselist Vecibe ile karşılaştılar (197, 8).*

**-Y-**

**Yalancıoğlu yalıncık yayladığının yahnisini yağsız yiyebilirse de yayladığının yağlı yoğurdundan, Yüksekova΄nın yusyumru yumurta yumurtlayan tavuklarından, bir de yörük ayranıyla yufkasından asla vazgeçemez (197, 9).*
**Yağmur yağarsa raylar ıslanır, yağmur yağar saraylar ulanır (122, 1508).*

**-Z-**

**Zaman saman satar, saman zaman satar (167, 220).*
**Zonguldaklı Zaloğlu Zöhre΄nin kızı Zühal zibidi Zeki΄ye ziyafet zerketti (197, 8).*

## 4.Mərasim təkrarləmələri ilə zəngin *“Axrət ana” oyunu*

Uşaqların və böyüklərin öz aralarında müxtəlif yığıncaq və mərasimlərdə icra etdikləri elə oyunlar var ki, onlar təkərləmələrlə zəngindir və demək olar ki, təkərləmələr oyunun əsasını təşkil edir. Belə oyunlara Anadolunun Təkirdağ bölgəsində qadınların öz aralarında nişanlarda və müxtəlif yığıncaqlarda icra etdikləri “Axrət ana”, “Oyna Patiş”, “Osmanın Naciyəsi”, “Əhmədim”, “Toppuz”, “Üzük saxlamaca”, “Ana məni eversənə” və b. nümunə göstərmək olar (95, 23-39). Bu oyunlar sadəcə təkərləmələrlə deyil, eyni zamanda mani və türkülərlə də çox zəngindir.

Gənc qızların qılıq dəyişdirərək gəlin qız, qaxcı (qax satan), şərabcı (şərab satan) və xoca, yaşlı bir qadının isə Axrət ana rolunda oynadıqları **“Axrət ana”** tamaşası qax (meyvə qurusu) satanın, şərab satanın və xocanın Axrət anadan qızını istəməyinə həsr olunmuşdur. Ümumiyyətlə Anadoluda işlədilən axrət ana, axrət bacısı, gəlinin axrəti, axrət budağındakı axrət sözü axirət kəlməsinin xalq ağzındakı formasıdır. Axirət “ölümdən sonra gediləcək olan aləm, o bir dünya, bəka aləmi” mənasında işlədilən ərəbcə bir sözdür. Anadolu kəndlərində qızlar özləri üçün axrət, axrət anası, axrət bacısı seçmələri ənənəvi adətlərdən biridir. Azərbaycanda siğə bacı olmaq da axirətlikdir. Bu adətin əsası dini inanclara dayanır. Belə ki, bu dünyada bacısı və ya anası qədər çox sevilən birini axirət bacısı və ya axirət anası seçilməyi də axirətdə həmin insanlarla bərabər olma təmənnası ilə seçən insanın onların mənəvi bacılığını və ya analığını qəbul etməsidir. Bu dini inancın izi də məhz elə “Axrət ana” tamaşasında öz əksini tapmışdır.

Oyunda gəlin qız, Axrət ana, qaxçı, şərabçı və xoca iştirak edir. Axrət ananı yaşlı bir kənd qadını, qaxçını kişi qılığına girmiş, əlində səbəti olan bir qız, şərabçıyı kişi paltarı geyinmiş

və əlində şərab şüşəsi olan bir qız, xocanı (mollanı) qoca cildinə girmiş, əlində təsbeh olan bir qız canlandırır.

Gəlin ortada bir stul üstünə oturur, gəlinin başına duvaq qoyularaq üzü örtülür. Bundan sonra, Axrət ana gəlinin ətrafında dönərək ətrafı süpürür. Həmin vaxt çöldən qapı döyülür. Qaxçı əlində səbət içəri girir. Axrət anaya hiss elətdirmədən ətrafında dolanır.

Qaxçı:

- Qaxçı gəldi, qaxçııı
Qaxçı gəldi, qaxçııı...
Alana sataram,
Almayanı döyərəm.
Armud qurusundandır
Çox yaxşıdır bizim qaxlar,
Həm də ucuza satıram, -
deyər və Axrət ananın önünə keçər.

Qaxçı:

- Axrət ana, Axrət ana,
Qızını versənə mənə.

Axrət ana:

- Sənin kimi qax satana qız verməram, -

deyir. Bunu eşidən qaxçı gəlinin üzünü açmağa çalışır, gəlinin ayağına bilərək ilişir.

Qaxçı:

- Axrət ana, Axrət ana,
Baxsana bu qızına.
Qızın mənə göz edir,
Qızın məni al deyir.

Axrət ana süpürgəni yerə atıb əlini belinə qoyur və qaxçıya bozarmağa başlayır.

Axrət ana:

- O qaş-göz hərəkəti eləməz,
Mənim qızım tərbiyəli qızdır.

Nə qaş etdiyi var, nə göz,
Mənim qızıma etmə söz.

Qaxçı:

- Axrət ana, Axrət ana,

Qıznı versənə mənə.
Mənim kimi kürəkəni harda tapassan, -
deyər və qızın yanına yaxınlaşaraq mani söylər.

Qaxçı:

- Baxçalarda pırasa,

Yarpağına qar yağsa.
Bu gün dəllal bağırsa,
Hər kəs sevdiyin alsa.

Bu maniyə Axrət ana belə cavab verir.

Axrət ana:

- Qərənfilim üç çatal,

Üçü də pəmbə açar.
Gecə çuvalda yatar,
Gündüz fiyaka satar, -

deyən Axrət ana qaxçını qovalamağa başlayır.

Axrət ana:

- Səni yaramaz, həddini bilməz, cəhənnəm ol get qızımın yanından,

deyərək süpürməyə davam edir. Yenə çöldən qapı döyülür, şərabçı əlində şərab sağa-sola aşa-aşa gəlib türkü söyləyir.

Şərabçı:

- Alaca corab, mavi corab,

Budur rakı, budur şərab.

Şərabı ağzına dayayaraq içir, o anda qızı görür və səssizcə Axrət ananın arxasından gələrək önünü kəsir.

Şərabçı:

- Axrət ana, Axrət ana,

Yeddi dana.
Qızını versənə mənə.

Axrət ana süpürməyi buraxıb şərabçıya hirslənir.

Axrət ana:

- Sənin kimi ayaqda dura bilməyən sərxoşa mən qızımı vermərəm, alıb boşayarsan, sonra nələr olar görəsən?

Axrət ana süpürməyə davam edir. Şərabçı da türkü söyləməyə başlayır.

Şərabçı:

- Alaca corab, mavi corab,
Budur rakı, budur şərab.
Arpa əkdim əvlək-əvlək,
Gəldi qondu ata leylək.
Ata leylək uçdu qaz qaldı,
Qız, qovuşmamıza az qaldı.

Axrət ana:

- Boşuna dolaşma buralarda, sərxoşa qız verməm mən. Şərabçı gəlinin üzünü açmağa çalışır, ayağına ilişir.
Şərabçı:
- Axrət ana, Axrət ana,
Baxsana bu qızına.
Qızın mənə göz vurur,
Qızın məni al deyir.

Axrət ana süpürməyi buraxıb şərabçıya hirslənir.

Axrət ana:

- O qaş-göz hərəkəti eləməz,
Mənim qızım tərbiyəli qızdır.
Nə qaş etdiyi var, nə göz,
Mənim qızıma etmə söz.

Şərabçı:

- Axrət ana, Axrət ana,
Dəli dana.
Qızını versənə mənə.

Şərabçı qıza yaxınlaşaraq mani söyləyir.

Şərabçı:

- Ev önündə quyumuz,
İncə axar suyumuz.
Sevib sevib ayrılmaq,
Yoxdur belə huyumuz.

Axrət ana:

- Tarlası ayrıqlıya,
Mən qız verməm sərxoşa.
Allah qismət edərsə,
Boynu kalistukluya.

Axrət ana süpürgəylə şərabçını qovur. Çöldən qapı döyülür. Xoca əlində təsbehi ramazan manisi söyləyərək girir içəri.

Xoca:

- Budur gəldim qapınıza,
Bir daş atdım başınıza.
Səlamün əleyküm deyərək,
Salam verdim hamınıza.

Manisini bitirən Xoca ətrafına baxır, qızı görür. Axrət ananın arxasından dolanıb durur.

Xoca:

- Axrətlik ax, qızını versənə mənə,
Axrət ana qıznı istiyirəm ha.
Sən tam mənə görəsən amma,
Amma sən yenə də qızını ver mənə.

Axrət ana:

- Sənin kimi qozbel saqqallıya qız verməm mən,
var get tayını axtar.
Xoca gəlin qızın duvağını açmağa çalışır.
Xoca:

- Axrətlik, ay axrətlik,
Baxsana bu qızına.
Qızın mənə göz edir,
Qızın məni al deyir.

Axrət ana:
- O qaş-göz hərəkəti eləməz,
Mənim qızım yavaş qızdır.
Nə qaş etdiyi var, nə göz,
Mənim qızıma etmə söz.

Xoca:
- Axrətlik ah, etmə naz,
Yetər bu qədər niyaz.
Ver mənə qızını,
Olsun bitsin, yetər bu qədər naz.

Xoca qıza yaxınlaşaraq mani söyləyir:
- Mavilimsin Maşallah,
Sən mənimsən inşallah.
Qovuşmadıq yar olmaz,
Qovuşarıq inşallah.

Axrət ana:
- Sıra sıra bacılar,
Budur gəldi xocalar.
Xocaların qarnı ac,
İki dilim bir qulac.

Axrət ana xocanı süpürgə ilə qovur. Biraz sonra təkrar qaxçı gəlir.

Qaxçı:
- Qaxçı gəldi, qaxçııı
Qaxçı gəldi, qaxçııı...
Alana sataram,
Almayanı döyərəm.
Armud qurusundandır,
Çox yaxşıdır bizim qaxlar,
Həm də ucuza satıram.

Qaxçı Axrət ananın ətrafına gəzinərək ondan qızını istəməyə davam edir:
- Axrət ana, Axrət ana,

Yeddi dana.
Qızını versənə mənə,
Qızını verməsən mənə,
Gedəcək bir şərabçıya.
Mənim kimisin tapamazsan.

Axrət ana qaxçını qovaraq deyinməyə başlayır:

- Nə sənə, nə xocaya, nə də şərabçıya verəcəm qız yox, sənin kimi on qəpiklik qaxçıya qız verərəm heç?

Elə bu zaman şərabçı gəlib Axrət anadan qızını istəyir:

- Axrət ana, Axrət ana,
Dəli dana.
Qızını ver mənə,
Verməsən qaçıracam onu.

Axrət ana:

- Sənin kimi ayaqda dura bilməyən sərxoşa qız verməm.

Şərabçı:

- Axrət ana, qızını ver mənə,
Məndə çox rahat edəcək.
Bir əli yağda, bir əli balda olacaq,
Verməzsən qızın mənlə qaçacaq.

Axrət ana:

- Qaçmaz mənim qızım, ağıllı qızdır, sənə qız verməm, həm söyər, həm döyərsən, cəhənnəm ol get burdan.

Şərabçı:

- Verməzsən vermə, məndən günah getdi.

Axrət ana süpürməyə davam edərkən şərabçı ilə qız qoşulub qaçırlar. Bir müddət keçəndən sonra Axrət ana qızının qaçdığını başa düşür. Oturub ağlamağa başlayır. Xoca təlaşla gəlir.

Xoca:- Axrətlik niyə ağlıyırsan? Qızın qoşulub qaçmış, sənə demədimmi? Şərabçı qaçıracaq qızını dedim, inanmadın. Gördün, gediblər, ağlayıb da geri gətirəssən?

Bu vaxt şərabçı ilə qız gəlir.

Xoca:

- Axrətlik sil göz yaşını, bax qızın gəldi, tanıdınmı?

Axrət ana gözlərini ovuşdurur, qızını tanımaz.

Axrət ana:

- Bu mənim qızım deyil, mənim qızımın yanağında xalı vardı. Bunda yox.

Xoca:

- Axrətlik bəsdir ağladın, sil göz yaşını, yaxşı bax, bu sənin qızın.

Axrət ana təkrar gözlərini ovuşdurur.

Axrət ana:

- Ta indi tanıya bildim. Ah qızım məni qoyub hara getdin, bəs heç məni tək qoymayacaqdın?

Gəlin qız mani söyləyərək anasına cavab verir:

- Qulağımda sırğalar,  
Qızıl deyil, parıldamaz.  
Ver ana istədiyimə,  
Özü yıxılan ağlamaz.

Gəlin qız:

- Mən həmişə səninləmi yaşıyacam ana?

Axrət ana:

- Masa üstündə darı,  
Nə darladın ananı.  
Ankaradan tel gəldi,  
Sərxoşlara yox qarı.

Şərabçı:

- Tarlalar cızıq-cızıq,  
İçləri kotan izi.  
Söylə yarım, anana,  
Evləndirsin ikimizi.

Gəlin qız:

- Dərə boyu nanə,

Nə deyirsən, ay ana.
İlk yarıma vermədin,
Bundan ayrılmam, ana.

Xoca:

- Bəsdir artıq küsmə, olacağa çarə yoxdur, sən bu işə hə de, olub bitsin.

Axrət ana:

- Sərxoşdan ər olmaz, amma nə edək, qismətdə sərxoşa qız vermək də varmış.

Xoca:

- Gəlin görək, nikah mərasimi edək.

Şərabçı ilə qız gəlir.

Xoca:

- Eşşəyə mindinmi?

Şərabçı:

- Mindim.

Xoca:

- Sən bu qızı aldınmı?

Şərabçı:

- Aldım.

Xoca:

- Qızım, sən eşşəyə mindinmi?

Gəlin qız:

- Mindim.

Xoca:

- Sən bu oğlana getdinmi?

Gəlin qız:

- Getdim.

Xoca:

- Şərabçı sən bu qızı aldın, anası da mənə qaldı.

Xoca Axrət anaya tərəf dönüb deyir:

Sarı gülüm saralsın,
Saralıb da solarsan.

Mənə yar çox amma,
İstərəm sən olasan.

Axrət ana:

- Testini doldurdunmu?
Gələrkən yoruldunmu?
Mən sənə baba deyərkən,
Sən mənə vuruldunmu?

Xoca:

- Ev altı boyunduruq,
Bağırdaqda yorulduq.
Yağ olmasa, bal olsun,
Qoca nənə sağ olsun.

Xoca Axrət anaya dönərək soruşur:

- Eşşəyə mindinmi?

Axrət ana:

- Mindim...

Xoca:

- Sən mənə gələrsən?

Axrət ana:

- Nə edək, yalnız qalmaqdansa, gələrəm sənə. Nə etməli bu qoca yaşımda qismət də çıxdı mənə.

Şərabçı:

- Belə-belə işlər, oyun da burda bitdi, deyərək oyunu bitirir (95, s.23-30).

# NƏTİCƏ

“Azərbaycan və Anadolu foklorunda təkərləmələr” mövzulu tədqiqatımızda verilən təkərləmə nümunələri antologiyalar, kitablar, dissertasiyalar, dövri nəşrlər, məqalələr, toplama və simpozium materiallarından ibarət qaynaqların incələnməsi yolu ilə gerçəkləşdirilmişdir. Tədqiqat işi “Təkərləmələrin nağılda və oyun-tamaşa kompozisiyasında yeri; tipoloji təsnifatı”, “Təkərləmə çeşidlər və nümunələri”olmaqla iki fəsildən ibarətdir.

Tədqiqat işinin I fəsli “Təkərləmələrin nağılda və oyun--tamaşa kompozisiyasında yeri; tipoloji təsnifatı”ndan ibarətdir. Bu fəsildə öncəliklə təkərləmə sözünün geniş izahı verildikdən sonra nağılın başında, ortasında və sonunda olan “nağıl təkərləmələri”izah edilərək Azərbaycan və Anadoluda bənzər nümunələri göstərilmişdir. Həmçinin birinci fəsildə uşaqlar və böyüklər tərəfindən icra edilən oyunlarda yer, zaman və mövzusuna görə söylənən təkərləmələr nümunələr göstərilmək şərtilə əsasən aşağıdakı kimi təsnif edilmişdir:

1.Günlük əyləncə-oyun təkərləmələri:

a) Oyun başı təkərləmələri;

- Oyunçuları oyuna çağırma təkərləmələri
- Oyunçu seçimi təkərləmələri

b) Oyun içi təkərləmələri;

- Təkrarlanan təkərləmələr
- Təşviq edici təkərləmələr
- Acıtma, öcəşmə, dolama tipli təkərləmələr
- Yanıltmac təkərləmələr

c) Oyun sonu təkərləmələri

2.Mərasim təkərləmələri;

- Yağışı yağdırma mərasimi təkərləmələri
- Günəşi çağırma mərasimi təkərləmələri
- Yeli-küləyi çağırma mərasimi təkərləmələri
- Saya mərasimi təkərləmələri

- Bayram mərasimi təkərləmələri (*Xıdır, Novruz, Ramazan, Qurban mərasimi təkərləmələri*)
- Toy mərasimi təkərləmələri

Yuxarıda verilən təsnifatlara uyğun olaraq qruplaşdırılan təkərləmələrin Azərbaycan və Anadoluda bənzər nümunələri qarşılaşdırılaraq müqayisə edilmişdir. Bunun nəticəsində, hər iki bölgədə oynanılan bənzər oyunlarla bərabər bənzər təkərləmələrin də mövcudluğu məsələsinə aydınlıq gətirilmişdir. Təsnifatını apardığımız və müvafiq başlıqlar altında topladığımız təkərləmələr bir-birlərinə çox bənzərdir. Sadəcə Anadoluda "Oyunçuları oyuna çağırma təkərləmələri"nə nümunələr çox olduğu halda Azərbaycanda nümunə tapa bilmədik. Lakin bir çox şairlərin şeirlərində oyuna dəvətlə bağlı misraların olması və bəzi bölgələrimizdə qışda qar yağdığı zaman "Qara bax, qara" şeirini oxumaqla uşaqların bir-birlərini "Qar topu" oynamağa çağırmaları bizdə də vaxtilə bu tip təkərləmələrin olduğundan xəbər verir. Görünür toplanmadığı üçün itib batmışdır.

Təkərləmələrin əsas funksiyaları göstərildikdən sonra, mövzu baxımından zənginliyini daha dolğun çatdırmaq məqsədilə tədqiqatın birinci fəslində uşaq oyun təkərləmələri "Uşaq oyun təkərləmələrində rənglər", "Təkərləmələrdə dağ obrazı" kimi başlıqlar altında tədqiq edilmiş, Azərbaycan və Anadolu nümunələri müqayisəli şəkildə araşdırılmışdır. Araşdırmanın nəticəsində, Azərbaycan və Anadolu folklorunda olan təkərləmələrin sadəcə funksional baxımından deyil, eyni zamanda mövzu və məzmunca da bənzərlik göstərdiyi ortaya çıxmışdır.

Tədqiqatın ikinci fəsli olan "Təkərləmə çeşidləri və örnəkləri"ndə təkərləmələrin çeşidləri göstərilməklə yanaşı hər iki bölgəyə aid nümunələri də verilmişdir. Bu fəsildə təkərləmə çeşidləri olan "sanamalar", "düzgülər" və "yanıltmaclar" geniş şəkildə izah edilərək həm Azərbaycan, həm də Anadoluda bənzər nümunələri qarşılıqlı şəkildə müqayisə edilmişdir. Azərbay-

canda sanama, Anadoluda sayışmaca kimi bilinən təkərləmələrdən uşaqlara barmaqları, sayları və rəqəmləri öyrətmək üçün söylənən təkərləmə nümunələri göstərilmiş, eyni zamanda müxtəlif bölgələrdən toplanmış əbə seçimi təkərləmələri də bir yerə yığılmışdır. İkinci fəslində sanamalardan sonra düzgülər haqqında məlumat verilərək həm Azərbaycanda, həm də Anadoluda müxtəlif variantları olan, oyunlar zamanı və ya müstəqil şəkildə uşaqlar tərəfindən söylənib oyun şəklində icra edilən "Əl-əl əpənək" ilə "Üşüdüm ha üşüdüm" düzgüsü qarşılıqlı şəkildə müqayisə edilərək verilmişdir. Tədqiqatın bu fəslində Azərbaycan və Anadolunun müxtəlif bölgələrində geniş yayılmış, söyləməsi çətin olduğu halda bir o qədər də əyləncəli və maraqlı olan çaşdırıcı, uşaqlarda nitqin inkişafına əvəzsiz təsir göstərən yanıltmac təkərləmələrin bəzi nümunələri qarşılıqı şəkildə müqayisə edilmiş və yüzdən çox nümunə verilmişdir. Həmçinin tədqiqatın sonunda mərasim təkərləmələri, mani və türkülərlə zəngin olan "Axrət ana" oyunu Azərbaycan türkçəsinə axtarılaraq nümunə üçün verilmişdir.

Azərbaycan və Anadoluda oynanılan oyun və tamaşaların, icra edilən mərasimlərin, söylənən təkərləmələrin əsasən bənzər və eyni məntiq-məqsəd çevrəsində birləşməsi, oxşarlıqların fərqliliklərdən daha çox olması, həmçinin eyni nümunələrin müxtəlif versiya və variantlarının olması bizim genetik kodlarımızdan gələn, türk milləti olaraq eyni düşüncə, eyni dünyagörüşünə sahib olduğumuzun bir göstəricisidir.

# QAYNAQLAR

1. Ağayev Ə., Səmədov Y. Ümumtəhsil məktəblərində xalq oyun ənənələrindən istifadə (metodik vəsait). Bakı: Mütərcim, 2005, 152 s.
2. Arif M. Seçilmiş əsərləri, III c. Bakı: "Elm", 1970, 423 s.
3. Aslanov E. El-oba oyunu, xalq tamaşası. Bakı: İşıq, 1984, 275 s.
4. Azərbaycan dilinin izahlı lüğəti: 4 cilddə, I c. / Tərtibçilər Ə.Orucov, B.Abdullayev, N.Rəhimzadə. Bakı: Şərq-Qərb, 2006, 744 s.
5. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə, II c. / Tərtibçilər Ə.Orucov, B.Abdullayev, N.Rəhimzadə. Bakı: Şərq-Qərb, 2006, 792 s.
6. Azərbaycan dilinin izahlı lüğəti. 4 ciddə, III c. / Tərtibçilər Ə.Orucov, B.Abdullayev, N.Rəhimzadə. Bakı: Şərq-Qərb, 2006, 672 s.
7. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə, IV c. / Tərtibçilər Ə.Orucov, B.Abdullayev, N.Rəhimzadə. Bakı: Şərq-Qərb, 2006, 712 s.
8. Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə, I c. (Şifahi xalq ədəbiyyatı). Bakı: Elm, 2004, 760 s.
9. Azərbaycan folkloru antologiyası. 2 kitabda, I kitab / Tərtib edəni Ə.Axundov. Bakı: Azərbaycan EA Nəşriyyatı, 1968, 290 s.
10. Azərbaycan folkloru antologiyası. III kitab. Ağbaba folkloru / Toplayanı və tərtibçisi S.Ağbabalı. Bakı: Azərnəşr, 1997, 256 s.
11. Azərbaycan folkloru antologiyası. VIII kitab. Ağbaba folkloru / Toplayıb tərtib edənlər H.İsmayılov, T.Qurbanov. Bakı: Səda, 2003, 476 s.
12. Azərbaycan folkoru antologiyası. XVI kitab. Ağdaş folkloru / Toplayıb tərtib edən İ.Rüstəmzadə. Bakı: Səda, 2006, 496 s.

13. Azərbaycan folkloru antologiyası. Borçalı folkloru / Toplayanı V.Hacıyev. Tərtib edəni İ.Abbaslı. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1996, 258 s.
14. Azərbaycan folkloru antologiyası. XIV kitab. Dərbənd folkloru / Tərtib edənləri H.İsmayılov, T.Orucov. Bakı: Səda, 2006, 430 s.
15. Azərbaycan folkloru antologiyası. XVI kitab. Dərələyəz folkloru / Toplaynlar H.İsmayılov, S.Xudramiyeva. Tərtib edənlər H.İsmayılov, T.Orucov. Bakı: Səda, 2006, 474 s.
16. Azərbaycan folkloru antologiyası. IX kitab. Gəncəbasar folkloru / Tərtib edənlər H.İsmayılov, R.Quliyeva. Bakı: Səda, 2004, 522 s.
17. Azərbaycan folkloru antologiyası. III kitab. Göyçə folkloru / Toplayanı və tərtib edəni H.İsmayılov. Bakı: Nurlan, 2009, 684 s.
18. Azərbaycan folkloru antologiyası. X kitab. İrəvan çuxuru folkloru / Toplayıb tərtib edənlər H.İsmayılov, Ə.Ələkbərli. Bakı: Səda, 2004, 471 s.
19. Azərbaycan fokloru antologiyası. V kitab. Qarabağ folkloru / Toplayanlar İ.Abbaslı, T.Fərzəliyev, N.Nazim. Tərtib edəni İ.Abbaslı. Bakı: Səda, 2009, 414 s.
20. Azərbaycan folkloru antologiyası. VII cild. Qaraqoyunlu folkloru / Toplayanı və tərtib edəni Q.Süleymanov, H.İsmayılov. Bakı: Nurlan, 2000, 464 s.
21. Azərbaycan folkloru antologiyası. XXI kitab. Qazax folkloru / Toplayanı M.Həkimov. Tərtib edənlər R.Xəlilov, Ə.Ələkbərli. Bakı: Elm və təhsil, 2012, 376 s.
22. Azərbaycan folkloru antologiyası. XX kitab. Loru-Pəmbək folkloru / Toplayıb tərtib edənlər H.İsmayılov, Ə.Ələkbərli. Bakı: Nurlan, 2011, 399 s.
23. Azərbaycan folkloru antologiyası. XVII kitab. Muğan folkloru / Toplayanı B.Hüseynov. Tərtib edəni H.İsmayılov. Bakı: Nurlan, 2008, 447 s.

24. Azərbaycan folkloru antologiyası. Naxçınan fokloru. I cild / Toplayıb tərtib edənlər M.Cəfərli, R.Babayev. Naxçıvan: Əcəmi, 2010, 512 s.
25. Azərbaycan folkloru antologiyası. I kitab. Naxçıvan folkloru / Tərtib edənlər T.Fərzəliyev, M.Qasımlı. Bakı: Sabah, 1994, 388 s.
26. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru. III cild / Tərtib edənlər M.Cəfərli, R.Babayev. Naxçıvan: Əcəmi, 2012, 560 s.
27. Azərbaycan folkloru antologiyası. XXIII kitab. Naxçıvan örnəkləri. II cild / Toplayanı A.Cəfərova. Tərtib edənlər Ə.Ələkbərli, A.Cəfərova. Bakı: Elm və təhsil, 2012, 332 s.
28. Azərbaycan folkloru antologiyası. IV kitab. Şəki folkloru. I cild / Tərtib edənlər H.Əbdülhəlimov, R.Qafarlı, O.Əliyev, V.Aslan. Bakı: Səda, 2009, 490 s.
29. Azərbaycan folkloru antologiyası. VI kitab. Şəki folkloru. II cild / Toplayıb tərtib edən H.Əbdülhəmidov. Bakı: Səda, 2002, 556 s.
30. Azərbaycan folkloru antologiyası. XIII kitab. Şəki, Qəbələ, Oğuz, Qax, Zaqatala, Balakən folkloru / Tərtibçilər İ.Abbaslı, O.Əliyev, M.Abdullayeva. Bakı: Səda, 2005, 550 s.
31. Azərbaycan folkoru antologiyası. XI kitab. Şirvan folkloru / Toplayanı S.Qəniyev. Tərtib edənlər H.İsmayılov, S.Qəniyev. Bakı: Səda, 2005, 443 s..
32. Azərbaycann folkloru antologiyası. XII kitab. Zəngəzur folkloru / Toplayanı və tərtib edənləri V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər. Bakı: Səda, 2005, 464 s.
33. Azərbaycan folkloru ntologiyası. XIX kitab. Zəngəzur folkloru II C. / Tərtib edənlər: İsmayılov H., Təhməzoğlu R., Ələkbərli Ə.Bakı: Nurlan, 2009, 416 s.
34. Azərbaycan folkloru (Məktəblilər üçün seçmələr). Tərtib edəni B.Abdulla. Bakı: Şərq-Qərb, 2005, 360 s.

35. Azərbaycan xalq ədəbiyyatından seçmələr (Qaravəllilər, oyunlar və xalq tamaşaları). / Tərtib edənlər: İsmayılov H., Orucov T. Bakı: Şərq-Qərb, 2005
36. Azərbaycan şifahi xalq ədəbiyyatı. Tərtib edəni B.Abdulla. Bakı: Çaşıoğlu, 2004, 575 s.
37. Azərbaycan nağılları. 5 clddə, I cild / Toplayanlar Ə.Axundov, M.Təhmasib, N.Seyidov. Bakı: Çıraq, 2004, 376 s.
38. Azərbaycan nağılları. 5 cilddə, II cild / Toplayanlar Ə.Axundov, M.Təhmasib. Bakı: Çıraq, 2004, 352 s.
39. Azərbaycan nağılları. 5 cilddə, III cild / Toplayanlar Ə.Axundov, M.Təhmasib, N.Seyidov. Bakı: Çıraq, 2004, 352 s.
40. Azərbaycan nağılları. 5 cilddə, IV cild / Toplayanlar Ə.Axundov, M.Təhmasib, N.Seyidov. Bakı: Çıraq, 2004, 244 s.
41. Azərbaycan nağılları. 5 ciddə, V cild / Toplayanlar Ə.Axundov, M.Təhmasib, N.Seyidov. Bakı: Çıraq, 2004, 366 s.
42. Azərbaycan nağılları. 5 cilddə, I cild / Toplayıb tərtib edəni H.Zeynallı. Bakı: Şərq-Qərb, 2005, 360 s.
43. Azərbaycan nağılları. 5 cilddə, II cild / Tərtib edəni M.Təhmasib. Bakı: Şərq-Qərb, 2005, 296 s.
44. Azərbaycan nağılları. 5 cilddə, III cild / Tərtib edəni Ə.Axundov. Bakı: Şərq-Qərb, 2005, 296 s.
45. Azərbaycan nağılları. 5 cilddə, IV cild /Tərtib edəni Ə.Axundov. Bakı: Şərq-Qərb, 2005, 336 s.
46. Azərbaycan nağılları. 5 cilddə, V cild / Tərtib edəni N.Seyidov. Bakı: Şərq-Qərb, 2005, 304 s.
47. Azərbaycanca-Türkcə Türkcə-Azərbaycanca lüğət. Yayına hazırlayan M.Kamil Kırlı. Bakı: 2006, 428 s.
48. Bəydilli C. Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003, 418 s.

49. Borçalı folklor örnəkləri. I kitab / Toplayanı V.Hacılar. Tərtib edəni E.Məmmədli. Bakı: Elm və təhsil, 2013, 328 s.
50. El çələngi. Toplayıb tərtib edənləri T.Fərzəliyev, İ.Abbasov. Bakı: Gənclik, 1983, 388 s.
51. Ədəbiyyatşünaslıq terimləri lüğəti. Tərtib edəni Ə.Mirəhmədov. Bakı: Azərnəşr, 1965, 150 s.
52. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1992, 480 s.
53. Əliyev R. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: ADPU, 2012, 169 s.
54. Güney Azərbaycan folkloru. V kitab. Bakı: Elm və təhsil, 2015, 388 s.
55. Güney Azərbaycan folkloru. I kitab / Toplayanı Q.F.Məmmədli. Tərtib edəni S.Abbaslı. Bakı: Elm və təhsil, 2013, 456 s.
56. Güney Azərbaycan folkloru. VII kitab. Bakı: Elm və təhsil, 2018, 358 s.
57. Güney Azərbaycan folkloru. IV kitab. Bakı: Elm və təhsil, 2015, 388 s.
58. Hacıyeva M., Rıhtım M. Folklor və təsəvvüf ədəbiyyatı sözlüyü. Bakı: Nurlan nışriyyatı, 2009, 330 s.
59. Heyət C. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Azərnəşr, 1990, 165 s.
60. İsgəndərova V. Ənənəvi nağıl formulları (Azərbaycan və Türkiyə nümunələri əsasında). Bakı: Elm və Təhsil, 2014, s.202
61. Köçərli F. Balalara hədiyyə. Bakı: Gənclik, 2012, 75 s
62. Qafarlı R. Uşaq folklorunun janr sistemi və poetikası. Bakı: Elm və təhsil, 2013, 540 s.
63. Qarabağ Folkloru: Problemlər, Perspektivlər mövzusunda Respublika Elmi konfransının Materialları. / Tərtib edəni: Bayat F. Bakı: Folklor İnstitutu, 2012

64. Qasımov Ə. Azərbaycan xalq oyunları (Dissertasiya). Bakı: Azərbaycan Respublikası Bakı Dövlət Universiteti, 2003, 129 s.
65. Quba-Şabran folklor örnəkləri. I kitab. Bakı: Elm və təhsil, 2013, 328 s.
66. Masallı folklor örnəkləri. I kitab / Toplayıb tərtib edəni F.Bayat. Bakı: Elm və təhsil, 2013, 418 s.
67. Məmmədova T. Uşaq oyunları haqqında. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər IV kitab. Bakı: Elm, 1973, s. 164-172
68. Məmmədova M. Azərbaycan və Anadolu folklorunda oyun və tamaşalar. Bakı: Elm və Təhsil. 2014, 208 s.
69. Məmmdova M. “Kəpənək” uşaq oyununun tipoloji xüsusiyyətləri təsəvvüf və xalq inancları kontekstində /Axtarışlar. Elmi toplu, No1. AMEA Naxçıvan Bölməsi. Naxçıvan, 2014, s.21-32.
70. Məmmədova M. Azərbaycan və Anadolu folklorunda ənənəvi uşaq oyunları / İslam Coğrafiyasında və Azərbaycanda Xlaq Oyunları və Meydan Tamaşaları Beynəlxalq Elmi Konferansının Materialları. 15 iyul, Bakı: 2016, s. 171-180.
71. Muradoğlu N.M. Sabaha açılan qapı. Bakı: Şirvannəşr, 2009, 164 s.
72. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. I kitab. Bakı: Çıraq, 2009, 640 s.
73. Nəbiyev A. Azərbaycan uşaq folkloru. Bakı: Elm, 2000, 77 s.
74. Novruz bayramı ensiklopediyası. Bakı: Şərq-Qərb, 2008
75. Orucov T. Qarabağda xalq oyunları / Qarabağ folkloru: problemlər, perspektivlər mövzusunda Respublika konfransının materialları. Bakı: Elm və təhsil, 2012, s.35-54
76. Osmanova K. Xalq mərasimləri və nəğmələri. Bakı: Elm və təhsil, 2014, 96 s.

77. Saatlı folklor örnəkləri. I kitab. Bakı: Elm və təhsil, 2014, 392 s.
78. Smompk: Azərbaycan fokloru materialları. I C. Bakı: Elm və təhsil, 2018, 231 s.
79. Şəki folklor örnəkləri. I kitab. Bakı: Nurlan, 2014, 414 s.
80. Şəxsi arxiv materiallarımdan (əsasən Ordubad rayonu və Naxçıvan şəhərində toplanmışdır).
81. Təbriz folkloru örnəkləri. I kitab / Toplayıcılar K.Abbasi, Ə.Fərəhmədi, Ə.Bərazəndə, M.Ə.Muqəddəm. Bakı: Nurlan, 2013, 444 s.
82. Təhmasib M. Seçilmiş əsərləri. 2 cilddə, I c. Bakı: Mütərcim, 2010, 488 s.
83. "Ümumtürk kontekstində Qarabağ xalq ounları və meydan tamaşaları" mövzusunda Beynəlxalq Elmi Konferansın materialları. Bakı: Zərdabi LTD MMC, 2014, 520 s.

**Türk dilində**

84. Acıpayamlı O. "Anadolu'da Nazarla İlgili Bazı Âdet ve İnanmalar" // Ankara Üniversitesi Dil,Tarih ve Coğrafya Fakültesi Dergisi, Cilt 20, Sayı 1-2, 1962, s.2
85. Ahundov E. Azerbaycan Halk Yazın Örnekleri. Çeviren: Tezcan Semih. Ankara: TDK Yayınları, 1994.
86. Akkaya V. Cebel-i Nur ve Hiran`nın Dili Olsaydı // Altınoluk, Sayı 307, Eylül-2011, sayfa: 038/ www.altinoluk.com
87. And M. Oyun ve Büyü. İstabul: YKY, 2003, 527 s.
88. And M. "Çocuk Oyunlarının Kültürümüzde Yeri / Ulusal Kültür. Ankara: Ankara Üniversitesi Basımevi, 1979
89. And M. Anadolu`da Seyirlik Köylü Oyunları. TFA, Ekim 1968, s.231
90. Aras E. Türklerde Hıdrellez Geleneği / Milli Folklor, Yıl 14, Sayı 54, s.39-54

91. Artun E. Adana`da Yağmur Yağdırma Törenleri ve Çomçalı Gelin / http://turkoloji.cu.edu.tr
92. Artun E. Türk Halk Kültüründe Hıdırellez, 9 s. / http://turkoloji.cu.edu.tr
93. Artun E. Türk Halk Kültüründe Nevruz, 7 s. / http://turkoloji.cu.edu.tr
94. Artun E. Tekirdağ Folklor Araştırması. İstanbul: Tem Ofset, 1978, 295 s.
95. Artun E. Tekirdağ Folklorundan Örnekler. Tekirdağ: Taner Matbaası, 1983, 233 s.
96. Artun E. "Tekirdağda Hıdırellez Geleneği". Halk kültüründen derlemeler, "Hıdırellez özel sayısı", Ankara, 1990, s.1-23
97. Artun E. Tekirdağ Halk Kültüründe Geçiş Dönemleri, Doğum-Evlenme-Ölüm // Türk Dünyası İncelemeleri Dergisi: İstanbul, 1998, s.85-107.
98. Atay H. Teker Teker Tekerlemeler: Gülünçlük, Alaysama ve Sıradanlık Üzerine Gözlemeler / Milli Folklor, Yıl 14, Sayı 55, s.8-14.
99. Ayverdi İ. Misalli Büyük Türkçü Sözlük. 3 ciltte, I c. İstanbul: Kubbealtı Neşriyatı, 2006
100. Ayverdi İ. Misalli Büyük Türkçe Sözlük. 3 ciltte, II c. İstanbul: Kubbealtı Neşriyatı, 2006
101. Ayverdi İ. Misalli Büyük Türkçe Sözlük. 3 ciltte, III c. İstanbul: Kubbealtı Neşriyatı, 2006
102. Bakırcı N. Niğde Folklorunda Çocuk Oyunları / Milli Folklor, Yıl 19, Sayı 76, 2002, s.202-209 / http://www.millifolklor.com
103. Baran M. Çocuk Oyunları. Ankara: Kültür Bakanlığı Yayınları, 1993.
104. Banarlı N.S. Resimli Türk Edebiyatı Tarihi. 2 ciltte, I c. İstanbul: M.E.B. Yayınları, 2001

105.Banarlı N.S. Resimli Türk Edebiyatı Tarihi. 2 ciltte, II c. İstanbul: M.E.B. Yayınları, 2001
106.Barış A., Ece A.S. Kültürel Değerlerin Aktarılmasında Çocuk Tekerlemeleri "Tekerlemeleri Biliyor muyuz?"/ Değerler Eğitimi Dergisi, Cilt 13, No 29, Haziran 2015, s.343-368.
107.Başal H.A. Geçmiş Yıllarda Bursa İlinde Oynanan Çocuk Oyunları. Bursa II. Halk Kültürü Sempozyumu Bildirileri. Bursa: Uludağ Ün.Kültür Sanat Kurulu Yayınları, 2005, s.654-655
108.Başal H.A. Geçmiş Yıllarda Türkiye`de Çocuklar Tarafından Oynanan Çocuk Oyunları / Uludağ Universitesi Eğitim Fakultesi Dergisi, XX (2), 2007, s.243-266
109.Başoğul N. Renk'lerin Hayatımızdaki Etkileri // www.hakaynasi.com /...renklerin...etkileri/08.03.2012
110.Bayat F. Türk Mitolojisinde Dağ Kültü // Folklor/Edebiyat, Cilt 12, Sayı 46, 2006, s.
111.Boratav P.N. 100 Soruda Türk Halk Edebiyatı. İstanbul: Gerçek Yayınevi, 1992, 225 s.
112.Boratav P.N. Türk Halk Temaşası / Folklor ve Edebiyat 2, Adam Yay., 1982, s.497-507
113.Boratav P.N. Le "Tekerleme". 2.bs. İstanbul, 2000
114.Caferoğlu A. Anadolu Dialektolojisi Üzerine Malzeme I. Ankara: TDK Yayınıarı, 1994, 216 s.
115.Caferoğlu A. Anadolu Dialektolojisi Üzerine Malzeme II. Ankara: TDK Yayınıarı, 1994, 171 s.
116.Caferoğlu A. Doğu İllerimiz Ağızlarından Toplamalar. Ankara: TDK Yayənları, 1955, 294 s.
117.Caferoğlu A. Orta Anadolu Ağızlarından Derlemeler. Ankara: TDK Yayınları, 1995, 264s.
118.Çelebi A.H. Tekerleme. Bütün Yazıları. Haz.Hakan Sazyek. İstanbul, Yapı Kredi Yayınları, s.17-21.

119.Çelebi D.B. Türkiye ve Azerbaycan`daki Çocuk Oyunları ve Oyuncaklarının Karşılaştırmalı İncelemesi / Yüksek lisans tezi. Muğla: Muğla Üniversitesi, 2007, 294s.
120.Çongur H.R. Söz Sanatı. Ankara: TRT Yayınları, 1999.
121.Develioğlu F. Osmanlıca-Türkçe Ansiklopedik Lugat. Ankara: Aydın Kitabevi Yayınları, 2005, 1195 s.Duymaz A. Tekerlemelerin Kökeninde Şamanizm Unsurları /Milli Folklor, s.114-120
122.Dilci T., Gür T. Tekerlemelerin Eğitim-Öğretim Sürecince Kullanımına Yönelik İlköğretim Öğrencilerinin Görüşleri Sivas İli Örneği /Turkish Studies – İnternational Periodical For The Languages, Literature and Historry of Turkish or Turkic Volume 7/4, Ankara, Fall 2012, p.1503-1518
123.Elçin Ş. Çomçalı Gelin. TFA, Kasım 1968, s. 225
124.Göçgün Ö. Güzel Konuma Sanatı. Ankara: Güne Yayınları, 2000.
125.Erat A. Mitoloji Sözlüğü. İstanbul: Remzi Kitabevi, 2012, 335 s.
126.Göktaş G. Oyun Tekerlemelerinin Araştırılması ve İncelenmesi. Muğla Universitesi Yayımlanmamış Yüksek Lisans Tezi. 2006.
127.Güneş H. Çocuk Oyunları. Ankara: Anı Yayınları, 2003
128.Gümüştaş, N. Geleneksel Çocuk Oyunlarının Çağdaş Eğitimde Yararlanılması. Yüksek Lisans Tezi, Danışman: Hatice Öz. İstanbul: 2010, 120 s.
129.Gözaydın N. “Türk Masalları Üzerine” / Türk dili, 55 (434), Şubat, 102-108, 1988.
130.Habibov Y., Sözen İ. Anadolu ve Azerbaycan Türklerinin Çocuk Oyunlarının Karşılaştırılması / Ankara Üniversitesi Eğitim Fakültesi Dergisi, C.39, S.1, 2005, s.75-96
131.Hacıyeva M., Göktürk Ş., Paşayeva M. Azerbaycan folklor və etnoğrafya sözlüğü. Ankara: T.C.Kültür Bakanlığı, 1999, 226 s.

132.Jafarova İ. Azerbaycan Geleneksel Çocuk Oyunları / Acta TURCİCA Çevrimiçi Tematik Türkoloji Dergisi. Yıl 2, Sayı 1, Ocak 2010, s.244-261
133.Kabaklı A. Türk Edebiyatı. 5 ciltte, I c. İstanbul: Türk Edebiyatı Vakıf Yayınlar, 2004, s.451-487.
134.Kaya D. Anonim Halk Şiiri. Ankara: Akçağ Yayınları, 1999.
135.Kars Çocuk Oyunları. Hazırlayanlar: Akblak A., Bulut A.K., Aydın B., Fırtına C.H., Aras E., Turan F.Y., Vapur H., Gümüş K., Güven K., Aşık Y. Kasım, 2014, 111 s.
136.Kaya D. Sivas`ta Çocuk Oyunları / "Halk Kültüründe Eğlence" Uluslararası Sempozyumu Bildirisi, Kocaeli, 11-13 Aralık 2009, 10 s.
137.Kayar P. Van`ın Geleneksel Çocuk Oyunları ve Bu Oyunların Eğitsel Yönden İncelenmesi. Yüksek Lisans Tezi, Danışman: Yılmaz ÖNAY, Van: 2008, 201 s.
138.Kayabaşı O.A., Günindi Y. Çocuk Oyunlarında Tekerlemenin Yeri /21.Yazyılda Eğitim ve Toplum, C.5, Sayı 13, Bahar, 2016
139.Kazan Ş, Kırçık Ş.K. Dünden Bugüne Burdur`da Oynanan Çocuk Oyunları. I. Halkbilim Sempozyumu "Halk Biliminde Çocuk" Bildiriler Kitabı, Eskişehir: Osmangazi Üniversitesi Yayınları, 2004, s. 179-250
140.Melikova Y. Azerbaycan ve Türk Halk Temaşalarının Metin Kıyaslanması. Bakü: Araz, 2007, 238 s.
141.Memmedova M. Çocuk Oyun Tekerlemelerinde Dağ İmgesi / Edebiyyatta Dağ, XXV.Uluslararası Kıbatek Edebiyat Sempozyumu. 30 Ekim-3Kasım, Alanya-Türkiye, 2013, s.329-335.
142.Memmedova M. Azerbycan ve Anadolu Çocuk Oyun Tekerlemelerinde Renkler. III.Uluslararası Halk Küültürü Sempozyumu Bildiriler. Ankara: 2015, s.735-743.

143.Önal M.N. Oyun Tekerlemelerinin Yapısı ve Türkçe`nin Eğitim-Öğretimindeki Yeri /Muğla Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, Sayı 9, Güz, s.133-149.
144.Özbekir İ. Geleneksel Türk Çocuk Oyunlarında Fonksional Oyuncu "Ebe" / Uluslararası Sosyal Araştırmalar Dergisi, 2/6, 2009, s. 481-492
145.Özdoğan B. Çocuk ve oyun. Ankara: Anı Yayıncılık, 2004
146.Özel S. Çocuk tekerlemeleri. Ankara: Ezgi Yayıncılık, 1985.
147.Özhan M. Çocuk Oyunlarımız. Ankara: Kültür Bakanlığı Yayınları, 1990.
148.Özhan M., Muradoğlu M. Türk Cumhuriyetlerinde Çocuk Oyunları. Ankara: KB Yayınları, 1997, 143 s.
149.Özhan M. Türk Cumhuriyetlerinde Oynanan Çocuk Oyunları ve Tekerlemelerinin Türkiye`dekilerle Karşılaştırılması / İpek Yolu Uluslar arası Halk Edebiyatı Sempozyumu Bildirileri. Ankara: Kültür Bakanlığı Yayınları. 1993.
150.Özer D. Toplumsal Düzenin Oluşmasında Renk ve İletişim // ODÜ Sosyal Bilimler Enstitüsü Sosyal Bilimler Araştırmaları Dergisi. C.3, Sayı 6, Aralık 2012, s.268-281
151.Poyraz H. Okul öncesinde oyun ve oyun örnekleri (IV.Basım), Ankara: Pegem A Yayıncılık, 2012
152.Sakaoğlu S.Türk Dünyası Masallarının Başlangıç Kalıp Sözlerinden "Bir Varmış Bir Yokmuş" Üzrine Karşılaştırmalı Bir Denem / s.1351-1364 (turkoloji.cu.edu.tr)
153.Sakaoğlu S. Gümüşhane Masalları / Metin Toplama ve Tahlil, Ankara, 1973.
154.Sakaoğlu S. Gümüşhane ve Bayburt Masalları, Ankara 2002.
155.Sakaoğlu S. "Formel Kavram ve Türk Msallarında Benzer Durumlarda Kullanılan Formeller". I.Uluslararası Türk Folklor Semineri Bildirileri, Ankara, 1974.

156. Sakaoğlu S. Masal Araştırmaları. Ankara, 1999.
157. Şenbay N. Alıştırmalı Diksiyon Kitabı. İstanbul: MEB Yayınları, 1991.
158. Şendağ B.A. Sayışma ve tekerleme derlemeleri – çözümleri. Gazi Üniversitesi Eğitim Bilimleri Enstitüsü, Yayımlanmış yüksek lisans tezi, Ankara, 2009.
159. Şimşek E. Anadolu`da Yağmur Duasına Bağlı Olarak Oynanan Bir Oyun: "Çömçeli Gelin" / Milli Folklor, 2003, Yıl 15, Sayı 60, s.78-87
160. Turgut E. Elazığ Çocuk Oyunlarının Halk Bilimi Açısından İncelenmesi. Yüksek Lisans Tezi, Danışman: Esma ŞİMŞEK, Elazığ: 2005, 546 s.
161. Türkiye`de Çocuk Oyunları Derlemeler. Hazırlayanlar: B.Onur, N.Güney. Ankara: Ankara Ün.Basımevi, 2002, 554 s.
162. Türkiye`de 2004 Yılında Yaşayan Geleneksel Çocuk Oyunları / Yayına hazırlayanlar: M.Öcal Oğuz, P.Ersoy. Ankara: Gazi Üniversitesi THBMER Yayını, 2005, 184 s.
163. Türkiye`de 2011 Yılında Yaşayan Ramazan ve Kurban Geleneksel Kutlamaları, Hazırlayanlar: Öcal Oğuz, Mehmet Kösemek, Nihat Çiçekoğlu, Tuna Yıldız. Gazi Üniversitesi Halkbilimi Araştırma ve Uygulama Merkezi, 125 s. / www.thbmer.gazi.edu.tr
164. Türkiye`de Oynanan Geleneksel Çocuk Oyunları. Hazırlayanlar: M.Erçelik, N.Doğanoğlu, L.Koç, N.H.Köklüsoy, İ.Çetin, H.Sayın, A.Çağlar. Konya: Akif Paşa İlkokulu, 2011, 29 s.
165. Uca A. Türk Toplumunda Nevruz-I / A.Ü.Türkiyat Araştırmaları Dergisi, Sayı 32. Erzurum, 2007, s.137-170.
166. Ulutaş A. Okul öncesi dönemde (6 yaş) belli başlı oyunların çocukların psikomotor gelişimine etkisi. Yayınlanmış yüksek lisans tezi, İnönü Üniversitesi Eğitim Bilimleri Enstitüsü, Malatya, 2011.

167. Yalçın C. Güzel Konusma ve Yazma Kılavuzu. Ankara: İlayda yayınları, 1991, s.216-221
168. Yamakoğlu C. Türkiye`de Çocuk Oyunları / Erdem Türk Halk Kültürü Özel Sayısı III, C.13, Sayı 39. Ankara: Can Ofset, 2002, s.543-549
169. Yardımcı M. Kıbrıs ve Diğer Türk Ülkelerinde Ortak Ninni ve Tekerlemeler / II.Uluslararası Kıbrıs Araştırmaları Kongresi, 24-27 Kasım, 1998, 11s.
170. Yaşar H. Balıkesir ve Yöresinde Çocuk Fokloru Ürünleri Üzerine Derlemeler ve İncelemeler. Yüksek Lisans Tezi, Temmuz 2008, 403 s.
171. Zengin D. Tekerlemelerin Çevirisi. s.44-54 // (turkoloji.cu.edu.tr)

## Elektron mənbələr

172. http://turkoloji.cu.edu.tr
173. www.thbmer.gazi.edu.tr
174. http://tdkterim.gov.tr
175. www.turkiyat.hacettepe.edu.tr/dergi...
176. www.kahramaninruhsalyolculugu.blogspot
177. www.dersimiz.com/**tekerleme**/**tekerlemeler**
178. www.sozce.com/nedir/113670-**epenek**
179. www.eksisozluk.com/**el-el-epenek**/kelebek/
180. www.nedirnedemek.com/epelek-nedir-epelek
181. www.ne-demek.net/anlamı/**epelek**
182. www.spiritualizm.com/birbilgi
183. www.eogretmen.org/**tekerlemeler**.htm
184. www.nuveform.net
185. www.lent.az
186. www.edebiyatform.com
187. www.diledebiyat.net
188. www.zenginbilgiler.com

189.https://kbradmrts.wordpress.com/tekerleme-cesitleri/(okul öncesi öğretmenliği-tekerlemeler)
190.https://www.turkedebiyati.org/okuloncesi-tekerlemeler-bilmeceler.html
191.http://www.kulturelbellek.com/yaniltmacalar-hakkinda-bilgi/
192.https://www.dersimiz.com/yaniltmacalar-sasirtmacalar-soylemesi-zor-diksiyon-tekerlemeleri.asp
193.http://www.tekerlemelerimiz.com
194.http://www.nuveforum.net/1547-tekerlemelerimiz 49256-yaniltmaca-sasirtmaca-tekerlemeler
195.http://www.tekerlemelerimiz.com/Sasirtmacalar-Yaniltmacalar
196.www.wikipedia.org/dağ
197.http://www.tekerlemelerimiz.com/Diksiyon-Tekerlemeleri
198.http://www.tekerlemelerimiz.com/Cocuk-Tekerlemeleri
199.http://www.tekerlemelerimiz.com/Oyun-Tekerlemeleri
200.http://www.tekerlemelerimiz.com/Sayili-Tekerlemeler
201.http://www.tekerlemelerimiz.com/Masal-Tekerlemeleri
202.http://www.tekerlemelerimiz.com/Egitici-Tekerlemeler

# MÜNDƏRİCAT

**GİRİŞ**.........................................................................3
**I FƏSİL**
**TƏKƏRLƏMƏLƏRİN NAĞILDA VƏ**
**OYUN-TAMAŞA KOMPOZİSİYASINDA YERİ;**
**TİPOLOJİ TƏSNİFATI** ..........................................................12
**1.Nağıl təkərləmələri** ..............................................................14
**2. Günlük əyləncə-oyun təkərləmələri** .....................................18
***2.1. Oyun başı təkərləmələri***.....................................................18
*- Oyunçuları oyuna çağırma təkərləmələri.* ................................18
*- Oyunçu seçimi təkərləmələri*....................................................20
***2.2. Oyun içi təkərləmələri*** ........................................................24
*- Təkrarlanan təkərləmələr*..........................................................24
*- Təşviq edici təkərləmələr*...........................................................26
*- Acıtma, öcəşmə, dolama tipli təkərləmələr.* ..............................27
*- Yanıltmac təkərləmələr*..............................................................29
***2.3. Oyun sonu təkərləmələri*** ......................................................30
**3. Mərasim təkərləmələri**. .........................................................33
3.1. *Yağış yağdırma mərasimi təkərləmələri* ...............................33
3.2. *Günəşi çağırma mərasimi təkərləmələri*...............................35
3.3. *Yeli-küləyi çağırma mərasimi təkərləmələri*.........................36
3.4. *Saya mərasimi təkərləmələri* ................................................37
3.5. *Bayram mərasimi təkərləmələri*............................................38
*-Xıdır mərasimi təkərləmələri*.......................................................38
*-Novruz mərasimi təkərləmələri* ...................................................39
*-Ramazan mərasimi təkərləmələri* ................................................41
*-Qurban mərasimi təkərlmələri...* .................................................42
3.6. *Toy mərasimi təkərləmələri* ..................................................43
**4.Uşaq oyun təkərləmələrində rənglər**.......................................47
**5.Təkərləmələrdə dağ obrazı** ......................................................60
**II FƏSİL**
**TƏKƏRLƏMƏ ÇEŞİDLƏRİ VƏ ÖRNƏKLƏRİ** ...................71
**1.Sanamalar** ................................................................................73
*-Barmaqları öyrətmək üçün söylənən təkərləmələr* ......................74
*-Sayları öyrətmək üçün söylənən təkərləmələr* ............................76

*-Əbə seçimi təkərləmələri*.......................................................... 80
**2.Düzgülər** ......................................................................................98
*-"Əl-əl əpənək" təkərləməsi*.......................................................99
*-"Üşüdüm ha üşüdüm" təkərləməsi* ..........................................111
**3.Yanıltmaclar** ...............................................................................120
*-Azərbaycan yanıltmaclarına nümunələr* ...................................126
*-Anadolu yanıltmaclarına nümunələr*.........................................142
**4.Mərasim təkərləmələrilə zəngin*"Axrət ana"oyunu***...............156
**NƏTİCƏ** ..........................................................................................166
**QAYNAQLAR**...................................................................................169

# AZƏRBAYCAN VƏ ANADOLU FOLKLORUNDA TƏKRARLAMALAR

"Elm və təhsil" nəşriyyatının direktoru:
Professor Nadir MƏMMƏDLİ

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor**: Yadigar Mirbağırzadə

Çapa imzalanmış 18.03.2019
Şərti çap vərəqi 11,75. Sifariş № 64
Kağız formatı 60x84 1/16. Tiraj 500 .

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4